SEVİL BƏHRƏMOVA
AMƏNƏ KƏRBƏLAYEVA
GÜNTƏKİN NƏCƏFLİ

# ÜMUMİ TARİX

*8-ci sinif*

**MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT**

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin
08.06.2015-ci il tarixli 645 №-li
əmri ilə təsdiq edilmişdir.*

Çap üçün deyil

«ASPOLİQRAF»
BAKI—2015

**Bəhrəmova S., Kərbəlayeva A., Nəcəfli G.**
**B58** **Ümumi tarix.** 8-ci sinif. Müəllim üçün metodik vəsait. Bakı, «Aspoliqraf», 2015, 128 səh.

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Çap üçün deyil

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2015**

# METODİK VƏSAİT HAQQINDA

***Hörmətli müəllimlər!***

Cəmiyyətin inkişafının hazırkı mərhələsində şagirdləri bilik və bacarıqla silahlandırmaq, onları şəxsiyyət kimi formalaşdırmaq çox böyük əhəmiyyət kəsb edir. Bunun üçün isə məktəbin təlim-tərbiyə işini hərtərəfli yaxşılaşdırmaq, dərs prosesini təkmilləşdirmək, dərslərin və sinifdənkənar işlərin tərbiyəvi əhəmiyyətini yüksəltmək lazımdır. Şagirdlər tarix dərsinin vasitəsilə tarixi inkişafın ardıcıl mərhələlərini izləməklə nəticə və ümumi ideyalar əldə edə biləcəklər. Şagirdlərin ən mühüm tarixi anlayışları mənimsəməsi, ictimai inkişaf qanunlarını başa düşmələri, tarixə dair biliklərini tətbiq etmək bacarığına yiyələnmələri tarix fənninin əsas məqsədidir.

Müasir dövrdə ictimai-siyasi həyatımızın bütün sahələrində, o cümlədən təhsil sahəsində böyük uğurlar əldə olunmuşdur. Ölkəmizdə aparılan təhsil islahatı yeni yanaşmalarla özünü göstərməkdədir. Dünyanın bir çox ölkələrinin təcrübəsi əsasında formalaşdırılaraq təhsilin inkişafına xidmət edən bu yeniliklər, respublikamızda məqsədyönlü təhsil islahatlarının aparılması ümumtəhsil məktəblərində tarixin tədrisi sahəsində də uğurlu nəticələrin əldə olunmasına imkan yaratmışdır. Bu gün şagird mövzunu araşdırarkən müəyyən bacarıqlara da yiyələnir. Təfəkkürün inkişafına xidmət edən bu yanaşma artıq 8 ildir ki, Azərbaycan məktəblərində öz tətbiqini tapmaqdadır.

Sizə təqdim olunan müəllim üçün metodik vəsait VIII sinif üçün nəzərdə tutulmuş «Ümumi tarix» dərslik komplektinin tərkib hissəsidir. Dərslik komplektinə dərslik və müəllim üçün metodik vəsait daxildir. Sizə təqdim olunan dərslik komplekti Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün hazırlanmış VIII sinif «Ümumi tarix» fənn proqramı (kurikulumu) əsasında tərtib edilmişdir.

Müəllim üçün nəzərdə tutulan bu vəsait dərsliklə işin təşkilinə xidmət edir. Bu vəsait tövsiyə xarekteri daşıyır, sizlərə istiqamət vermək funksiyasını öz üzərinə götürür. Dərslikdə Ümumi tarix fənn kurikulumunun məzmununa daxil olan bütün məzmun standartları 3 bölmədə birləşən 26 mövzuda reallaşdırılmışdır. Standartların reallaşdırıldığı bütün mövzularda maksimum səviyyədə şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmış, onların sadə dildə və lakonik olması gözlənilmişdir. Bu məqsədlə çoxsaylı sxemlərdən, şəkillərdən, praktik tapşırıqlardan istifadə olunmuş, yeni sözlərin, terminlərin izahına, maraqlı məlumatlara yer ayrılmışdır. Təlim materialları sadədən mürəkkəbə, məntiqi və xronoloji ardıcıllıq nəzərə alınmaqla düzülmüşdür. Hər bir mövzuda verilmiş sual və tapşırıqlar şagirdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişafına yönəldilmişdir. Ümid edirik ki, bu tapşırıqlar sizlərə standartları reallaşdırmaqda köməklik göstərəcəkdir.

Dərs şagirdlərin bilik və bacarıqlarının üzə çıxarılmasına xidmət edir. Bu zaman bacarıqlar şagirdin psixoloji durumundan tutmuş yaş xüsusiyyətinə qədər nəzərə



Çap üçün deyil

alınmaqla düzgün şəkildə üzə çıxarılmalıdır. Sinfin zəif və güclü şagirdləri nəzərə alınmalı, onların potensial imkanlarını ortaya qoymaqdan ötrü seçilən tapşırıqlar məqsədyönlü olmalıdır. Bəzən güclü şagird çox asan suala rahatlıqla cavab verir. Yaxud da çox zəif şagirdi olduqca mürəkkəb tapşırıqlarla üz-üzə qoymuş oluruq. İlk baxışdan bu normal hal hesab olunsa da, pedaqoji və psixoloji baxımdan bu düzgün deyil. Bu zaman şagirdin dərsə marağı sönür, fəallaşma azalır. Zəif şagird çox çətin tapşırığı reallaşdıra bilmədiyi üçün stimuldan düşür, qorxu və uğursuzluq hissi daim onu təqib edir. Artıq dərs onun üçün maraqsızdır. Eyni maraqsızlıq güclü şagirddə də ola bilər. O asanlıqla həll etdiyi sual və tapşırıqdan fəallaşa bilmir. Təfəkkürü inkişaf etdirmək üçün heç bir maraqları yoxdur. Bütün bunların olmaması üçün müəllim əsl bələdçi olmalıdır. O böyük ustalıqla şagirdlərə düzgün yanaşmalı, eyni zamanda dərsə maraq olsun deyə keçiləcək mövzunu düzgün istiqamətləndirməlidir. Qoyduğu məqsədə çatmaq üçün o, düzgün araşdırma bacarığı yaratmağı planlaşdırmalıdır. Bu zaman qoyduğu tədqiqat sualı şagirdlərin işləmə imkanına şərait yaratmalıdır.

VIII sinif «Ümumi tarix» dərsliyi interaktivliyi təmin etmək məqsədilə hazırlanmışdır. Burada verilən mövzular motivasiya ilə başlanır, suallarla əhatə olunaraq şagirdlərin müstəqil düşünməsinə şərait yaradır. Mövzular hazırlanarkən müəyyən hissələrin sual və tapşırıqlarla əhatə olunması mövzunun tam mənimsənilməsi ilə yanaşı, düzgün yanaşma, həmçinin qərarların qəbulu üçün şərait yaradır. Şagird müstəqil düşüncəyə sahibdir. Onun şəxsiyyət kimi yetişməsi və formalaşması dərs mühitində reallaşır. Hazırlanmış dərslik buna xidmət etməyə çalışmışdır. Təlim materiallarının düzülməsində sadədən mürəkkəbə, məntiqi və xronoloji ardıcıllıq nəzərə alınmışdır. Hər bir mövzuda verilmiş sual və tapşırıqlar şagirdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişafına yönəldilmişdir.

Müəllim üçün vəsait bu dərslikdəki materialların şagirdyönümlü və nəticəyönümlü şəkildə reallaşdırılmasına yardımçı olacaqdır. Dərsliklə yaxından tanış olan müəllim öz işinin səmərəli alınması üçün metodik vəsaitdə verilən tövsiyələrdən istifadə edə bilər. Dərslik üçün tövsiyələrin verilməsi aşağıdakı kimi qruplaşdırılmışdır.

Çap üçün deyil

## 2. NADİR ŞAH ƏFŞAR İMPERİYASI



*Səfəvi torpaqları əfqanlar, osmanlılar və ruslar tərəfindən bölüşdürülmüşdü. Şah II Təhmasib (1722–1732) ölkəni birləşdirmək uğrunda mübarizəyə başladı. Ordunun baş komandanı, qətiyyətli, cəsarətli, hərb sənətini yaxşı bilən Azərbaycan sərkərdəsi Nadir xan Əfşar qısa müddətdə ölkəni xarici işğalçılardan təmizlədi. Səfəvi imperiyasının tarixi sərhədlərini bərpa etdi. 1736-cı ilin martında Nadir xan Əfşar Səfəvi dövlətinə son qoyaraq Azərbaycan Əfşarlar imperiyasını yaratdı.* A

C

**Azərbaycan Əfşarlar imperiyasının yaranması Yaxın Şərqin tarixində hansı izləri qoydu?**

**Açar sözlər:** *Muğan, Dehli, Xorasan, Nadir şah, Hindistan*

**Yadelli təcavüzkarlara qarşı mübarizə. Muğan qurultayı.** Azərbaycan türklərinin Əfşar boyundan olan istedadlı sərkərdə Nadir xan XVIII əsrin 20-ci illərinin sonunda əfqanları ağır məğlubiyyətə uğratdı və ölkədən qovdu. Nadir xan Təbriz və Ərdəbil şəhərlərini Osmanlı qoşunlarından azad etdi. Bununla Nadirin xalq arasında nüfuzu daha da artdı. Bu, II Təhmasibin narahatlığına səbəb oldu. O öz nüfuzunu qaldırmaq üçün 1731-ci ildə osmanlılar üzərinə özü hücuma keçdi. Lakin II Təhmasibin niyyəti baş tutmadı. O, İrəvan yaxınlığında ağır məğlubiyyətə düçar oldu. II Təhmasibin Osmanlı dövləti ilə sülh bağlaması və yenidən Səfəvi torpaqlarının itirilməsi onun Nadir xan tərəfindən hakimiyyətdən kənarlaşdırılması və azyaşlı oğlu III Abbasın şah elan olunması ilə nəticələndi. Real hakimiyyət onun qəyyumu kimi Nadir xanın əlinə keçdi. B C E

***Sizcə, Nadir xan Təhmasibi nə üçün taxtdan salmışdı?***



*Nadir şah Əfşarın abidəsi. İran İslam Respublikası*

11

Çap üçün deyil



*Muğan qurultayı. Nadir xan Əfşarın şah elan olunması*

Öz nüfuzundan istifadə edən Nadir xan 1736-cı ildə Muğan qurultayını çağırdı. Qurultayda Nadir xan dövlət başçısı – ***şah*** seçildi. Bununla da Səfəvilər sülaləsinin hakimiyyətinə son qoyuldu.

Nadir şahın hakimiyyəti dövründə (1736–1747) ölkədə ara müharibələri kəsildi. İri tayfa başçılarının müqaviməti qırıldı və onlar mərkəzi hakimiyyətə tabe edildi. Mərkəzi hakimiyyəti möhkəmləndirmək məqsədilə islahatlar keçirildi. Dində sünni-şiə parçalanmasını ləğv etmək üçün tədbirlər görüldü.

**Əfşarlar imperiyasının genişləndirilməsi.** Nadir şah dövlətin sərhədlərini genişləndirmək, hərbi yürüşlər hesabına xəzinəni doldurmaq istəyirdi. Bu məqsədlə o, 1737-ci ildə Əfqanıstana yürüş etdi. O, Qəndəhar və Kabulu ələ keçirdi. Bunun ardınca Böyük Moğol imperatoru Məhəmməd şahı əfqanlara sığınacaq verməkdə günahlandıran Nadir şah Hindistana yürüşə hazırlaşdı.

***Sizcə, Moğol imperatoru əfqanlara sığınacaq verməsəydi, Nadir şah Hindistana yürüş etməzdimi?***

1738-ci ildə Nadir şah 100 minlik ordu ilə yürüşə başladı. Cəlalabada yetişən Nadir şaha xəbər verdilər ki, Moğol hökmdarının elçisi onunla görüşmək istəyir. Nadir şah Moğol hökmdarı Məhəmməd şahın elçisini qəbul etdi. Elçi söylədi ki, Moğol imperatoru Nadir şahın yürüş etməkdə məqsədinin nə olduğunu bilmək istəyir. Nadir şah elçiyə bildirdi ki, «Məhəmməd şahın sualına Dehlidə şəxsən özüm cavab verəcəyəm».



*Nadir şah döyüşdə*

***Nadir şah elçiyə verdiyi cavabla nə demək istəyirdi?***

Çap üçün deyil

Nadir şah 1739-cu ildə Lahordan Şahcahanabad istiqamətində yürüşə başladı. Moğol imperatoru Məhəmməd şah böyük ordu ilə Karnal düzündə Nadir şahı qarşıladı. Əfşar-türk ordusu ilk dəfə idi ki, fillərlə qarşılaşırdı. Amma Nadir şahın tədbiri qələbəni təmin etdi. Döyüş başlayan kimi Nadir şahın əmri ilə yağ və saman yüklənmiş dəvələrə od vurub düşmən tərəfə qovdular. Vahiməli səslərdən və pis qoxudan dəhşətə gələn fillər irəliyə doğru hərəkət edə bilməyib geri döndü və Moğol ordusunu ayaqladı. Bundan istifadə edən Nadirin süvariləri hücuma keçdilər. Aramsız top atəşi ilə Moğol qoşunları dağıdıldı. Böyük itki verən Moğol qoşunu ruhdan düşüb hökmdardan təslim olmağı tələb etdi. Məhəmməd şah elçi göndərib sülh bağlamağı təklif etdi və şəxsən özü Nadir şahın hüzuruna gəldi. Sülhün şərtlərinə görə Hind çayından qərbdəki ərazilər Nadir şahın imperiyasına qatıldı. Moğol hökmdarının Dehlidəki xəzinəsi, ordugahdakı ərzaq və sursat, top və fillər də Nadir şaha təhvil verildi.



*Nadir şah Moğol hökmdarı Məhəmməd şahı vassallığa qəbul edir*




Novruz bayramı ərəfəsində Nadir şah ağ atın belində top atəşləri ilə Dehliyə daxil oldu. Novruz bayramı günü onun adına məscidlərdə xütbə oxundu. Elə

Çap üçün deyil



*«Kuhi-nur»*



*Nadir şahın İstanbulun Topqapı Muzeyində saxlanılan taxtı*

həmin gün Moğol hökmdarının sarayında ziyafət təşkil olundu. Təmtəraqlı qəbulun ardınca Məhəmməd şahın xəzinəsinin açarları da Nadir şaha təqdim olundu. Moğol imperatorunun daş-qaşla bəzədilmiş qızıl taxtı və dünyanın ən məşhur brilyantı «Kuhi-nur» da Nadirə hədiyyə edildi. Beləliklə, Azərbaycan Əfşarlar imperiyasının sərhədləri şərqdə Hind çayına kimi genişləndi.

***Moğol hökmdarı ilə bağlanmış sülhün şərtlərinə nələr daxil idi?***

1740-cı ildə Nadir şah Türküstana yürüşə hazırlaşmağa başladı. Yürüşə səbəb Xivə xanının Nadir şahın tələblərinə məhəl qoymaması idi. Xivə xanı dəfələrlə Xorasana yürüşlər etmişdi. Nadir şah Xorasana növbəti müdaxilələrin qarşısını birdəfəlik almaq istəyirdi.

Şiddətli müqavimət göstərməsinə baxmayaraq, Xivə xanı məğlub oldu. Nadir şahın hakimiyyətini qəbul etdi. Bu yürüşdən sonra Buxara xanı Əbülfəzl xan özünü Nadirin vassalı elan etdi.

1740-cı ilin sonlarında Nadir şah Mərvdən keçməklə öz doğma kəndinə qayıtdı. Kəlatı abadlaşdırdı, orada yeni bağlar saldırdı, su ehtiyatlarını artırdı. Özü üçün məqbərə tikilməsinə göstəriş verdi. Məqbərənin tikintisi üçün Marağadan qara mərmər gətirildi.

Nadir şah 1743–1746-cı illərdə Osmanlı imperiyası ilə apardığı müharibədə bir sıra yeni uğurlar qazandı. Lakin müharibələr ölkə iqtisadiyyatına ağır zərbə vurdu. Gündən-günə artırılan vergilər ölkədə narazı qüvvələrin üsyanına səbəb oldu.

Çap üçün deyil

Omrünün son illərində yaratdığı böyük imperiyanı çökməyə qoymamağa çalışan Nadir şahın sərt cəzaları da üsyanlar dalğasının genişlənməsinə təkan verdi. 1747-ci ildə Nadir şah saray qruplarının sui-qəsdi nəticəsində öldürüldü. Ölkədə ara müharibələri və mərkəzi hakimiyyət uğrunda mübarizə kəskinləşdi.

Böyük Azərbaycan sərkərdəsi Nadir şah Əfşar sərkərdəlik istedadı ilə dünya fatehləri arasında özünəməxsus yer tutur. Təsadüfi deyildir ki, hərbi uğurlarına və böyük strateq olduğuna görə onu Şərqin İsgəndəri və Napoleonu adlandırmışlar.

***Nadir şaha verilən bu qiymətlər sizdə hansı hisləri oyadır?***

C

## Sual və tapşırıqlar

1. Nadir şahın islahatlar həyata keçirməkdə məqsədi nə idi? 2. Nadir şahın dövrünün ən məşhur fatehlərindən biri olduğunu sübut etməyə çalışın. 3. Nadir şahın fəthlərinin (fəth etdiyi ölkələri və şəhərləri göstərməklə) ***sxemini*** dəftərinizə çəkib doldurun.




4. Əfşarlar imperiyasının ərazisini müasir xəritədə göstərin.

## XRONOLOGİYA

| 1736-cı il | 1739-cu il | 1740-cı ilin sonları | 1747-ci il |
|---|---|---|---|
| | | | |



15

Çap üçün deyil

**A. Motivasiya.** Bu mərhələ şagirdlərin fəallaşdırılmasına, araşdırılacaq mövzuya marağın artırılmasına imkan açır. Şagird dərslikdəki A blokuna daxil olan materiallarla tanış olarkən şagirdin fəallaşmasına, eləcə də mexanizmin işə salınmasına xidmət edir.

**B. Yeni biliklər.** Mövzu ilə bağlı izahatlar, dərsin əsas məzmunu dərsliyin bu hissəsində verilir.

**C. Sual və tapşırıqlar.** Maraq yaradan hadisələrin araşdırılmasına yönəlmiş tədqiqat xarakterli sual və tapşırıqlardan ibarətdir. Standartda nəzərdə tutulmuş bilik və bacarıqların formalaşmasına xidmət edir.

**D. Xəritə, sxem və cədvəllər.** Xəritənin köməyi ilə baş vermiş dəyişiklikləri, eləcə də ölkələrin ərazilərini müəyyən etməkdə yardımçı olur. Sxem və cədvəllərin köməyi ilə dövr haqqında təsəvvürlər formalaşır.

**E. Şəkillər və illüstrasiyalar.** Tarix dərslərində ən maraqlı məqamlardan biridir. Şagird öyrəndiyi dövr və hadisəni şəkil və illüstrasiyanın köməyi ilə tam təsvir edir.

Müəllim üçün hazırlanmış metodik vəsaitdə dərslərin reallaşdırılması, planlaşma, düzgün strategiya, standartlardan çıxan məqsəd, məqsədə uyğun meyarlar öz əksini tapmışdır. Siz bütün bunlarla yanaşı, standartların şərti ilə tanış olacaq, inteqrasiya imkanları haqqında məlumatlanacaqsınız.

Hər bir mövzunun tədrisi, onun tətbiqi imkanları metodik vəsaitdə tövsiyələr şəklində öz əksini tapır. Bu vəsait bir növ sizə istiqamət vermək üçün tərtib olunmuşdur və işinizin səmərəli təşkili üçün yardımçı rol oynayacaqdır.

Metodik vəsaitdə verilmiş dərs nümunələri, hər bir mövzunun reallaşdırılmasının izahı tövsiyə xarakteri daşıyır. Unutmayın ki, heç bir dərs nümunəsi ehkam deyildir. Siz öz işinizin tətbiqində sərbəstsiniz. Siz bu tövsiyələr əsasında daha da səmərəli dərslər qurmaq imkanına maliksiniz. Unutmayın ki, VIII sinif Ümumi tarix fənn kurikulumunun standartlarını nəzərə almaqla şagirdlərinizə bilik və bacarıq verməkdə sərbəstsiniz. Mövzuların tədrisi zamanı öz sinfinizin və məktəbinizin imkanlarına uyğun strategiya müəyyən edib fəaliyyətinizi qura bilərsiniz. Ümid edirik ki, hazırlanmış metodik vəsait sizin fəaliyyətinizi səmərəli qurmanıza kömək edəcəkdir.

Çap üçün deyil

# FƏNNİN MƏZMUN XƏTLƏRİ VƏ ONLARIN ƏSASLANDIRILMASI

«Ümumi tarix» fənninin məzmunu onun məzmun xətləri əsasında qurulur. Məzmun xətləri fənn üzrə ümumi təlim nəticələrinin reallaşdırılmasının istiqamətlərini müəyyən edir.

«Ümumi tarix» fənni üzrə ümumi və tam orta təhsil pillələri üçün ümumi olan aşağıdakı məzmun xətləri müəyyənləşdirilmişdir:

1. Tarixi zaman;
2. Tarixi məkan;
3. Dövlət;
4. Şəxsiyyət;
5. Mədəniyyət

«Ümumi tarix» fənnindən hər sinifdə şagirdin fəaliyyətinin səviyyəsi məzmun xətləri üzrə standartlara uyğun olaraq inkişaf etməkdə davam edir. Hər bir sonrakı sinifdə şagird əvvəlkinə nisbətən daha mürəkkəb zehni, əməli, kommunikativ fəaliyyətləri icra etməli olur, yəni şagirdlərin fəaliyyətinə verilən tələblər sinifdən-sinfə keçdikcə mürəkkəbləşir.

## TARİXİ ZAMAN

Tarixi fakt müəyyən bir zaman çərçivəsində baş verir. Hadisənin baş verdiyi vaxtı müəyyən etməklə onun özündən əvvəlki və sonrakı hadisələrlə əlaqəsini, səbəb və nəticələrini müəyyən etmək olar. Məktəblinin zamanla bağlı təsəvvürü yoxdursa, onda onun tarixlə bağlı təsəvvürləri də tarixi bilik deyildir. Tarixi faktları zamanla əlaqədə götürmədən düzgün tarixi biliyə malik olmaq qeyri-mümkündür.

Tarixin mənimsənilməsində xronologiyanın böyük rolu vardır. Xronologiyanın mənimsənilməsi tarixi yadda saxlamağa, tarixi hadisələrin ardıcıllığını müəyyənləşdirməyə, onların arasındakı əlaqəni ortaya çıxarmağa imkan verir.

Xronoloji və sinxron məsələlərin həlli tarixi faktın ardıcıl və şüurlu mənimsənilməsində, onlar arasındakı əlaqənin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayır, tarix materialının ümumiləşdirilməsinə, dərk olunmasına imkan yaradır.

## TARİXİ MƏKAN

Müəyyən tarixi proses zamanla yanaşı, konkret bir məkan daxilində baş verir. Konkret məkanla əlaqədə götürülməyən tarixi fakt real məzmundan uzaq, mücərrəd bir təsəvvür hesab edilir. Faktların məkan əlaqələri onların mənimsənilməsinin ən zəruri şərtlərindən biri kimi çıxış edir.

Məkanın müəyyən edilməsi təbiətlə cəmiyyət arasındakı əlaqəni aşkara çıxarmağa, onların qarşılıqlı təsirini görməyə imkan verir. İnsanlar, xalqlar, dövlətlər, cəmiyyətlər bir-birlərindən təcrid edilmiş vəziyyətdə uzun müddət yaşaya bilməz-

Çap üçün deyil

lər. Onlar inkişaflarını təmin etmək üçün bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərirlər. Bu əlaqələrin sabitliyi, dinamikliyi, yaxud qısamüddətliliyi onların yerləşdiyi məkanın xarakterindən, orada baş verən hadisələrdən asılı olur. Tarixi məkanın xalqların, dövlətlərin və cəmiyyətlərin həyatına təsirini nəzərə almaqla onların inkişaf xüsusiyyətlərini müəyyən etmək mümkündür. Bütün bunlar isə tarixi faktların məkan əlaqələrinin öyrənilməsini və qiymətləndirilməsini zəruri edir.

## DÖVLƏT

Ən qədim dövrlərdən insanlar özlərinin maddi tələbatlarını ödəmək üçün öz aralarında müəyyən münasibətlərə girmiş, istehsal fəaliyyətlərini təkmilləşdirmişlər. İstehsalın inkişafı insanlar arasında iqtisadi münasibətlərin xarakterinə də təsir göstərmişdir.

İqtisadi həyatda baş verən proseslər cəmiyyətin təşkili formalarının dəyişməsinə, sosial qrupların, təbəqələrin yaranmasına gətirib çıxarır. Dəyişikliklərdə sosial hərəkatlar əhəmiyyətli rol oynayır. Cəmiyyətin inkişafı prosesini öyrənmək və dərk etmək üçün onun sosial-iqtisadi həyatı haqqında biliklərə yiyələnmək və onları qiymətləndirmək zəruri hesab edilir.

İnsanların daxil olduğu ən mürəkkəb və eyni zamanda sabit qurum dövlətdir. Tarix təlimində məktəblilərin dövlətin yaranması prosesi, onun tipləri, idarəçilik formaları ilə tanış olmaları dövlətin siyasi quruluşu ilə ölkənin sosial-iqtisadi, mədəni həyatı arasındakı əlaqəni görməyə, dövlətin cəmiyyətin həyatındakı rolunu başa düşməyə kömək edir.

## ŞƏXSİYYƏT

Tarixi şəxsiyyətlərin fəaliyyəti tarixi hadisələrin gedişinə müəyyən təsir göstərir. Onların fəaliyyətinin təhlil edilməsi və qiymətləndirilməsi tarixdə görkəmli şəxsiyyətlərin rolunu müəyyənləşdirməyə, hadisələrin səbəb-nəticə əlaqələrini müəyyən etməyə imkan verir. Bu mənada şagirdlərin tarixi inkişafın müxtəlif mərhələlərində şəxsiyyətin rolunu dəyərləndirməsi üçün onları dünya tarixinin görkəmli şəxsiyyətləri ilə tanış etmək, həmin şəxsiyyətlərin fəaliyyətini öyrənməyə, bu fəaliyyəti müzakirə etməyə, nəticələr çıxarmağa sövq etmək böyük əhəmiyyət daşıyır.

## MƏDƏNİYYƏT

Tarix təlimində ayrı-ayrı tarixi dövrlərin mədəniyyəti barəsində biliklərə yiyələnmək mədəniyyətin təşəkkülü və inkişafı ilə siyasi, sosial-iqtisadi həyat arasındakı əlaqəni görməyə, qiymətləndirməyə imkan verir. Mədəniyyət tarixinin öyrənilməsi həm də xalqların və sivilizasiyaların dünya mədəniyyətinin zənginləşməsindəki rolunun dəyərləndirilməsində, mədəniyyətlərarası və sivilizasiyalararası münasibətlərin bəşəriyyətin sonrakı inkişafına təsirinin müəyyənləşdirilməsində əsaslı rola malikdir.

Çap üçün deyil

# MƏZMUN XƏTLƏRİ ÜZRƏ TƏLİM NƏTİCƏLƏRİ

***Ümumi orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri***

**1. Tarixi zaman**

***Şagird:***

– tarixi dövrləri xarakterik əlamətlərinə görə fərqləndirir;
– hadisə və faktları dövr baxımından qiymətləndirir və onlara münasibət bildirir;
– tarixi paralellər aparmaq yolu ilə ayrı-ayrı dövlətlərin inkişaf xüsusiyyətlərini müqayisə edir, mülahizələrini şərh edir.

**2. Tarixi məkan**

***Şagird:***

– tarixi məkana görə ictimai, iqtisadi, siyasi və mədəni prosesləri müqayisə edir və mülahizələrini şərh edir, nəticələri təqdim edir.

**3. Dövlət**

***Şagird:***

– ayrı-ayrı dövlətlərin yaranması və inkişafı xüsusiyyətlərini, ictimai, iqtisadi və siyasi prosesləri müqayisə edir, mülahizələrini açıqlayır;
– dövlətlərə aid müxtəlif tarixi mənbələri araşdırmaqla lazımi materialları toplayıb sistemləşdirir və təqdim edir.

**4. Şəxsiyyət**

***Şagird:***

– tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir, onlara münasibət bildirir;
– mənbələri araşdırmaqla tarixi şəxsiyyətlərə dair materiallar toplayır, təqdimatlar edir.

**5. Mədəniyyət**

***Şagird:***

– mədəniyyətləri və sivilizasiyaları xarakterik əlamətlərinə görə müqayisə edir və fərqləndirir;
– müxtəlif xalqların mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, təqdimatlar edir.

Çap üçün deyil

*Tam orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri*

**1. Tarixi zaman**

***Şagird:***

– mənbələr əsasında müxtəlif tarixi dövrləri təhlil edir, onların oxşar və fərqli cəhətlərini izah edir, tezis, referat, məruzə hazırlayır;
– tarixi hadisə, proses və təzahürlərin səbəb-nəticə əlaqələrini müəyyən edir və tarixi dövr baxımından qiymətləndirir;
– dünya tarixinin hadisə və proseslərini Azərbaycan tarixinin eyni dövrləri ilə müqayisə edir və təhlillər aparır, mülahizələrini bildirir.

**2. Tarixi məkan**

***Şagird:***

– müxtəlif tarixi hadisələri konkret məkan baxımından müqayisə edir və mülahizələrini bildirir;
– aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərini məkana görə müqayisə edir, onların xarakterik cəhətlərini izah edir.

**3. Dövlət**

***Şagird:***

– cəmiyyət və dövlətlərin inkişafında islahat və inqilabların rolunu fərqləndirir, aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərini müqayisə edir və münasibət bildirir;
– bəşəriyyəti narahat edən qlobal problemlərin həllində dövlətin rolunu şərh edir;
– mənbələr əsasında müxtəlif dövlətlərin tarixinə dair təhlillər aparır, referat, məruzə və tezislər hazırlayır.

**4. Şəxsiyyət**

***Şagird:***

– tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin rolunu qiymətləndirir, mülahizələri əsasında təqdimatlar edir;
– tarixi şəxsiyyətlərə dair tədqiqatlar aparır, mövqeyini bildirir və əsaslandırır.

**5. Mədəniyyət**

***Şagird:***

– aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərində mədəniyyətin inkişaf xüsusiyyətlərini müqayisə edir və əsaslandırır;
– müasir dövrün qlobal problemlərinin həllində mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun roluna dair materiallar toplayır, məruzə və referatlar hazırlayır.



Çap üçün deyil

## FƏALİYYƏT XƏTLƏRİ

Ümumi tarixdə fəaliyyət xətləri biliklərin əldə olunması və istifadəsi yollarını müəyyənləşdirmək, onları təsvir etmək məqsədi daşıyır. Məzmun xətləri ilə fəaliyyət xətləri üst-üstə düşdüyü üçün məzmun standartlarının müəyyənləşdirilməsində onların fəaliyyət xətləri ilə əlaqəsi nəzərə alınmışdır.

- Tarixi bilik mənbələrindən məlumatların toplanması və sistemləşdirilməsi.
- Tarixi materialın təhlili, sintezi və ümumiləşdirilməsi.
- Tarixi faktların müqayisəsi.
- Nəticə çıxarılması və əsaslandırılması.
- Yekun nəticənin təqdim edilməsi.
- Qiymətləndirmə.

Çap üçün deyil

## VIII SİNİF «ÜMUMİ TARİX» FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI

**VIII sinfin sonunda şagird:**

- hadisə, proses və təzahürlər arasında səbəb-nəticə əlaqələrini ifadə edən xronoloji cədvəllər hazırlayır;
- feodal münasibətlərinin inkişafı və dağılmasını xalqların və dövlətlərin geosiyasi məkanında baş verən dəyişikliklərlə əlaqələndirir, həmin dəyişiklikləri kontur xəritəyə köçürür;
- mərkəzləşmiş feodal dövlətlərinin yaranmasını və inkişaf xüsusiyyətlərini təhlil edir;
- tarixi şəxsiyyətləri oxşar və fərqli cəhətlərinə görə fərqləndirir;
- Şərqdə və Qərbdə intibah mədəniyyətlərinin inkişaf xüsusiyyətlərini, onların qarşılıqlı təsirini izah edir.

***Məzmun xətləri üzrə əsas və alt-standartlar***

**1. Tarixi zaman**

***Şagird:***

**1.1.** Tarixi faktların tarixi zamanla əlaqəsini anladığını nümayiş etdirir.
1.1.1. Oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah edir.
1.1.2. Oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəllər tərtib edir.
1.1.3. Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.

**2. Tarixi məkan**

***Şagird:***

**2.1.** Məkanda baş verən hadisə, proses və təzahürlərlə bağlı bilik və bacarıqlar nümayiş etdirir.
2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyişiklikləri məkanla əlaqədə izah edir.
2.1.2. Dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.

Çap üçün deyil

**3. Dövlət**

***Şagird:***

**3.1.** Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.

3.1.1. Dövlətlərin (İngiltərə, Fransa, Rusiya, ABŞ, Osmanlı, İran, Çin, Hindistan, Mərkəzi Asiyanın türk dövlətləri, Qazaxıstan, Krım, Sibir, Volqaboyu, Qafqaz xalqları) yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.

3.1.2. Yeni tipli dövlətlərin qeyri-bərabər inkişafına aid esse yazır.

**4. Şəxsiyyət**

***Şagird:***

**4.1.** Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.

4.1.1. Tarixi şəxsiyyətləri (Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet Paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar) müqayisə edir.

4.1.2. Tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.

**5. Mədəniyyət**

***Şagird:***

**5.1.** Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir.

5.1.1. Şərqdə və Qərbdə intibah mədəniyyətinin xüsusiyyətlərini izah edir.

5.1.2. Elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir.

5.1.3. Dünya mədəniyyətinin nailiyyətlərinə dair cədvəl və qrafiklər hazırlayır.

Çap üçün deyil

## VIII SİNİF ÜZRƏ MƏZMUN STANDARTLARININ ŞƏRHİ

| Standartlar | Şərhi | Açar sözlər |
|---|---|---|
| **1. Tarixi zaman** | | |
| **1.1. Tarixi faktların tarixi zamanla əlaqəsini anladığını nümayiş etdirir** | | |
| 1.1.1. Oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah edir. | Tarixdə baş verən oxşar tarixi faktların müxtəlif vaxtlarda baş verməsini, məsələn, baş vermiş kəndli üsyanlarının, döyüşlər və digər hadisələrin baş verdiyi vaxtdan irəli gələn fərqli cəhətlərini, yəni bu zamanın tələbi, hakimiyyət başında duran şəxs, dövlətin vəziyyəti, idarəçilik sistemi və s. bu kimi halların fərqli cəhətlərinin izah edilməsi. | Üsyan, döyüş, idarəçilik, zamanın tələbi |
| 1.1.2. Oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəllər tərtib edir. | Tarixdə baş vermiş oxşar proses və hadisələrin müəyyənləşdirilməsi, məsələn, Fransa və İngiltərədə baş vermiş kəndli üsyanlarının ümumi cəhətlərini əks etdirən sinxron cədvəllərin tərtib edilməsi. | Sinxronluq, əlaqə, cədvəl |
| 1.1.3. Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir. | Hadisə, fakt, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrinin, yəni hər hansı bir ərazidə baş vermiş hadisələrin səbəb və nəticə əlaqələrini müəyyənləşdirən xronoloji, yəni zaman ardıcıllığı ilə müəyyən olunmuş cədvəllərin tərtib edilməsi. | Fakt, proses, təzahür, xronologiya, səbəb və nəticə |
| **2. Tarixi məkan** | | |
| **2.1. Məkanda baş verən tarixi hadisə, proses və təzahürlərlə bağlı bilik və bacarıqlar nümayiş etdirir** | | |
| 2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyişiklikləri məkanla əlaqədə izah edir. | Məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafının feodal münasibətlərinin dağılmasına şərait yaratması, kapitala dayanan yeni bir quruluşun – kapitalizmin yaranması, onun daxilində dünyanın iqtisadi və sosial dəyişikliklərinə gətirib çıxaran vəziyyətin hər hansı bir dövlətin yerləşdiyi məkanla əlaqədə izah edilməsi. | Məhsuldar qüvvə, kapital, iqtisadi və sosial dəyişikliklər, əmtəə münasibətləri, azad işçi qüvvəsi |
| 2.1.2. Dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür. | Müxtəlif dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərinin, yəni müharibələr və sülh müqavilələri əsasında dövlətlərin və xalqların ərazi baxımından yerini dəyişməsinin verilən xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürülməsi. | Dəyişikliklər, xəritə, sxem, kontur xəritə, dəyişilmiş məkan |

Çap üçün deyil

| Standartlar | Şərhi | Açar sözlər |
|---|---|---|
| **3. Dövlət** | | |
| **3.1. Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir** | | |
| 3.1.1. Dövlətlərin (İngiltərə, Fransa, Rusiya, ABŞ, Osmanlı, İran, Çin, Hindistan, Mərkəzi Asiyanın türk dövlətləri, Qazaxıstan, Krım, Sibir, Volqaboyu, Qafqaz xalqları) yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir. | Dövlətlərin – İngiltərə, Fransa, Rusiya, ABŞ, Osmanlı, İran, Çin, Hindistan eləcə də Mərkəzi Asiyanın türk dövlətlərinin, Qazaxıstan, Krım, Sibir, Volqaboyu, Qafqaz xalqlarının dövlətlərinin yaranmasının, idarəçilik formalarının, monarxiya, konstitusiyalı monarxiya, imperiya, respublika, krallıq və digər idarəçilik formalarının, həmçinin onların siyasi vəziyyəti və siyasi mövqeyi, sosial-iqtisadi münasibətlərinin təhlil edilməsi. | İdarəçilik, siyasi vəziyyət, monarxiya, respublika, krallıq, imperiya, konstitusiya, iqtisadiyyat |
| 3.1.2. Yeni tipli dövlətlərin qeyri-bərabər inkişafına aid esse yazır. | Yaranmış olan yeni tipli dövlətlərin idarəçiliyi, onların müstəqillik uğrunda mübarizəsi, müstəmləkə əleyhinə üsyanları və bu kimi hadisələrin təsiri nəticəsində yaranan qeyri-bərabər inkişafa aid essenin yazılması. | Müstəqillik, müstəmləkə, yeni tipli dövlət |
| **4. Şəxsiyyət** | | |
| **4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir** | | |
| 4.1.1. Tarixi şəxsiyyətləri (Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet Paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar) müqayisə edir. | Tarixi şəxsiyyətlərin – Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet Paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar və başqalarının tarixdə qoyduğu izə və nüfuza görə, həmçinin onların döyüş və siyasi taktikasının fərqli istiqamətinə, idarəçilikdə qoyduqları fərqli qaydalara, qanunlara görə nüfuz dairəsinin, fəaliyyətlərinin dövr üçün əhəmiyyətli olmasının müqayisəsi. | Şəxsiyyət, idarəçilik üsulları, qanunlar və islahatlar, nüfuz dairəsi |
| 4.1.2. Tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır. | Tarixi şəxsiyyətlərin tarixdə qoyduğu izlər, qanunlar, qaydalar və qərarlar, yaxud humanist, yenilikçi siyasətlərinə görə oxşar və fərqli cəhətləri ilə bağlı cədvəllərin hazırlanması. | Qanun, hərbi-siyasi fəaliyyət, idarəçilik, humanist siyasət |



Çap üçün deyil

| Standartlar | Şərhi | Açar sözlər |
|---|---|---|
| **5. Mədəniyyət** | | |
| **5.1. Mədəniyyətləri və sivilizasiyaları qiymətləndirir** | | |
| 5.1.1. Şərqdə və Qərbdə intibah mədəniyyətinin xüsusiyyətlərini izah edir. | Şərqdə və Qərbdə intibah mədəniyyətinin xüsusiyyətlərinin, Şərqdə intibah mədəniyyətinin islam mədəniyyəti dayaqları əsasında inkişaf edərək memarlıqda, elmdə və poeziyada daha çox diqqət çəkdiyinin, Qərbdə intibahın məşhur rəsm əsərləri ilə yaddaşlarda qaldığının, eləcə də bu və başqa xüsusiyyətlərin izahının verilməsi. | İntibah, oyanış, memarlıq, elm, poeziya, rəssamlıq |
| 5.1.2. Elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir. | Elmi kəşf və ixtiraların, məsələn, ilk dəfə kitab çapı üsulunun, texniki kəşflərin, cihazların, müasir ali riyaziyyatın, mikroskopun yaradılması, çiçək xəstəliyinə qarşı peyvənd üsulunun, ilk hava şarı və sair yeniliklərin dünya mədəniyyətinin inkişafına təsirinin izah edilməsi və münasibət bildirilməsi. | Cihaz, mikroskop, peyvənd, hava şarı |
| 5.1.3. Dünya mədəniyyətinin nailiyyətlərinə dair cədvəl və qrafiklər hazırlayır. | Dünya mədəniyyətinin nailiyyətlərinə, texniki kəşflərin, elmi-tədqiqat işləri üçün cihazların yaradılması, memarlıq, incəsənət və digər nailiyyətlərə dair cədvəl və qrafiklər hazırlanması. | Texniki və elmi kəşflər, ixtiralar |



Çap üçün deyil

## «ÜMUMİ TARİX» FƏNNİNİN İNTEQRASİYA İMKANLARI

Məlumdur ki, cəmiyyətdə, təbiətdə, bizi əhatə edən hər yerdə inteqrasiya mövcuddur. İnteqrativ təlim mühüm pedaqoji problem kimi müasir dünyagörüşlü, fəal, yaradıcı, problemlərin həlli və müstəqil qərarlar qəbul etmək üçün zəruri təhsil səviyyəsinə və bacarıqlara malik şəxsiyyət formalaşdırılması vəzifəsinin ön plana çıxdığı hazırkı dövrdə xüsusi aktuallıq kəsb edir. Bu problemin tədqiqi və həlli təkcə tarixin tədrisinin elmi, nəzəri əsaslarının ikişafı üçün deyil, müəllimlərin praktik fəaliyyəti üçün də böyük əhəmiyyət kəsb edir.

Fəal-interaktiv dərsdən danışarkən inteqrasiya imkanlarından istifadə etməmək düzgün olmaz. Bu baxımdan inteqrasiya imkanlarından yetərincə istifadə etmək, onu məqsədəuyğun reallaşdırmaq lazımdır. «Ümumi təhsil pilləsində dövlət standartları və proqramları (kurikulumlar)» sənədi və onun əsasında hazırlanmış Ümumi tarix kurikulumu fəndaxili və fənlərarası əlaqələrin geniş tətbiqini nəzərdə tutmuşdur. Siz müəllimlər planlaşma apararkən inteqrasiya imkanlarını nəzərdən qaçırmayın.

Ənənəvi təlim zamanı inteqrasiya çox zaman biliklərin əlaqələndirilməsi formasında həyata keçirilirdi. Müəllim dərsi izah edərkən bir fənnin mövzusunu digər fəndə keçdikləri mövzu ilə əlaqələndirir, ondan sitatlar gətirir, yaxud da şagirdlərə bu barədə bildiklərini deməsini xahiş edirdi. Kurikulum islahatında imkanlar bir qədər fərqlidir.

Ümumi tarix fənn kurikulumunda inteqrativlik fəndaxili əlaqələr (üfüqi inteqrasiya), fənlərarası əlaqələr (şaquli inteqrasiya) şəklində həyata keçirilir. Bu inteqrasiya pillələr üzrə məzmun xətləri, siniflər üzrə gözlənilən təlim nəticələri və məzmun standartları arasında (bilik və bacarıqlar sistemində) reallaşdırılır. Sizin seçdiyiniz standartın reallaşdırılmasında ona uyğun digər fənnin standartının reallaşdırılması nəzərdə tutulur. Bu zaman müəllim dərsin gedişində hansı inteqrasiya imkanını reallaşdıra biləcəksə gündəlik planlaşma zamanı onu qeyd edərsə, daha düzgün olar. Siz inteqrasiya imkanında sərbəstsiniz. Bizim tövsiyə etdiyimiz inteqrasiya imkanlarından fərqli inteqrasiyalar reallaşdıra bilərsiniz. Bu zaman siz digər fənlərin standartları ilə yaxından tanış olmalı, uyğun olanını seçməlisiniz. Unutmayın ki, inteqrativ standartlar şagirdin sinfinə uyğun olmalıdır. Məsələn, siz standartları araşdırarkən VIII sinifdə oxuyan şagirdə IX sinfin standartını inteqrasiya üçün seçə bilməzsiniz. Yəni yaş xüsusiyyətləri yenə də öz əksini tapmalıdır.

Verilmiş inteqrasiya cədvəlindən istifadə etməklə VIII sinif «Ümumi tarix» fənni üzrə inteqrasiya imkanlarınızı reallaşdıra bilərsiniz.

Çap üçün deyil

| Standart | İnteqrasiya imkanları |
|---|---|
| 1.1.1. Oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah edir. | Az-t. 1.1.1.; İnf. 1.1.1. |
| 1.1.2. Oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəllər tərtib edir. | Az-t. 1.1.2.; H-b. 1.1.1. |
| 1.1.3. Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir. | Az-t. 1.1.2.; İnf. 3.2.4. |
| 2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyişiklikləri məkanla əlaqədə izah edir. | Az-d. 1.2.2.; Az-t. 2.1.1. |
| 2.1.2. Dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür. | Az-t. 2.1.2.; İnf. 3.2.3.; C. 3.1.1. |
| 3.1.1. Dövlətlərin (İngiltərə, Fransa, Rusiya, ABŞ, Osmanlı, İran, Çin, Hindistan, Mərkəzi Asiyanın türk dövlətləri, Qazaxıstan, Krım, Sibir, Volqaboyu, Qafqaz xalqları) yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir. | Az-t. 3.1.1.; H-b. 2.1.1., 2.1.2., 2.2.1. |
| 3.1.2. Yeni tipli dövlətlərin qeyri-bərabər inkişafına aid esse yazır. | Az-d. 3.1.1.; Ə. 3.1.3.; X-d. 4.1.2. |
| 4.1.1. Tarixi şəxsiyyətləri (Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet Paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar) müqayisə edir. | Mus. 1.1.1.; Az-t. 4.1.1. |
| 4.1.2. Tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır. | İnf. 3.2.4.; Az-t. 4.1.2.; T-i. 1.3.1. |
| 5.1.1. Şərqdə və Qərbdə intibah mədəniyyətinin xüsusiyyətlərini izah edir. | Az-d. 1.2.1.; X-d. 2.1.3. |
| 5.1.2. Elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir. | Az-t. 5.1.2.; Ə. 4.1.3.; Az-d. 2.1.3. |
| 5.1.3. Dünya mədəniyyətinin nailiyyətlərinə dair cədvəl və qrafiklər hazırlayır. | Az-t. 5.1.3.; İnf. 2.1.2.; Az-d. 3.1.3.; X-d. 4.1.4. |

***İnteqrasiya olunmuş fənlərin tam adı***

Azərbaycan tarixi – Az-t.
Azərbaycan dili – Az-d.
Ədəbiyyat – Ə.
İnformatika – İnf.
Xarici dil – X-d.
Təsviri incəsənət – T-i.
Musiqi – Mus.
Kimya – K.
Biologiya – B.
Coğrafiya – C.
Həyat bilgisi – H-b.

Çap üçün deyil

# TƏLİM STRATEGİYALARI

Məktəb təcrübəsindən də bilirsiniz ki, şagirdlər, xüsusən də əksər yeniyetmələr yalnız kitab və müəllimin şərhi ilə kifayətlənmir, özü düşünməyə, axtarmağa, tədqiqatçılığa meyil göstərir. Elə bu baxımdan artıq ənənəvi üsullarla keçilən dərs yeniyetmə şagirdlər üçün, sözün əsl mənasında, maraqsızdır. Bu cür dərslərdə onlar müəllimi dinləməkdənsə özləri tədqiqat aparmağa üstünlük verirlər. Yaradıcı müəllimlər bunu nəzərə alaraq müvafiq strategiya müəyyənləşdirir, şagirdlər üçün elə bir mühit yaratmağa çalışırlar ki, şagirdlər axtarışlar edə-edə öyrənsinlər.

Təlim formaları (kollektivlə iş, qruplarla iş, cütlərlə iş və fərdi iş) təlim strategiyasının bir hissəsi olub, dərsin məqsədinə uyğun olaraq müəyyənləşdirilir. Şagirdlərin fəaliyyətləri bu forma üzərində qurulur.

***Kollektivlə iş*** – Bu iş zamanı şagirdlərlə kollektiv surətdə iş aparılır. Bütün sinif hər hansı bir problemin həllində birgə çalışır. Bu iş forması kollektiv fəaliyyətə alışmaq bacarığının əsasını qoyur.

***Qruplarla iş*** – Hər hansı araşdırılmasına ehtiyac olan problem qrupların bölgüsü ilə reallaşdırılır. Qruplarda iş səmərəli təşkil olunur, şagirdlər bu zaman müzakirələr aparır, fikir mübadiləsi edir, birgə əmək nəticəsində ortaq qərarlara əsaslanan işlər görürlər. Qrup işi zamanı tətbiq olunan qaydalar isə onların nizam-intizama riayət etməsinin bünövrəsini qoyur. Əməkdaşlığa əsaslanan bu forma işgüzar səs-küyə səbəb olsa da, olduqca səmərəli təlim formalarından biridir.

***Cütlərlə iş*** – Cütlərlə iş ənənəvi təhsil sistemində az da olsa, tətbiq olunurdu. Amma bu davamlı deyildi. Hər kəs bu iş formasını reallaşdırmağa məcbur deyildi. Adətən, ibtidai siniflərdə tətbiq olunan bu forma yuxarı siniflərə qalxdıqca sıradan çıxmağa başlayırdı. Hazırkı təlim strategiyası cütlərlə işin tətbiqini tövsiyə edir. Bu təlim formasının əhatə dairəsi məhdud olsa da, şagirdlərlə daha yaxından əməkdaşlıq etməyə və ünsiyyət qurmağa, məsuliyyəti bölüşməyə imkan yaradır.

***Fərdi iş*** – Ənənəvi təlimin qalığı hesab olunan bu forma çox vaxt məhdud şəkildə reallaşdırılır. Amma tövsiyə olunur ki, bu iş formasından davamlı istifadə olunsun. Şagirdin şəxsi keyfiyyətini, yəni bilik və bacarığını ortaya qoyduğu bu iş formasının tətbiqi zamanı onun sərbəst düşünməsinə imkan yaranır. Bu zaman şagirdin qiymətləndirilməsi daha obyektiv şəkildə aparılır. Bəzən şagird özünü digər təlim formalarında göstərə bilmir. Fərdi iş vasitəsilə isə o özünü daha yaxşı ifadə edir.

Nəzərə almaq lazımdır ki, bütün təlim formalarından istifadə edərkən dərsin məqsədləri nəzərə alınmalıdır. Formalar seçilərkən kor-koranə, məqsədsiz müəyyən olunmamalıdır.

Təlim formalarının seçilməsi ilə yanaşı, işin səmərəli təşkili üçün təlim üsulları da müəyyən olunmalıdır. Fəal təlim üsulları da təlim strategiyasının bir hissəsidir. Düzgün seçilmiş strategiya hədəfə çatmaq üçün əlverişli yoldur. Tarix fənni özünəməxsus fəndir. Bu baxımdan bu fənnə uyğun üsulların seçilib tətbiq olunması zəruri şərtlərdən biridir. Bəzən müzakirə tələb olunan hər hansı bir mövzuya auk-

Çap üçün deyil

sion üsulu seçilir və uğursuz nəticə əldə olunur. Üsullar seçilərkən diqqətli olmaq lazımdır. Seçilən standart, məqsəd, eləcə də sinfin xüsusiyyəti nəzərə alınmalıdır. Bəzən özlüyümüzdə səmərəli hesab etdiyimiz üsul nəticəsiz ola bilər. Yaxud da Anar müəllimin «Osmanlı imperiyası – sonun başlanğıcı» mövzusuna müəyyən etdiyi akvarium üsulu Məlahət müəllimin keçdiyi «Avropa mədəniyyəti» mövzusunda səmərəsiz ola bilər. Əlbəttə, siz müəllim olmaqla yanaşı, həm psixoloq, həm də strateqsiniz. VIII sinif şagirdlərinin problemlərin həllinin müstəqil axtarışı və təlim prosesində tədqiqatçılığa meyillərini, yeni biliklərə yiyələnmək, yaradıcı düşünmə qabiliyyətlərinin inkişafını nəzərə alaraq fəal təlim üsullarından istifadə məqsədəuyğun hesab olunur.

Fəal təlimin tətbiqi zamanı ən çox istifadə olunan forma qruplarla işdir. Şagirdləri qruplara bölərkən bunu onların öz ixtiyarına buraxmaq düzgün deyildir. Çünki bu, çox vaxt müəllimin istədiyi nəticəni əldə etməsinə mane olur. Belə qruplarda əksər hallarda ya təlim nəticələri yüksək olanlar, ya təlim nəticələri aşağı olanlar, ya da dostlar yığışır.

Şagirdləri qruplara bölmək üçün aşağıdakı üsullardan istifadə etmək olar.

***«Say».*** Şagirdlərdən «1»-dən «5»-ə kimi saymaq xahiş olunur. Eyni rəqəmli iştirakçılar (bütün «birlər», bütün «ikilər» və s.) bir qrupda birləşirlər.

***«Püşkatma».*** Müəllim şagirdlərin adlarını balaca vərəqlərdə yazır, qatlayır, paketə atır, qarışdırır və paketdən çıxararaq şagirdlərin sayına görə hər stolun üstünə qoyur. Kağızlar açılır və şagirdlərin adları oxunur. Həmin qayda ilə şagirdlər paketdən müxtəlif rəngli vərəqləri çıxara bilərlər. Rənglərin sayı və hər rəngdən olan vərəqlərin sayı qrupların sayına və kiçik qrupun nümayəndələrinin sayına görə planlaşdırılır.

***«Sosiometrik metod»***. Qrupların sayına görə bir neçə iştirakçı lövhənin qarşısına çağırılır. Hər iştirakçı özünə bir nəfər qrup yoldaşı seçir. Öz növbəsində hər növbəti gələn şagird öz qruplarına 1 nəfər seçir.

«Ümumi tarix» fənninin tədrisində, əsasən, klaster, beyin həmləsi, akvarium, ziqzaq, müzakirə, karusel, BİBÖ, anlayışın çıxarılması, Venn diaqramı, assosiasiya kolu, fasiləli oxu, insert, debat və s. təlim üsullarından geniş istifadə etmək olar.

## BEYİN HƏMLƏSİ

Adından məlum olduğu kimi, bu üsulun tətbiqi birbaşa beyinə təsir etməkdir. Bu baxımdan çox vaxt beyin həmləsi, əqli hücum üsulu da adlandırılır. Şagirdlərdə yeni mövzuya maraq oyatmaq məqsədilə istifadə olunan bu üsul, demək olar ki, bütün dərslərin reallaşdırılmasında öz əksini tapır. Hazırlanmış sual lövhədə yazılır, yaxud şifahi şəkildə şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər suallara əsasən fikirlərini bildirirlər. Bütün ideyalar şərhsiz və müzakirəsiz yazıya alınır. Yalnız bundan sonra söylənilmiş ideyaların müzakirəsi, şərhi və təsnifatı başlayır. Aparıcı ideyalar yekunlaşdırılır, şagirdlər söylənmiş fikirləri təhlil edir, qiymətləndirir. Bu üsula nümunə olaraq qeyd etmək olar: Necə oldu ki, İngiltərədə burjua inqilabı qələbə çaldı? Bu sualı verməklə şagirdlərə beyin həmləsini tətbiq etmək olar.



Çap üçün deyil

## BİBÖ – BİLİRƏM/ İSTƏYİRƏM BİLİM/ ÖYRƏNDİM

BİBÖ aşağıdakı mərhələlər üzrə aparılır:

1. Problem müəllim tərəfindən elan edilir.

2. Müəllim lövhədə 3 sütundan ibarət cədvəl qurur və aşağıdakı bölmələri qeyd edir: – Bilirəm/ İstəyirəm bilim/ Öyrəndim.

3. Şagirdlər problemlə bağlı bildiklərini söyləyir və cavablar birinci sütunda qeyd olunur.

4. Həmin məsələ ilə bağlı bilmək istədikləri isə ikinci sütuna yazılır.

5. Dərsin sonunda bir daha həmin cədvələ diqqət yetirilir və mövzu ilə bağlı öyrəndikləri üçüncü sütunda qeyd edilir.

Məsələn: «Fransa» mövzusunu tədris edərkən motivasiya mərhələsində BİBÖ üsulundan istifadə edə bilərsiniz.

| **Bilirəm** | **İstəyirəm bilim** | **Öyrəndim** |
|---|---|---|
| Fransanın Böyük Karl imperiyasının 843-cü ildə 3 hissəyə parçalanması ilə yaranmasını. Yüzillik müharibədə qələbə çalmasını və s. | Fransada feodal münasibətlərinin süqutunun səbəbləri nə idi? XVI əsrdən sonra Fransanın taleyi necə oldu? | Bu sütun dərsin sonunda tədqiqatın nəticələri əldə olunduqdan sonra yazılmalıdır. |

***Anlayışın çıxarılması.*** Bu üsul oyun-tapmaca formasında keçirilir və şagirdlərdə yüksək fəallıq yaradır. Müəllim lövhədə dairəvi kart asır, onun arxasında şagirdlərdən tələb olunan anlayışı yazır. Kartın yazı olmayan tərəfini şagirdlərə göstərir və gizlədilmiş anlayışların xüsusiyyətlərinə aid 2 və ya 3 yönəldici söz sadalayır və ya yazır. Şagirdlər həmin xüsusiyyətlərə uyğun olaraq gizlədilmiş anlayışı tapırlar.

Əgər şagirdlər anlayışı tapmaqda çətinlik çəksələr, müəllim əlavə olaraq yeni xüsusiyyətlər sadalayır.

Şagirdlər öz fərziyyələrini dedikdən sonra müəllim bu tapmacanın tapılıb-ta4pılmamasını hamıya çatdırır və kartoçkalarda yazılan sözləri açıqlayır.

Çap üçün deyil

Məsələn: «Amerika» mövzusunun tədrisi zamanı dərsin motivasiya mərhələsində bu üsuldan istifadə edilə bilər.




**Müzakirə**

Müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır. Müzakirə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir.

Müzakirə apararkən əvvəlcədən şagirdlərə müzakirə qaydaları xatırladılır. Mövzu aydın şəkildə ifadə olunur. Müzakirə prosesini inkişaf etdirən suallar vermək və şagirdlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı «bəli» və ya «xeyr» olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir. Müzakirədə mövzuya aid «Nə baş verdi? Nə üçün baş verdi? Bu başqa cür ola bilərdimi və necə? Siz bu vəziyyətdə nə edərdiniz? Bu, düz idimi? Nə üçün?» kimi suallardan istifadə olunur.

Məsələn: «Nadir şah Əfşar imperiyası» mövzusunun tədrisi zamanı bu üsuldan istifadə edilə bilər. Şagirdlərə aşağıdakı sualları verə bilərsiniz:

Sizcə, Əfşar imperiyasının yaranması Yaxın Şərqdə hansı izləri qoydu? Nadir şahın apardığı islahatlarda məqsəd nə idi?

**Venn diaqramı**

Bu üsul vasitəsilə tarixi hadisələri, şəxsiyyətləri, dövlətləri və bu kimi digər məqamların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün bu üsuldan istifadə olunur.

Çap üçün deyil

*Venn diaqramından istifadə aşağıdakı mərhələlər üzrə aparılır:*

1. Müqayisə olunacaq hadisələr müəyyənləşdirilir.
2. Kəsişən dairələr çəkilir (ortada yazmaq üçün yer saxlanır).
3. I və II dairədə müqayisə olunacaq obyektlər qeyd olunur.
4. Şagirdlər təlimatlandırılır (təlimatda nəyin müqayisə olunacağı və dairələrdə oxşar və fərqli cəhətlərin necə qeyd olunacağı barədə danışılır).
5. Müqayisə olunan obyektlər təsvir edilir (fərqli cəhətlər sağ və sol tərəfdə, oxşar cəhətlər kəsişmə dairəsində qeyd olunur).
6. Müqayisə nəticəsində fikirlər ümumiləşdirilir.

Məsələn:




**Ziqzaq**

Bu üsul mətnin məzmununun qısa müddət ərzində şagirdlər tərəfindən mənimsənilməsinə imkan yaradır. Bildiyiniz kimi, tarixi faktlar və döyüş səhnələri çox vaxt sözlərin gücü ilə təsvir olunur. Yəni riyaziyyat, kimya, fizika və s. bu kimi fənlərə nisbətdə tarix dərslərində mətnçilik genişdir. Mətnin qısa müddətdə mənimsədilməsi üçün bu üsuldan istifadə etmək yerinə düşər.

Şagirdlər dörd nəfərlik qruplara bölünür (əsas qrup). Qruplardakı şagirdlər yenidən nömrələnir. Hər qrupdakı eyni rəqəmli şagirdlərdən yeni qrup (ekspert qrupu) yaradılır.

Öyrəniləcək mətn qrupların sayı qədər hissələrə bölünür və ekspert qruplarına verilir.

Ekspert qrupları onlara verilən hissəni oxumalı, məzmununu qavramalı və öz əvvəlki qrupuna qayıdaraq öyrəndiyi hissəni onlara danışmalıdır.

Müəllim informasiyanın dəqiq verildiyinə əmin olmaq üçün suallar verə bilər. Məsələn: «Böyük Moğol imperiyası necə parçalandı» və bu kimi genişhəcmli mövzuların öyrənilməsi üçün bu üsuldan istifadə etmək tövsiyə olunur.

**Karusel**

Dərsdən əvvəl iri ağ kağızlarda (vatman) mövzuya aid suallar yazılır. Müəllim qruplara müxtəlif sual yazılmış bir kağız verir. Qrup üzvləri sualı oxuyur və bir cavab yazır. Kağızlar saat əqrəbi istiqamətində müəllimin köməkliyi ilə qruplara ötürülür. «Karusel» kimi kağızlar bütün digər qruplardan keçərək axırda öz qrupuna

Çap üçün deyil

qayıdır. Müəllim bu kağızları yazı lövhəsinə yapışdırır və bütün sinif cavabları müzakirə edir. Məsələn: «Osmanlı dövləti» mövzusunun tədrisində bu üsuldan istifadə etmək məqsədəuyğundur. Bu üsulun tətbiqi şagirdlərdə fəallıq yaratmaqla çevik düşünərək cavab vermək bacarığını formalaşdırır.

**Qərarlar ağacı**

- Bu üsul qərarların qəbul edilməsi zamanı alternativ yolları araşdırmaq və təhlil etmək məqsədi daşıyır.
- Müzakirə olunacaq problem müəllim tərəfindən izah edilir və onun həlli yollarının bir neçə variantı şagirdlərlə birlikdə müəyyənləşdirilir. 4–6 nəfərdən ibarət qruplarda şagirdlər problemin həlli yollarının üstünlüklərini və çatışmazlıqlarını təhlil edir, onları «+», və ya «–» işarəsinin qarşısında müvafiq qaydada qeyd edirlər. Son nəticə cədvəlin qərar hissəsində yazılır və üstü örtülür.
- Bütün qrupların təqdimatından sonra müəllim əldə olunmuş nəticələri ümumiləşdirmək üçün müzakirə aparır.

| Problem | | | |
|---|---|---|---|
| Problemin həlli yollarının mənfi və müsbət tərəfləri | Problemin həlli yolları | | |
| | 1-ci həll yolu | 2-ci həll yolu | 3-cü həll yolu |
| + | | | |
| – | | | |
| Qərar: | | | |

**Akvarium**

Bu üsulun məqsədi diskussiya vərdişlərini inkişaf etdirməkdir. Tarix fənninin tədrisində akvarium bir neçə variantda keçirilə bilər.

«Akvarium»un keçirilməsinin 1-ci variantı:

Şagirdlərin köməyi ilə diskussiya aparmaq qaydaları (məsələn, reqlamentə əməl etmək, bir-birinin sözünü kəsməmək və s.) müəyyən edilir. Şagirdlər 2 qrupa bölünür. Bir qrup dairənin daxilindəki stullarda əyləşərək müəllimin təklif etdiyi problemi müzakirə edir. Dairədən kənardakı stullarda əyləşmiş digər qrup isə diskussiyanın müəyyən edilmiş qaydalara uyğun aparıldığını müşahidə edir.

Müəyyən olunmuş mövzu üzrə birinci qrup diskussiya aparır. 10–15 dəqiqədən sonra diskussiya dayandırılır, «xarici dairənin» iştirakçıları diskussiyanın gedişini

Çap üçün deyil

qiymətləndirir və qruplar yerini dəyişərək bu və ya digər problemin müzakirəsini davam etdirirlər.

«Akvarium»un keçirilməsinin digər bir nümunəsi:

«Daxili dairənin» iştirakçıları müəllimin təklif etdiyi problemi müzakirə edir və birinci variantdan fərqli olaraq, iştirakçılar bu zaman yalnız problemin «lehinə» olan dəlilləri söyləyirlər. Məsələn, tarixdə ABŞ və İngiltərə arasında olan müharibə akvariumda müzakirəyə qoyula bilər.

Digər qrupun üzvləri xarici dairədə stullarda əyləşirlər, dəlilləri dinləyir, yazıya alır, təhlil edir, öz əks dəlillərini hazırlayırlar. 15–20 dəqiqədən sonra diskussiya dayandırılır, xarici və daxili dairədən olan şagirdlər öz yerlərini dəyişirlər. Onlar əvvəlki iştirakçıların dəlillərini təkzib etmək üçün diskussiya aparırlar. Burada qrupların vahid fikrə gəlməsi önəmli deyil.

**Rollar üzrə oyun**

Tarix fənninin tədrisində rollar üzrə oyun hər hansı bir problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmağı tələb edir. Bu üsul şagirdlərə hadisələrin iştirakçısı olmaq və mövcud vəziyyətə başqalarının gözu ilə baxmaq imkanı verir.

Müəllim rollu oyunlardan istifadə edərkən əldə etmək istədiyi məqsədi, oyunun mövzusunu, ssenarisini və oyunda iştirak edəcək obrazları əvvəlcədən müəyyənləşdirir, ifa olunacaq rolların mətni yazılmış kartlar hazırlayır. Rollar bölüşdürüldükdən sonra digər şagirdlərdən kimin aparıcı, kimin müşahidəçi olacağını planlaşdırır. Hazırlaşmaq üçün şagirdlərə vaxt verir. Oyun nümayiş etdirildikdən sonra müəllim qoyulmuş problemlə bağlı müzakirə təşkil edir. Misal üçün qeyd etmək olar: Şagirdlərə tapşırılır ki, Patron Xəlil üsyanını rollaşdırsınlar. Şagirdlərin tarixi şəxsiyyətləri rollaşdırması çox xoşlarına gəlir. Bu uşaqlar üçün maraqlı və yaddaqalan ola bilər. Bu üsulu tətbiq etmək əməkdaşlığı və tolerantlığı inkişaf etdirir. Bununla yanaşı, qarşılıqlı ünsiyyətə imkanlar açır.

**Layihələrin hazırlanması**

Layihələrin hazırlanması müxtəlif mövzuların müstəqil şəkildə tədqiq edilməsidir. Şagirdlər öz layihələrini təqdim etməzdən əvvəl uzun müddət onun üzərində işləyirlər. Layihələr şagirdlərin tədqiqat vərdişlərinin, biliklərə müstəqil yiyələnmə bacarıqlarının formalaşmasında mühüm rol oynayır, onlara müstəqil şəkildə öz fəaliyyət proqramlarını qurmağa, habelə öz vaxtını və işini qrafik üzrə planlaşdırmağa kömək edir. Tarix fənninin tədrisində bu üsul şagirdlərin bir-biri ilə, eləcə də məktəbdən kənarda müxtəlif adamlarla qarşılıqlı əlaqəsi üçün şərait yaradır, hadisələrin hər hansı bir aspektini daha dərindən anlamağa imkan verir, əlavə ədəbiyyatdan istifadə etməyə istiqamətləndirir. Layihələrin hazırlanması tarix fənninin tədrisində ən uğurlu üsullardan biridir. Şagirdlərdə araşdırma bacarığı formalaşır. Layihələr hazırlayarkən müəllim mövzu və ya problemi müəyyən edir və sinfə bunlardan birini seçmək imkanı verir.

Çap üçün deyil

Problem konkret olmalıdır. Məsələn, Ağa Məhəmməd şah Qacarın siyasətini araşdırmağı təklif etmək olar. Müəllim və şagirdlər birlikdə layihə üzərində işin başlama və başa çatma müddətini, istifadə olunacaq əyani vasitələri (ədəbiyyatlar, mənbələr, təsviri vasitələr və s.), bunları əldə etmək yollarını, iş formalarını (fərdi, yoxsa qrup şəklində) müəyyən edirlər.

İş prosesində müəllim suallara cavab verə və ya yol göstərə bilər. İşin icrasına isə şagirdlər özləri cavabdehdir. Tədqiqatın nəticəsi hesabat, xəritə, illüstrasiya, fotoşəkillər, cədvəllər, qrafiklər formasında ifadə oluna bilər.

Bu üsulun tətbiqində məqsəd şagirdlərdə elmi-tədqiqat vərdişlərinin formalaşdırılmasıdır. Hadisələri daha dərindən anlayan şagird bu üsulun tətbiqində yaradıcı vərdişlərə də yiyələnmiş olur.

**Təqdimatlar**

Təqdimat tarix fənni üçün çox əlverişli metoddur. Bu kiçik summativ qiymətləndirmələr üçün də məqbul sayıla bilər. Təqdimatlar müxtəlif formalarda (elektron təqdimat, qəzet, buklet, kollaj, vebsayt və sair) və müxtəlif xarakterli ola bilər. Təqdimat həm fərdi, həm də qrup şəklində tapşırıla bilər. Məqsəd şagirdləri fəaliyyətə, yaradıcılığa, tədqiqatçılığa sövq etməkdir. Şagirdlərin təqdimatları müxtəlif olduğundan onlara maraq çox yüksəkdir. Bu üsul şagird özünüqiymətləndirməsində də səmərəlidir. Nəzərə almaq lazımdır ki, bu iş daha çox əmək tələb etdiyindən ona verilən vaxt da adekvat olmalıdır. Siz şagirdlərinizə müxtəlif mövzularla bağlı təqdimatların hazırlanmasını tapşıra bilərsiniz. Məsələn, Avropa mədəniyyəti, Volqaboyu, Ural və Sibir xalqları haqqında ola bilər.

**Debatlar**

Bu üsul, demək olar ki, müzakirələr əsasında qurulub. Bu üsulun tətbiqi zamanı hər kəsin iştirakı vacibdir. Debat digər müzakirələrdən fərqli olaraq, müzakirə aparılan şəxsi yox, üçüncü tərəfi inandırmaq üzərində qurulur. Bu zaman tutarlı faktlar, arqumentlər göstərmək gərəkdir. Üçüncü tərəfin «bəli, bu tərəf məni inandırdı» fikri təsdiq kimi götürülür. Tarixdə debat çıxarılacaq mövzular çoxdur. Hər hansı hadisənin müzakirəsi debat şəklində aparılarsa, bu zaman gətirilən arqumentlər, mənbələr daha əsaslandırılmış formada olmalıdır. Düşünə bilərsiniz ki, bu üsulun tətbiqi şagirdlərə nə verir? Əslində, debatlar şagirdlərin sərbəst düşüncə tərzini formalaşdırır. Bu zaman onlar mövzunu araşdırmağa çalışır, əsas anlayışları izah edir, dəlillər yığmaq üçün müxtəlif mənbələrə müraciət etmiş olur. Bu zaman mənbələr üzərində işləmək bacarığı da formalaşır. Debatlarda natiqlik istedadını üzə çıxarmağa çalışan şagirdlər qərarlar vermək imkanına da sahib olurlar.

Debat zamanı rollaşdırma həyata keçirilir:

I qrup Təsdiqləyici mövqedədir. Mövzunu olduğu kimi qəbul edir. Deyilmiş fikirlərin düzgün olduğunu təsdiqləyir.



Çapı üçün deyil

II qrup Təkzibedicidir. O I qrupun fikirlərini təkzib edir və öz arqumetlərini gətirir.

III qrup isə Hakim mövqedə duranlardır ki, bu iki qrupdan hansı daha dəqiq, dolğun və inandırıcı fakt gətirərsə, onun fikrini təsdiqləyir. Təbii ki, hakimin üzərinə bunu müəyyən etmək üçün böyük məsuliyyət düşür. Debatlar zamanı hər bir qrupa 7–8 dəqiqəlik vaxtın ayrılması kifayətdir. Debatlar üçün mövzular maraqlı olmalıdır. Bir qədər münaqişəli mövzu seçmək bu üsulun tətbiqi üçün səmərəlidir.

### Müzakirə xəritələri

Bu metodun tarix dərsində istifadəsi yerinə düşər. Bu üsulu bir növ debat üçün hazırlıq da hesab etmək olar. Burada aparılan müzakirə şagirdlərin tarixi proseslərə mövqeyini aşkar etmək üçün yararlıdır. Bu üsulun tətbiqi zamanı aşağıdakılara əməl etmək gərəkdir:

- Mövzunu müəyyənləşdirmək. Məsələn, Osmanlı–Səfəvi münasibətləri;
- Mövzuya dair problemləri üzə çıxarmaq və ziddiyyətli suallar qoymaq;
- Şagirdlərin hər birinin mövqeyinin müəyyənləşdirilməsi;
- Uyğun mövqedə olan şagirdlərin cütlərdə birləşdirilməsi. Onların «lehinə» və «əleyhinə» siyahı tərtib etməsi;
- Hər bir cüt başqa cütlə birləşdikdən sonra siyahıdakı bəndlərə əlavələrin edilməsi;
- Sinif bu arqumentlər ətrafında düşünür və «lehinə» və ya «əleyhinə» qərarlar qəbul edir;
- Qərarların qəbul edilməsi və ümumiləşdirilmənin aparılması.

Bu üsulu cütlərlə və bütün siniflə aparmaq daha düzgün olar.

### Klassik dialoq (Sokrat dialoqu)

Klassik dialoq, demək olar ki, debatlarla eyni alqoritmlə aparılır. Bu dialoqun aparılması problemin həlli üçün səmərəli yolların müəyyən edilməsidir. Debat kimi, burada da xüsusi sxemdən istifadə olunur. Bunu aşağıdakı kimi təsvir etmək olar.




Debatdan fərqli olaraq, klassik dialoqda iddiaçı və digər tərəfin məqsədi üçüncü tərəfi inandırmaq deyil, problemin həlli üçün dəlillər göstərməkdir. «Orta əsr şə-

Çap üçün deyil

hərləri» mövzusunun tədrisi zamanı bu üsuldan da istifadə etmək olar. Burada şəhərlərin yaranmasına ticarətin inkişafını əsas səbəb götürməklə şagirdləri dialoqa cəlb etmək dərsin maraqlı keçməsinə şərait yaradar.

**Esse**

Şagirdlər müstəqil düşüncəyə malik olduqlarını hər hansı bir problem haqqında esse yazaraq həyata keçirə bilərlər. Esse hazırlayan şagird problem üzrə öz fikirlərini mənbə və faktlara əsaslanaraq yazmalıdır. Ümumiləşdirilmələr aparmalı, yekun nəticəyə gəlməlidir. Essedə yaradıcılıq tətbiq edərək ev tapşırığını daha mükəmməl yerinə yetirmək olar. Məsələn, şagirdlərə «Parlament, yoxsa kral» mövzusuna aid esse yazmaq tapşırıla bilər.

**Fasiləli oxu üsulu**

Bu üsulun tətbiqi zamanı şagirdlər əvvəlcə mətnlə tanış olur. Məsələn, İngiltərə mövzusunun mətnini şagirdlər növbə ilə oxuyurlar. Mətn oxunarkən fasilələr edilir, müəyyən izahlar aparılır. Bu zaman şagirdlərin biliklərinin möhkəmlənməsindən ötrü mətnin müəyyən hissələrinə qoyulmuş suallar da müzakirə edilməlidir.

**İnsert**

Bu üsul dərslikdəki mətnin aktiv fəaliyyətlə, yəni şagirdin öz münasibətini bildirərək oxunmasıdır. Şagird mövzudakı fikirlərə münasibətini qəbul edilmiş işarələrlə («√» – bu məlumat mənə tanış idi, «–» – bu məlumat mənim əvvəllər bildiyimi inkar edir, «+» – bu məlumat mənim üçün yenidir, «?» – bu məsələyə dair əlavə məlumat almaq istərdim) bildirir. Dərslikdəki mətn oxunduqdan sonra ümumiləşdirmələr aparılır və qeyd olunur.

| «√» | «–» | «+» | «?» |
|---|---|---|---|
| | | | |

**«Zaman oxu» ilə iş**

«Zaman oxu» ilə işin təşkili tarix fənninin şagirdlərə öyrədilməsində ən əhəmiyyətli məsələlərdən biridir. Şagirdlərə müxtəlif mürəkkəblik səviyyəsi olan tapşırıqlar verilir:

1. «Zaman oxu»nda hansı tarixlər qeyd olunub?
2. Nəyə görə orada məhz bu tarixlər göstərilib?
3. Bu tarixlərdən hansı ən ilkindir (sonuncudur)?
4. Ən ilkin (son) tarixdən bu günə kimi neçə il keçib?
5. «Zaman oxu»nda göstərilən bir hadisə ilə digəri arasından neçə il ötüb?
6. «Zaman oxu»nda bir neçə hadisədən hansı ən tez (və ya gec) baş verib?



Çap üçün deyil

Dərslikdə yoxdursa «Zaman oxu»nun ilk mənbələr, ədəbiyyat, xəritələr və digər sənədlərdən götürülmüş tarixlər hesabına tərtib edilməsi və onunla işin təşkili vacib məsələlərdən biridir.

**Xəritələrlə iş**

Tarixi məlumatın şagirdlərin yaddaşında möhkəmləndirilməsində mühüm vasitələrdən biri də xəritələrlə işdir. Xəritələrlə iş mühüm hadisələri məkanla (hadisə yeri ilə), həmçinin müasir dövrlə əlaqələndirməyə imkan verir.

Şagirdlərə müxtəlif mürəkkəblik səviyyəsi olan tapşırıqlar verilir:

1. Xəritədə dünyanın hansı hissəsi təsvir olunur?
2. Öyrənilən ölkənin ən şimal, cənub, şərq və qərb nöqtələrini müəyyənləşdirin.
3. Xəritə üzrə öyrənilən ölkənin və ya yerin təbii şəraitini təsvir edin.
4. Ərazinin təbii şəraitinə əsasən buranın yerli əhalisi üçün hansı fəaliyyət növü daha sərfəli olardı?
5. Mühüm ticarət yollarının, hərbi yürüşlərin, dəniz ekspedisiyalarının və s. marşrutların hansı ölkələrdən keçdiyini xəritədə müəyyən edin.
6. Problemin həlli üçün xəritələrin müqayisəli təhlilindən istifadə edin.
7. Müqayisədə öz mövqeyinizi xəritənin köməyi ilə əsaslandırın.
8. Göstərilən ərazidə hansı müasir ölkələrin yerləşdiyini müəyyənləşdirin.

Bu prosesdə fəallıq növləri: qruplarda xəritə üzrə fikir mübadiləsi, xəritə haqqında rəy, kontur xəritələrlə iş, xəritənin yaradılması (əgər proqramda xəritə yoxdursa) və s. ibarətdir.

**Mənbələrin öyrənilməsi üzrə dərslər**

Mənbələrin öyrənilməsi və onlar əsasında tarixi hadisənin müəyyənləşdirilməsi olduqca vacib əhəmiyyətə malikdir. Mənbələrin öyrənilməsi üzrə dərs müxtəlif bilik mənbələri ilə işi təşkil etməyə, şagirdlərə tarixi faktların təhlili, təsnifatı və sistemləşdirilməsi üsullarını, onların ümumiləşdirilməsini və öz mövqeyinin əsaslandırılmasını öyrənməyə təkan verir. Belə dərslər şagirdlərin tədqiqat fəaliyyətini stimullaşdırır.

Bunun bir modelini – «Biz tarix dərsliyi yazırıq» formasında göstərək.

Şagirdlərə müəyyən mövzu üzrə mənbələr kompleksinin öyrənilməsi əsasında müstəqil şəkildə dərsliyin bir paraqrafını və ya kiçik bir hissəsini yazmaq təklif olunur:

1. Müəllim dərsin mövzusunu, problemi söyləyir və tapşırığı izah edir.
2. Şagirdlər kiçik təlim qruplarına bölünürlər və ilkin məlumatların tədqiqi əsasında «tarix dərsliyi» üçün material seçirlər.



Çap üçün deyil

Qrupların iş qaydası aşağıdakı kimi ola bilər:

a) paraqrafın başlığını və ya planını dürüst ifadə etmək və mövzunun açılması üçün hansı yarımbəndlər nəzərdən keçirilməlidir?

b) qısa müəllif mətni yazmaq;

c) xronoloji-hadisə sırasını açmaq;

d) məqsədəuyğun sayılsa, mənbələrdən parçalar götürmək;

e) xəritə, illüstrasiyalar tapmaq;

ə) «zaman oxu»nu tərtib etmək.

3. Hər bir qrup işin yekunlarını sinfə təqdim edir.

### «İşgüzar hay-küy» nə üçün lazımdır

Müəllimin uzunmüddətli çıxışından sonra dərsin tempini dəyişmək üçün «ümumi hay-küy» məsləhət görülür. Bu üsul şagirdlərə iki-üç nəfərlik qruplarda söhbət aparmaq imkanı verir.

Şagirdlərə bildirilir ki, onların indicə eşitdikləri və ya gördükləri haqda fikirlərini söyləmək üçün beş dəqiqə vaxtları var. Onlar hansı hislər keçirdiklərini, nə düşündüklərini söyləyə, başa düşmədiklərini isə bir-birindən soruşa bilərlər. Bundan sonra qrup və ya cütlüklərdən fikirlərini bütün siniflə bölüşməyi və ya suallar verməyi xahiş etmək olar. Bu fəaliyyət iştirakçıları, eyni zamanda fəal işə qoşmağın ən səmərəli modelidir.

İştirakçılar üçün stullar iki dairəvi cərgədə düzülür. Daxili cərgədə – şagirdlər arxaları dairənin mərkəzinə doğru otururlar. Kənar cərgədə – şagirdlər üzləri dairənin mərkəzinə doğru yerləşir. Müəllimin işarəsi ilə kənar cərgənin bütün şagirdləri sağdakı stula keçir və qarşılarında yeni rəqib olur. Şagirdlər cütlüklərdə eyni zamanda diskussiya aparırlar. Onlar yeni rəqiblə qarşılaşmaqla yeni-yeni dəlillər eşidirlər, deməli, yeni cavablar axtarmalı olurlar. Dövrə sona çatana kimi şagirdlərin dəlillər sistemi, bir qayda olaraq, «itilənir», eləcə də onlar müxtəlif tərəfdaşlarla ünsiyyət təcrübəsi qazanmış olurlar.

Çap üçün deyil

# PLANLAŞDIRMANIN APARILMASINA DAİR TÖVSİYƏLƏR

Hər birimizin həyatında palnlaşma əsasdır. Planlaşma aparmadan heç bir səmərəli işə nail ola bilmərik. Bütün sahələrdə olduğu kimi, tədrisdə də planlaşma əsasdır. Kurikulum islahatı həyata keçirilən zaman hər bir müəllim planlaşmaya böyük diqqət ayırmalı, nəticələr əldə etmək üçün planını dəqiq tutmalıdır.

Bildiyiniz kimi, planlaşdırmanın 2 növü vardır: gündəlik və prespektiv.

Müəllim dərsə hazırlaşarkən, ilk növbədə, sinif üzrə təlim nəticələrini və alt-standartları nəzərə almalıdır. Hər bir standartın reallaşdırılması üçün mövzular vasitəsilə şagidlərdə bilik və bacarıqlar formalaşdırılır. Siz gündəlik plan nümunəsini hazırlayarkən standarta uyğun məqsədlərin çıxarılmasını da unutmayın. Məqsədlər şagirdyönümlü olmalı, şagirdə ünvanlanmalıdır. Bunun ardınca tədris zamanı tətbiq ediləcək forma və üsullar müəyyən edilməlidir. Sizin seçdiyiniz üsullar kor-koranə yazılmamalı, dərs müddətində tətbiqi reallaşdırılmalıdır. Bəzən müəllimlər gündəlik plan nümunəsində forma və üsulların adını yazsa da, onu dərsin gedişində reallaşdırmır. Buna görə də bəzən yazılı şəkildə hazırladıqları plandakı nəticə dərsin sonunda şagirdlərdən alınmır. Standartlar əsasında dərsin reallaşdırılması zamanı təlim-tərbiyə və inkişafetdirici məqsədlər müəyyənləşdirilməlidir. Bu məqsədlərin həyata keçirilməsində seçilmiş resurslar və inteqrasiya imkanları mütləq nəzərdə saxlanılmalıdır. Bundan sonra dərsin mərhələləri başlanır. Fəal dərsdə dərsin aşağıdakı mərhələləri vardır:

***I mərhələ: motivasiya, problemin qoyulması***

Fənnin tədrisi prosesində hər bir tədqiqat problemin müəyyənləşdirilməsi ilə başlayır. Əsl problem həmişə çoxsaylı fərziyyələr, ehtimallar doğurur və bunları yoxlamaq üçün ilk növbədə, tədqiqat sualının formalaşdırılması lazım gəlir. Çünki tədqiqat sualı yeni biliklərin kəşf olunmasında bələdçi kimi çıxış edir.

Bu mərhələdə şagirdlər düşünməyə, idraki fəallığa sövq edildiyindən, o həm də motivasiya adlandırılır.

Dərsdə motivasiyanın uğurlu alınması üçün aşağıdakı şərtlərə əməl edilməsi tövsiyə edilir:

1. Motivasiya üçün seçilən material qeyri-adi, maraqlı olmalı;
2. Fərziyyələri yoxlamaq, tədqiqat aparmaq və yaradıcılıq üçün imkan verməli;
3. Müəllim şagirdlərə yönəldici suallar verməli, fərziyyələri irəli sürərkən onları həvəsləndirməli;
4. Tədqiqat sualı təlim standartlarına əsasən müəyyənləşdirilməli və dərsin məqsədinə yönəldilməli;
5. Müxtəlif audiovizual vasitələrlə şagirdlərin diqqətini çəkərək maraq oyatmalı;
6. Motivasiya mürəkkəb olmamalı, dərsin çox hissəsini aparmamalı;
7. Motivasiya tədqiqat sualının ortaya qoyulması ilə bitməlidir.

Çap üçün deyil

***II mərhələ: tədqiqatın aparılması***

Dərsin məqsədinə və tədqiqat sualına uyğun iş üsulları seçilir. Tədqiqat sualına cavab verməyə kömək edəcək faktları tapmaq üçün məqsədyönlü iş aparılır. Şagirdlərə müxtəlif çalışmalar verilir. Əgər bu zaman qrup işləri verirsinizsə, qrup tapşırıqlarının həcmi və səviyyəsi nəzərə alınmalıdır. Bəzən qrup bölgüsü aparılır və tədqiqat işi vaxtı müəllim iş vərəqləri paylayır. İş vərəqlərindəki tapşırıqlar biri digərindən asanlıq və çətinliyinə görə fərqlənir. Bir qrup asan tapşırığı 5 dəqiqəyə həll edir, digər qrup isə 15 dəqiqə vaxt ayırsa da, işini bitirə bilmir. Bütün bunları nəzərə almaqla işinizi səmərəli qurmağa çalışın. Beləliklə, tədqiqat sualına cavab tapmaq üçün zəmin yaranır. Tədqiqat toplanmış faktlar əsasında təqdimatların hazırlanması ilə bitir.

Tədqiqat müxtəlif formalarda: kollektiv, qruplarla, cüt şəklində və fərdi qaydada aparıla bilər.

***III mərhələ: məlumatın mübadiləsi***

Verilmiş problemə aid tədqiqat üçün ayrılmış vaxt bitdikdən sonra müəllim tapşırığın icrasının başa çatdığını bildirir. Bundan sonra şagirdlər informasiyanın təqdimatına başlayır, əldə etdikləri yeni informasiyaları digər iştirakçılarla bölüşürlər. Həmin təqdimatların əks olunduğu iş vərəqləri lövhədən asılır.

***IV mərhələ: məlumatın müzakirəsi***

Mövcud mərhələnin məqsədi yeni əldə edilmiş informasiyanı sistemləşdirmək və qrupların hazırladıqları təqdimatlar arasındakı əlaqəni üzə çıxarmaqdır.

Bu mərhələdə müəllim köməkçi suallardan istifadə etməklə əldə olunmuş faktların məqsədyönlü müzakirəsini təşkil edir. Məlumat, sxem, qrafik, cədvəl, təsnifat və s. formalarda təqdimatlar dinlənilir. Nəticədə tədqiqat sualına cavab aydınlaşır.

***V mərhələ: nəticə və ümumiləşdirmə***

Aparılan tədqiqatdan sonra nəticəyə gəlmək üçün müəllim şagirdlərin köməyi ilə yeni bilikləri, əldə edilmiş ideyanı tədqiqat sualı ilə və şagirdlərin ilkin fərziyyələri ilə müqayisə edərək ümumiləşdirir. Hamı tədqiqat sualına cavab verildiyinə əmin olur.

***VI mərhələ: yaradıcı tətbiqetmə və ya ev tapşırıqları***

Yaradıcı tətbiqetmə biliyi möhkəmləndirir, onun praktiki əhəmiyyətini artırır. Bu məqsədlə şagirdlərə həyatla əlaqəli praktik tapşırıqlar verilir. Əgər yaradıcı tətbiqetməni dərhal icra etmək mümkün olmursa, o sonrakı dərslərdə həyata keçirilir.

Dərsdə alınmış bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsi üçün ən geniş yayılmış sərbəst iş forması ev tapşırıqlarıdır.

***Refleksiya və qiymətləndirmə***

Refleksiya – təlim prosesinin bütün mərhələlərini təhlil etməyə və onu dərindən başa düşməyə imkan verir. Qiymətləndirmə şagirdlərin təlimdəki nailiyyətlə-

Çap üçün deyil

rinin dəyərləndirilməsi prosesidir. Qiymətləndirmə konkret meyarlar üzrə aparılmalıdır. Müəllim şagirdləri əvvəlcədən bu meyarlarla tanış etməlidir.

Perspektiv planlaşdırma əsas məqsədləri müəyyənləşdirmək və onlara nail olmaq üçün hər bir müəllimin özünəməxsus fəaliyyət istiqamətidir. Bildiyiniz kimi, kurikulum islahatına görə müəllimlər illik planlaşdırma aparmaqda tam sərbəstdirlər. Əvvəldə də qeyd etdiyimiz kimi, məhz hər bir məktəbin yerləşdiyi regiondan, onun infrastrukturundan, maddi-texniki bazasından və s. asılı olaraq «Ümumi tarix» fənn kurikulumunda nəzərdə tutulmuş məzmun standartları müxtəlif cür reallaşdırıla bilər. Planlaşdırma aparılarkən yuxarıda qeyd olunanlarla yanaşı, şagirdlərin fərdi xüsusiyyətlərinin, öyrənmə tərzlərinin də nəzərə alınması olduqca vacib şərtdir. Eyni bir regionda, eyni bir məktəbdə, lakin ayrı-ayrı VIII siniflərdə «Ümumi tarix» fənnindən dərs deyən müəllimlərin illik planlaşdırmaları müxtəlif ola bilər. Lakin bu planlaşdırmanı kor-koranə aparmaq qeyri-mümkündür. Bunun üçün müəyyən bacarıqlarınız olmalıdır. Bunlar aşağıdakılardır:

- Məzmun standartlarına əsasən dərslikdəki tədris vahidi və mövzular üzrə dəqiqləşmələrin aparılması üçün «Ümumi tarix» fənn proqramında (kurikulumunda) nəzərdə tutulan məzmun standartlarının dərslikdə hansı mövzularda reallaşdırıldığını və bu mövzuların hansı tədris vahidlərində birləşdirildiyini müəyyən etmənizdir. Bu, eyni zamanda dərsliklə tanışlıq xarakteri daşıyır. Bu, illik planlaşdırmanı düzgün apara bilməniz üçün demək olar ki, ilkin addımdır.
- Tədris vahidlərinin və mövzuların ardıcıllığının müəyyənləşdirilməsi mühüm bacarıqlardan biridir. Mövzuların ardıcıllığı dedikdə sadədən mürəkkəbə, məntiqi və xronoloji ardıcıllıq nəzərdə tutulur. Bu ardıcıllığı müəyyənləşdirərkən bir neçə prinsip nəzərə alınmalıdır ki, bunun da birincisi məzmun ardıcıllığı baxımından sadədən mürəkkəbə, asandan çətinə doğru getməkdir. Bunun üçün əvvəlcə dərslikdə verilən ardıcıllığa diqqət yetirməli, bu ardıcıllıq sizi müəyyən səbəblərdən qane etmirsə (tədris ilində baş verəcək mühüm hadisələr, fənlərarası inteqrasiya və s. baxımdan), özünüz mövzuların ardıcıllığını müəyyən etməlisiniz.
- İnteqrasiya imkanlarının müəyyən edilməsi planlaşdırma aparmaq üçün müəllimə lazım olan bacarıqlardan biridir. «Ümumi tarix» özündə beş məzmun xəttini birləşdirdiyinə görə onun bir çox fənlərlə («Azərbaycan tarixi», «Ədəbiyyat», «Həyat bilgisi», «Coğrafiya» və s.) inteqrasiyası mümkündür. MMV-də sizlərə təqdim olunmuş illik planlaşdırma cədvəlində ümumi tarix məzmun standartlarının digər fənlərlə inteqrasiya imkanları göstərilmişdir. Bu inteqrasiya imkanları biz müəlliflərin məzmun standartlarını reallaşdırmamıza imkan yaradır. Lakin vəsaitdə verilmiş illik planlaşdırma cədvəlində hər bir mövzu üzrə inteqrasiya verilməsinə baxmayaraq, sinfinizdəki şagirdlərin səviyyəsini, maraqlarını, resurslarınızı nəzərə alaraq özünüz inteqrasiya imkanları müəyyənləşdirə bilərsiniz. Bunun üçün:



Çap üçün deyil

– reallaşdıracağınız standartı həyata keçirmək üçün hansı fənnin köməyinə ehtiyac olduğunu özünüz üçün müəyyənləşdirin;
– seçdiyiniz fənnin məzmun standartlarını nəzərdən keçirin. Siz yalnız VIII sinif məzmun standartları ilə inteqrasiya yarada bilərsiniz.

İnteqrasiya üçün «Ümumi tarix» fənni üzrə seçdiyiniz standarta müvafiq standartı müəyyənləşdirərək illik dərs planında qeyd etməniz vacibdir. Bundan sonra müəyyənləşdirdiyiniz inteqrasiya imkanına müvafiq olaraq istifadə edəcəyiniz resurslarda, şagirdlərə təqdim edəcəyiniz tapşırıqlarınızda bunu nəzərə almalısınız.

Əlavə resursların seçilməsi mövzunu, inteqrasiyanı müəyyənləşdirdikdən sonra aparılmalıdır.

Mövzulara görə məqsədyönlü vaxt bölgüsünün aparılması mühüm bacarıqlardan biridir. Tədris planına əsasən VIII sinifdə «Ümumi tarix» fənninin tədrisinə ayrılan saatdan kənara çıxmamaq şərti ilə daha vacib, eyni zamanda şagirdlərin çətin qavradıqları mövzulara çox, asan mövzulara isə az vaxt ayıra bilərsiniz. Perspektiv planlaşdırma aşağıdakı cədvəl əsasında hazırlanmalıdır:

| Standart | Tədris vahidi | Mövzu | İnteqrasiya | Resurslar | Qiymətləndirmə | Saat | Tarix |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |

Çap üçün deyil

## TƏDRİSİN SƏMƏRƏLİ OLMASI ÜÇÜN TÖVSİYƏLƏR

Müasir dövrdə bütün sahələrdə inkişaf nəzərəçarpacaq qədər görünməkdədir. Bu inkişaf təhsil sahəsində də öz əksini tapmaqdadır. Yeniliklərin qəbulu və tətbiqi, düzgün strategiya və planlaşdırma, nəticəyə gedən yolun düzgün qiymətləndirilməsi müəllimin qarşısına yeni öhdəliklər və tələblər qoyur. Müəllim birtərəfli inkişaf etmir, şagirdlərlə birgə daim axtarışdadır. O özünün peşəkar inkişafı üçün müəyyən addımlar atmalı, düzgün planlaşdırmalar aparmalıdır. Bunun üçün müəllim öz üzərində çalışmalı, araşdırmalar etməli, müəllim kimi özü-özünə hesabat verməlidir. Bunun üçün öncə siz daim digər müəllimlərlə əməkdaşlıq etməli, həmkarlarınızla bölüşməlisiniz. Hədəfə çatmaq üçün görəcəyiniz işləri müəyyən edin. Sizin işinizə səmərə verən amilləri qeyd edin. Özünüzün etdiyiniz yenilikləri mütəxəssis və müəllimlərlə bölüşün. İlk növbədə, tədris etdiyiniz fənni və onun reallaşdırılması üçün seçilmiş mövzuları mükəmməl bilməyiniz vacibdir. Yaxşı bilmədiyiniz mövzu yaxşı tədris oluna bilməz. Sinifdən-sinfə şagirdlərin inkişaf etməsini və bu inkişaf üçün qoyulan tələbləri müəllim mütləq bilməli və tətbiq etməlidir. Fənlərarası əlaqələr qurmaq üçün digər fənn müəllimləri ilə əməkdaşlıq etmək sizin inkişafınıza səbəb olacaq. Mövzuları bilməklə yanaşı, şagirdləri istiqamətləndirməyi bacarmaq da şərtdir. Bütün pedaqoji yanaşmalar bütün fənlər üçün eyni dərəcədə keçərli deyildir. Hər bir fənnin spesifik xüsusiyyətləri vardır. Bu xüsusiyyət tarix fənnində də özünü büruzə verir. Riyaziyyat müəlliminin pedaqoji yanaşması ilə tarix müəlliminin yanaşması eyniyət təşkil edə bilməz. Tarixdə sözlər və müzakirələr əsasdır. Müəllim dərsin gedişində düzgün sual qoyma bacarığına malik olmalı, şagirddən istədiyini almaq üçün ona aydın olan fikirləri səsləndirməli, tapşırıqlar təfəkkürün növlərinə xidmət etməlidir.

Sizin peşəkarlığınız o zaman ortaya çıxar ki, siz düzgün tədris və təhsil mühiti yaradasınız. Yeni islahatı, yəni kurikulumu, onun qiymətləndirilməsini daha dəqiq reallaşdırmaq imkanına sahib olasınız. Özünüzü inkişaf etdirərkən şagirdlərin tələblərini, eləcə də maraqlarını nəzərə almağı unutmayın. Çünki müasir gənclik daha emosional və rəngarəng biliklərə malikdir. Çünki onun internetə çıxış imkanları vardır. Daim yeni informasiya əldə edən şagird fərqli dərs görmək istəyir. Yorucu və cansıxıcı dərslər onu stimuldan salır. Bu baxımdan dərsin gedişi cəlbedici, eləcə də araşdırıcı olarsa və bu zaman şagird müəyyən bacarıqlar nümayiş etdirərsə, sizin peşəkarlığınızın inkişafına səbəb olar.

Əgər siz işinizin səmərəli olmasını istəyirsinizsə, düzgün standartlar seçməklə, düzgün məqsədlərin qoyulması işinə diqqət yetirin. Düzgün seçilməyən standart məqsədin reallaşdırılmasına mane olar, nəticələr arzuolunmaz ola bilər. Yaxud da standarta uyğun məqsədin qoyulmaması dərsin səmərəsizliyindən xəbər verir. Standart və ona uyğun qoyulan məqsəd sonda şagirdin məqsədə uyğun meyarlarla qiymətləndirilməsinə gətirib çıxarır. Sən bu gün hansı ölçü əsasında hansı məqsədi reallaşdırdın və necə qiymətləndirdin. Qiymətləndirmə dərsin bütün mərhələlə-



Çap üçün deyil

rində özünü əks etdirə bilər. Əsas odur ki, şagirddə formalaşdırılan bacarığın səviyyəsi müəyyən edilsin. Başqa sözlə, şagird bu gün nə əldə etdi və nəyə nail oldu.

Siz öz üzərinizdə çalışdıqca öz işinizi təhlil etmək bacarığına malik olmalısınız. Bir növ bu, özünüqiymətləndirmədir. Mən bu gün nə etdim? Nəyi əldə etdim? Şagirdlər hansı bilik və bacarıqlara yiyələndilər? Keçən gündən fərqli olan nə idi? Nələri etməli idim? Nələri etdim? Nələri etmədim? Daha sonrakı dərslərdə nələri etməliyəm? Bu kimi suallara cavab tapmağa çalışmanız sizin özünüzü və dərsinizi təhlil etmənizə yardımçı olacaqdır. Boşluqları aradan qaldırmaq üçün başqalarının təcrübəsindən istifadə etmək, onları baş vermiş problemlərin aradan qaldırılması yollarında müzakirələrə dəvət etmək lazımdır. Dərs mühiti 45 dəqiqələrlə yekunlaşmır. Digər fənn müəllimləri ilə əməkdaşlıq yetərli deyil. Siz valideynlə əməkdaşlığı da öz iş planınıza daxil etməlisiniz. Çünki sizin şagirdlərin daimi təması valideyndir. Valideynlərlə söhbətlər edin. Problemləri olan şagirdlərin valideynlərini öz iş şəraitinizə cəlb edin. Övladının inkişafı üçün birgə əməkdaşlıq planları qurun. Lazım gələrsə bir psixoloq kimi araşdırma aparın. Əsas odur ki, siz dərsinizin keyfiyyətinin yüksəldilməsi yolunda irəliləyə biləsiniz. Təbii ki, bu səmərəli şəkildə reallaşdırılmalıdır.

Müxtəlif resuslarla, maraqlı motivasiya ilə, eləcə də tədqiqat işi ilə əhatə olunmuş dərs keyfiyyətdən xəbər vermir. Siz dərs mühitinin sağlam şəkildə idarə olunmasını təşkil etməyə çalışmalısınız. Bəzən əla yığılmış slaydlar, əla iş vərəqi – bu kimi şeylər səmərəsi olmayan bir dərsin görüntülənməsinə gətirib çıxarır. Müəllimin verdiyi tapşırıqlar, qrup bölgüsü, fərdi iş və s. tam bir qarışıqlıq halında ortaya çıxır. Dərsin sonunda şagird heç bir nəticəyə nail olmadan sinfi tərk edir. Bu baxımdan planlaşmanın düzgün aparılması ilə yanaşı, düzgün idarəçilik bacarığı sizin yardımınıza çatmış olacaqdır.

İş vərəqlərini hazırlayarkən təfəkkürün inkişafını mütləq nəzərə almaq lazımdır. Məntiqi, tənqidi və yaradıcı təfəkkürə aid tapşırıqların verilməsi daha doğru olar. Aşağıdakı cədvələ əsasən siz şagird təfəkkürünü lazımi səviyyədə inkişaf etdirə bilərsiniz.

| Məntiqi təfəkkür | Tənqidi təfəkkür | Yaradıcı təfəkkür |
|---|---|---|
| Təsvir et.<br>Müqayisə et.<br>Oxşarlıqları və fərqləri tap.<br>Təsnif et. | Müxtəlif baxış nöqtələrindən qiymətləndir.<br>Əhəmiyyətini, rolunu qiymətləndir. | Uydur:<br>– hekayə;<br>– situasiya;<br>– nağıl;<br>– musiqi;<br>– üsul |
| Qur.<br>Dəyişdir.<br>Hesabla.<br>Sadələşdir. | Meyarları müəyyən et.<br>Meyar cədvəlini tərtib et. | Tərtib et, uydur:<br>– maket;<br>– model;<br>– sxem;<br>– qrafik;<br>– kitab |

Çap üçün deyil

| Məntiqi təfəkkür | Tənqidi təfəkkür | Yaradıcı təfəkkür |
|---|---|---|
| Müəyyən et.<br>Öz tərifini ver.<br>Əlaqəni aşkar et. | Səhvləri tap.<br>Faktları uydurmadan seçib ayır.<br>Mübahisəli məqamları aşkar et. | Proqnoz ver.<br>Müqayisə et və analoqu tap.<br>İxtira et, yarat.<br>Başqa obyektə döndər.<br>Yeni tətbiq üsulunu tap. |
| Sxem, qrafik, cədvəl düzəlt.<br>Tərtib et.<br>Davam et. | Tənqidi yanaş.<br>Düzgün olanı seç. | Dəyişikliklər et, yarat, yenidən tərtib et.<br>Dəyişikliklər etməklə yarat.<br>Quraşdır. |
| Təhlil et.<br>İzah et.<br>Şərh et.<br>Nəticə çıxar. | Ən mühüm predmetləri və hadisələri müəyyən et, əhəmiyyətini sübut et. | Yeni əsaslar üzərində təsnif et.<br>Yeni şəraitə uyğun hala gətir.<br>Tətbiq et (yeni şəraitdə). |
| Səbəbi tap (səbəb, nəticə). | Öz ideyanı əsaslandır (sübut et). | Öz şəxsi izahını ver.<br>Problemi müəyyən et, fərziyyələr irəli sür. |
| Ümumiləşdir.<br>Əsas ideyanı seçib ayır. | Ən səmərəli yolu tap. | Mübaliğə et.<br>Minimuma endir. |
| Mahiyyətini, mənasını ifadə et. | Məsləhət ver. | Simvol (rəmz) şəklində təsvir et. |

Dərs başlayarkən müəyyən qaydalar tətbiq edin, çalışın bu qaydalar vərdişə çevrilsin. Qrup bölgüsü, müzakirə və s. məqamlarda səs-küyün minimum səviyyəyə düşməsi üçün qızıl qaydaları qoymağı unutmayın. Hətta bu qaydaların qrup qiymətləndirməsinə təsirini də vurğulayın. Şagirdlərin üzərinə bəzi məsuliyyətlər qoyun. Sinfin idarə olunmasında onlardan istifadə etmək olduqca səmərə verir. Şagird ona güvənən müəllimin etimadını doğrultmağa çalışır. Onun yaş xüsusiyyəti özünütəsdiq üçün daim tələsir. Bu baxımdan bu sizin işinizdə keyfiyyət göstəricisi ola bilər.

Bütün bunlarla yanaşı, diqqətiniz daim bütün sinif üzərində olsun. Göz teması sizin əsas silahınızdır. Şagird ona baxan nəzərlərin olduğunu hiss edir, kənarda qalmadığını duyur və özünütəsdiqə çalışır. Sakit və anlaşılan səs tonu sizin işinizi daha



Çap üçün deyil

da rahatlaşdıracaq. Dərsin gedişi zamanı gərəkən zamanlarda partalar arasında gəzişin. Onlara yönləndirici sullar verməklə yardımlar edin. Gərəkirsə açar sözlərdən istifadə edin. Şagirdin daim ağır yük altında qalması dərsin səmərəsini itirə bilər. Şagirdlərə dərslərin gedişi zamanı adları ilə müraciət etməyə çalışın. Qiymətləndirməni şagirdlərlə birgə tətbiq edin. Şagirdlər düzgün olmayan davranışı özləri müəyyən etsinlər və öz işlərində buna yol verməsinlər. Amma hər hansı bir səhv hərəkətin üzərində dəqiqələrlə dayanıb dərsin gedişinə mane olmayın. Qaydaları tez-tez xatırlatmanız daha səmərəli nəticə verər.

Vaxtdan düzgün və səmərəli istifadə etməyə çalışın. Bu səmərəlilik bütün sinif üçün olmalıdır. Təkcə özünüzü düşünməyin. Bəzən belə hallar da olur: mən əla dərs keçdim, hər şeyi dedim, tapşırıqlar verdim, refleksiya da etdim və s. Bu çox səmərəli dərs oldu. Siz bu səmərəliliyə şagird yönündən baxın. Bu gün şagird nə qazandı? Onda hansı bilik və bacarıqlar formalaşdı? və s.

Sizin daim öz üzərinizdə çalışmanız, yeniliklərdən xəbərdar olmanız, təcrübələrinizi bölüşməniz, başqalarının təcrübəsindən istifadəniz peşəkar inkişafınıza səbəb olacaqdır. Sizin inkişafınız isə yetişən bir nəslin inkişafı deməkdir.

Təhsil istiqamətində atılan bütün addımlar şagirdlərin inkişafı, onların gələcəkdə şəxsiyyət kimi yetişməsi naminədir. Bu şəxsiyyət həyata bacarıqlı şəkildə atılmalı, müəyyən bilik və bacarıqlara sahiblənməlidir. Bu baxımdan Siz müəllimlərin üzərinə çox böyük öhdəliklər düşür. Bütün apardığınız planlaşmalar məktəbin imkanları və şagirdlərin yaş xüsusiyyətinə uyğunlaşdırılmalıdır. Onların öyrənmə tərzlərinin nəzərə alınması vacib məqamlardan biridir. Yəqin ki, hər biriniz öz sinfinizdə müxtəlif xarakterə və təfəkkürə malik olan şagirdlərlə üz-üzə gəlirsiniz. Onların müxtəlif xüsusiyyətləri müxtəlif öyrənmə tərzindən xəbər verir. Hər bir şagirdin özünəməxsus öyrənmə xüsusiyyəti vardır. Necə etməliyik ki, müxtəlif öyrənmə tərzinə malik olan şagirdlərin maraqlarına uyğun dərs reallaşdıraq. Kurikulumun tələblərindən biri fəal-interaktiv təlimin reallaşdırılmasıdır. Bu işin həyata keçirilməsində müxtəlif təlim üsul və formaları köməyimizə çatmış olur. Bəzən müəllimlər özlərinin öyrənmə üsulunu şagirdlərə tətbiq edirlər. Bu tətbiqetmə çox zaman öz səmərəsini vermir. Əldə olunan nəticə yetərsiz olur. Siz şagirdlərinizin xüsusiyyətlərini və öyrənmə tərzlərini müəyyən etməklə onları lazımi istiqamətə yönləndirə bilərsiniz. Müxtəlif öyrənmə tərzləri vardır ki, bunlardan bəziləri ilə tanış olmanızı tövsiyə edirik.

***Əyani öyrənmə tərzi*** – belə şagirdlər əyaniliyə üstünlük verir, gözlə görünən hər bir şeyi daha yaxşı qavrayır, tətbiqi ona asan gəlir. Müxtəlif şəkillər, xəritələr, miniatürlər, sxemlər, portretlər, diaqramlar, nümayişlər, paylama materialları, filmlər, flipçartlar və s. sizə bu işdə yardımçı olacaqdır. Belə şagirdlər çox zaman verilən tapşırığı özü oxumağa üstünlük verir. Yaxud da kiminsə təlimatın icrasını reallaşdırmasına baxmaq onun öyrənməsini rahatlaşdırır. Yalnız bundan sonra o, tapşırığı dolğun və düzgün şəkildə yerinə yetirə bilir.

***Eşidərək öyrənmə tərzi*** – bu cür şagirdlər dinləyərək qavramağa malik olanlardırlar. İstənilən tapşırığı icra etmələri üçün müəllimin təlimatına qulaq asmaları



Çap üçün deyil

vacibdir. Dərsin təhlili, şagirdlərin tapşırıqları təqdim etməsi, müzakirələr onların öyrənməsi üçün vasitə hesab edilir.

Siz bu cür öyrənmə tərzinə malik olanları necə müəyyənləşdirə bilərsiniz? Bunun üçün diqqətli olmaq və müşahidələr aparmaq vacibdir. Bəzi məqamları da diqqətdən qaçırmamaq tövsiyə olunur. Məsələn, əyani öyrənmə tərzinə malik olan şagirdlər sürətlə danışır, səbirsiz olur, başqalarının sözünü kəsirlər. Danışarkən obrazlı danışır, hadisələri tam təsvir edərək sanki əyanilik yaradırlar. Onlar görüntülü dərs prosesini maraqla izləyir, tapşırıqların icrası zamanı əyaniliyə üstünlük verirlər.

Bu cür xüsusiyyətləri diqqət mərkəzində saxlamaqla siz öz şagirdləriniz arasından əyani öyrənənləri seçə bilərsiniz. Bu istiqamətdə addım atmaq sizin həm peşəkarlığınıza, həm də keyfiyyətin yüksəldilməsinə yardım edəcəkdir.

Çap üçün deyil

# QİYMƏTLƏNDİRMƏYƏ DAİR TÖVSİYƏLƏR

Azərbaycan Respublikası müstəqil dövlət kimi inkişaf edərək milli xüsusiyyətlərini saxlamaqla dünyaya inteqrasiya olur. Bu baxımdan yeni qiymətləndirmə sistemi də dünyada qəbul olunmuş standartlara uyğun şəkildə qurulmalı, onun formalaşdırılmasında dünya təcrübəsindən geniş istifadə edilməlidir. Təhsil sahəsində həyata keçirilən islahatlar, xüsusilə yeni qiymətləndirmə siyasəti qabaqcıl təhsil təcrübələrinə və müəllim yaradıcılığına əsaslanaraq məqsədyönlü şəkildə təhsilin keyfiyyətinin yüksəldilməsinə və şagird nailiyyətinin inkişafına yönəlməlidir. Qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönələn və onu idarə edən vacib amildir. Hazırda kurikulumun tətbiqi ilə əlaqədar olaraq qiymətləndirmə ənənəvindən fərqlənir.

Qiymətləndirmə konsepsiyasına əsasən müasir qiymətləndirmə sistemi aşağıdakıları təmin edir:

– təhsildə müsbət dəyişikliklərin aparılması üçün mühüm vasitə rolunun yerinə yetirilməsini;

– təhsilin keyfiyyəti üçün əsas göstərici olan «şagirdin təlim nəticələri» haqqında etibarlı məlumat verilməsini;

– qiymətləndirmə vasitəsilə şagirdin bilik və bacarıqları haqqında kifayət qədər məlumat əldə edildikdən sonra fənn kurikulumlarında və dərsliklərdə müvafiq dəyişikliklərin aparılmasını;

– təhsildə olan bəzi neqativ hallara qarşı mübarizə vasitəsi funksiyasını;

– qiymətləndirmədə yeni yanaşmaların yaddaşa əsaslanan qiymətləndirmənin əksinə olaraq, məntiqi təfəkkür vərdişlərinin inkişafına xidmət etməsini.

Məktəbdaxili qiymətləndirmənin 2 əsas məqsədi var:

– şagirdlərin nəyi öyrəndiyini müəyyən etmək;

– sinifdaxili tədris materiallarının, təlim vəsaitlərinin və metodlarının səmərəliliyini və keyfiyyətini ortaya çıxarmaq.

Qiymətləndirmə nəticələri, əslində, tədrisin keyfiyyətinin yüksəldilməsinin önəmli bir hissəsidir. Təhsildə aparılan qiymətləndirmə və monitorinq prosesi şagirdlərin birbaşa müşahidə edilə bilməyən xüsusiyyətlərinin ortaya çıxarılmasına xidmət edir.

Qiymətləndirmə konsepsiyası və məzmun standartlarının mənimsənilməsi istiqamətində, əsasən, aşağıdakı qiymətləndirmə növlərindən istifadə olunur və onların hər biri qeyd edilən müvafiq məsələlərə aydınlıq gətirmək məqsədi daşıyır:

***Diaqnostik qiymətləndirmə*** – ilkin vəziyyət barədə məlumatın əldə edilməsi;

***Formativ qiymətləndirmə*** – şagird fəaliyyətinin izlənilməsi;

***Summativ qiymətləndirmə*** – şagird nailiyyətinin qiymətləndirilməsi.

**İlkin səviyyənin qiymətləndirilməsi (diaqnostik qiymətləndirmə).** Şagirdlər əsas bilik və bacarıqlara müəyyən dərəcədə malikdirlərmi? Şagirdlər tədris edilmiş materialın hansı hissəsini bilirlər?

Çap üçün deyil

**İrəliləyişlərin monitorinqi (formativ qiymətləndirmə).** Standartların mənimsənilməsinə doğru şagirdlər kifayət qədər irəliləyə bilirlərmi?

**Yekun (summativ) qiymətləndirmə.** Şagirdlər verilmiş standart və ya standartlar qrupunda müəyyən edilmiş məqsədlərə nail olublarmı?

Qiymətləndirmənin bu növləri şagirdləri hər bir fənnin məzmun standartlarında göstərilən əsas bilik və bacarıqların əldə edilməsinə yönəlmiş fəaliyyət istiqamətləri ilə təmin edirlər; ilkin səviyyənin qiymətləndirilməsi (diaqnostik qiymətləndirmə) şagirdin biliyini müəyyən edir və təlimin düzgün qurulmasında müəllimə köməklik göstərir. Təlim prosesində düzgün istiqamətləndirilmiş şagird öyrənilmiş materialın təkrarına vaxt itirmir, həmçinin onun üçün başa düşülməyən və ya tanış olmayan material qalmır. İlkin səviyyə qiymətləndirməsinin sualları bir-biri ilə elə əlaqələndirilib tənzimlənməlidir ki, onların bəziləri şagirdin hansı biliklərə malik olduğunu, digərləri isə yeni materialı mənimsəmiş şagirdləri müəyyən etsin. Diaqnostik qiymətləndirmədən istifadə etməklə öz təlim strategiyanızı müəyyənləşdirə bilərsiniz. Bu qiymətləndirmənin reallaşdırılması dərs ilinin, tədris vahidlərinin əvvəli üçün nəzərdə tutulur. Şagirdlərin bilik və bacarıqlarını müəyyən etmək, eyni zamanda şagird bir ümumi təhsil müəssisəsindən digərinə keçdikdə, sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, şagirdə fərdi yanaşmanı təmin etmək məqsədilə aparılır.

Diaqnostik qiymətləndirmənin aparılması üçün aşağıdakı üsul və vasitələrdən istifadə edə bilərsiniz:

| Üsullar | Vasitələr |
|---|---|
| Tapşırıqvermə | Çalışmalar |
| Müsahibə (şifahi yoxlama) | Müəllimin qeydiyyat vərəqi (şagirdlə, müvafiq hallarda qrup, yaxud siniflə aparılan şifahi yoxlama zamanı müəllimin öyrənmək (diaqnoz qoymaq) istədiyi məsələnin yazıldığı vərəq) |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət və müəllimin sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| Söhbət | Şifahi söhbət |
| Müşahidə | Gündəlik müşahidə |

Bu qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə qeyd olunmur, yazılı qeydlər sinif və şagird portfoliosunda saxlanılır, nəticələr barədə valideynlər, sinif rəh-

Çap üçün deyil

bəri və digər fənn müəllimləri məlumatlandırılır. Diaqnostik qiymətləndirmə həm də şəraitə görə təlim məqsədləri və strategiyalarında çevik dəyişikliklər aparılmasına imkan yaradır.

Formativ qiymətləndirmə zamanı qəbul edilmiş standartların reallaşmasına istiqamətlənən irəliləyişlərin monitorinqi sinifdə hər bir şagirdin inkişafının hərəkətverici amilinə, təlimin həlledici komponentinə çevrilir. Müəllim belə monitorinq vasitəsilə tədris prosesini tənzimləyir, bütün şagirdlərin irəliləyişlərini təmin edir, eyni zamanda uğur qazana bilməyən şagirdlərin ehtiyaclarını öyrənərək, onlara əlavə köməklik göstərir. Bu qiymətləndirmə fənni tədris edən müəllim tərəfindən məzmun standartlarından irəli gələn təlim məqsədləri əsasında hazırlanmış meyarlar üzrə dərs ili ərzində müntəzəm olaraq aparılır.

Bir məzmun standartı dərslikdəki bir neçə mövzuda reallaşdığına görə həmin standartlardan çıxan qiymətləndirmə meyarları növbəti müvafiq dərslərdə də istifadə edilir. Müəllim qiymətləndirmə meyarları uyğun 4 səviyyəli rubriklər (I–IV səviyyə) hazırlayır. Zəruri hallarda rubriklər 3 və ya 5 səviyyədə tərtib oluna bilər. Sizə təqdim olunan nümunələrdə 3 və ya 4 səviyyəli rubriklərdən istifadə olunmuşdur.

Məsələn: alt-standart: 5.1.2. Elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir.

***Qiymətləndirmə meyarları:***
***1. Müəyyənetmə***

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah etməkdə çətinlik çəkir. | Elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edərkən köməkdən istifadə edir. | Elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir, lakin bəzi faktlarda səhv edir. | Elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini asanlıqla izah edir. |

Formativ qiymətləndirmənin aparılması üçün aşağıdakı üsul və vasitələrdən istifadə edə bilərsiniz:

Çap üçün deyil

| Üsullar | Vasitələr |
|---|---|
| Müşahidə | Müşahidə vərəqləri |
| Şifahi sual-cavab | Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi |
| Tapşırıqvermə | Çalışmalar |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli |
| Rubrik | Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası |
| Şifahi və yazılı təqdimat | Meyar cədvəli |
| Test | Test tapşırıqları |
| Özünüqiymətləndirmə | Özünüqiymətləndirmə vərəqləri |

## Özünüqiymətləndirmə

Bu qiymətləndirmə fərdi qiymətləndirmədir. Dərsin sonunda hər bir şagird öz fəaliyyətini bu cədvələ əsasən qiymətləndirə bilər.

| Tapşırığı tam və düzgün yerinə yetirdim | Dərsdə diqqətli idim | Məntiqli yanaşmam var idi | Sual-cavabda aktiv idim | Əməkdaşlıq etdim | Etiket qaydalarına riayət etdim |
|---|---|---|---|---|---|
| | | | | | |

## Cütlərlə iş zamanı qiymətləndirmə

Bu qiymətləndirmədən cütlərlə iş zamanı istifadə etmək olar. Dərsin sonunda cütlərə aşağıda göstərilən cədvəl paylanılır. Bu cədvəldən istifadə etməklə hər bir şagird həm özünün, həm də yoldaşının fəaliyyətini qiymətləndirə bilər.

| Cütlərdə işləyən şagirdlərin adı | Fəallıq səviyyəsi (zəif, orta, yüksək) | Əməkdaşlıqetmə | Qaydalara əməl olunması | Tapşırığın icrası zamanı müzakirəetmə | Ümumi rəyəgəlmə |
|---|---|---|---|---|---|
| Nigar | | | | | |
| Fateh | | | | | |

Çap üçün deyil

## Qrup işlərinin qiymətləndirilməsi

Qruplarla işin qiymətləndirilməsi üçün meyar cədvəli hazırlanır. Qrupların fəaliyyətini aşağıdakı meyarlara əsasən qiymətləndirmək olar.

| Qruplar / Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Tapşırığı düzgün yerinəyetirmə | | | | |
| Tərtibat | | | | |
| Təqdimetmə | | | | |
| Əməkdaşlıq | | | | |

Aşağıda verilmiş dərs nümunəsi əsasında dərsin planlaşdırılması reallaşdırılmış, məqsədəmüvafiq olaraq meyar müəyyən edilmişdir. Meyarla yanaşı, şagirdlərin bilik və bacarıqlarının səviyyəsi də hazırlanmışdır.

İlkin səviyyənin qiymətləndirilməsi ilə oxşar xüsusiyyətləri olan yekun (summativ) qiymətləndirmə standart və ya standartlar qrupunda müəyyən edilmiş məqsədlərə şagirdlərin hansı səviyyədə nail olduqlarını aydınlaşdırır. Yekun (summativ) qiymətləndirmə aşağıdakı suallara cavab verir:

– Şagird materialı mənimsəyə bilirmi?
– Bildiklərini tətbiq edə bilirmi?
– Daha irəli getmək üçün lazımi səviyyədədirmi?

Yekun (summativ) qiymətləndirmə standartların mənimsənilməsi istiqamətində şagirdlərin əldə etdiyi irəliləyişləri dəyərləndirir. Bu qiymətləndirmə növü mövzunun, bəhs və bölmənin, yaxud da tədris ilinin sonunda eyni qaydada həyata keçirilir. Yekun (summativ) qiymətləndirmənin ən mühüm cəhəti şagirdlərin mənimsədiklərini tətbiqetmə qabiliyyətinə nə dərəcədə malik olduqlarını aşkara çıxarmaqdır.

Summativ qiymətləndirmənin nəticələri rəsmidir və keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur. Summativ qiymətləndirmənin aparılması üçün yalnız test üsuluna üstünlük verməməli, aşağıdakı üsul və vasitələrdən də istifadə olunmalıdır:

***Summativ qiymətləndirmədə istifadə olunan üsul və vasitələr:***

| Üsullar | Vasitələr |
|---|---|
| Yoxlama yazı işləri | Yoxlama yazı işləri üzrə qeydiyyat vərəqi |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən edilmiş meyar cədvəli |
| Şifahi sorğu | Şifahi sorğu üzrə qeydiyyat vərəqi |
| Test | Test tapşırıqları |
| Tapşırıqvermə | Tapşırıq, çalışma və laboratoriya işləri |
| Yaradıcılıq | Rəsm, esse, təqdimat və s. |

Çap üçün deyil

Kiçik summativ qiymətləndirmənin keçirildiyi gün dərsdə iştirak etməyən şagirdin sinif jurnalında adının qarşısındakı xananı diaqonalla 2 yerə ayırmalı və onun surətində «q» (qaib) yazıb, məxrəci isə boş saxlamalısınız. Növbəti 2 həftə ərzində kiçik summativ qiymətləndirmə aparılmalı və nəticəsi məxrəcdə qeyd edilməlidir.

***Summativ qiymətləndirmədə iştirak etməyən*** şagirdlər üçün yeni, lakin sinif üçün istifadə olunan tapşırıqlarla eyni səviyyəli qiymətləndirmə vasitələri hazırlanır.

Summativ və formativ qiymətləndirmə sualların qoyuluşu baxımından obyektiv və subyektiv ola bilər.

- Obyektiv – sualın bir düzgün cavabı olur (doğru-səhv cavab, çoxseçimli cavabları cüt-cüt seçib götürmək və s.).
- Subyektiv – birdən artıq düz cavab və ya cavabı ifadə etmək yolu ola bilər. Bura geniş cavablı suallar və esse daxildir.

Alternativ qiymətləndirmə üsulları formal və qeyri-formal qiymətləndirmə zamanı istifadə olunur:

- Müşahidə qeydləri;
- Müzakirə;
- İntervü və sorğu;
- Kriteriyalar üzrə qiymətləndirmə;
- Davranışın qiymətləndirilməsi;
- Mühitin qiymətləndirilməsi;
- Yoxlama siyahıları;
- Şagirdin şərhi, rəy söyləməsi;
- Məqalə, gündəlik yazmaq;
- Ünsiyyət (danışıq, sual-cavab);
- Şagirdin qeydləri;
- Araşdırma;
- Portfolio;
- Yekunlaşdırma;
- Yazının inkişafı haqqında xülasə;
- Danışma, dinləmə, nəzərdən keçirmə haqqında xülasə;
- Ardıcıl qeydlər etmə;
- Səviyyəni göstərən qeydlər;
- Konfranslar, məsləhətləşmələr;
- Rubriklər

Qiymətləndirmə standartları 4 səviyyədə müəyyən olunur:

1) aşağı;
2) orta;
3) yüksək;
4) ən yüksək

Çap üçün deyil

Qiymətləndirmə vasitələri hazırlanarkən aşağıdakılar nəzərə alınır, suallar çətinlik səviyyəsinə görə aşağıdakı kimi hazırlanır:

1 – səviyyəsi üzrə suallar – 20%
2 – səviyyəsi üzrə suallar – 30%
3 – səviyyəsi üzrə suallar – 30%
4 – səviyyəsi üzrə suallar – 20%

Şagirdin yarımillik qiyməti kiçik summativ (yarımillik ərzində keçirilən) qiymətləndirmənin nəticələri 40%, böyük summativ (yarımillik sonunda keçirilən) qiymətləndirmənin nəticələri 60 % hesab olunmaqla aşağıdakı düstur əsasında çıxarılır:

$$Y \equiv \frac{ksq_1 + ksq_2 + ... + ksq_n}{n} \cdot \frac{40}{100} + BSQ \cdot \frac{60}{100}$$

Burada, Y– şagirdin I və ya II yarımil üzrə qiymətini; $ksq^1$, $ksq^2$ ,..., $ksq_n$ – şagirdin müvafiq yarımil ərzində kiçik summativ qiymətləndirmələrinin nəticələrini; n – müvafiq yarımildə keçirilən kiçik summativ qiymətləndirmələrin sayını; BSQ isə I və II yarımildə keçirilən böyük summativ qiymətləndirmənin nəticəsini bildirir.

İllik qiymət isə aşağıdakı düsturla müəyyən edilməlidir:

$$\dot{I} = \frac{Y_1 + Y_2}{2}$$

Növündən asılı olmayaraq, bütün qiymətləndirmələr zamanı yerinə yetirilməli olan zəruri mərhələlər mövcuddur. Bu mərhələlərə aşağıdakıları misal göstərmək olar:
– qiymətləndirmənin məqsədinin müəyyənləşdirilməsi;
– qiymətləndirmənin məzmununun (test planı) hazırlanması;
– qiymətləndirmə vasitələrinin və cavab kartının hazırlanması;
– tapşırıqların hazırlanması;
– imtahanın keçirilməsi;
– imtahan nəticələrinin təhlili.

Təlim prosesində aparılan qiymətləndirmənin məqsədi yalnız qiymət vermək olmamalıdır. Məqsədlərdən biri təlimin keyfiyyətinin yüksəldilməsini təmin etmək üçün öyrədənlə öyrənən arasında qarşılıqlı əlaqəni təmin etməkdir.

***Qiymətləndirmənin məqsədləri:***
– məzmun və idraki bacarıqlar baxımından şagirdlərin zəif və güclü tərəflərini müəyyənləşdirmək;
– şagirdlərin nəyi və hansı dərəcədə öyrənib-öyrənmədiyini aşkar etmək;
– istifadə olunan metod, üsul və resursların səmərəliliyini nəzərdən keçirməkdir.



Çap üçün deyil

Qiymətləndirmələrin ən mühüm məqsədi təhsil və təlimin keyfiyyətinin yüksəldilməsi olmalıdır.

Qiymətləndirmə standartı:

– müəyyən mərhələdə təhsil alanların nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir;
– təhsilin müəyyən mərhələsində təyin olunmuş səviyyələr üzrə şagirdin yiyələnməli olduğu bilik, bacarıq və dəyərlərin kəmiyyət və keyfiyyət göstəricisidir;
– məzmun standartlarının hansı səviyyədə reallaşdığını yoxlamaq üçün istifadə edilir;
– şagirdlərin inkişafındakı dəyişikliklərin dərəcəsini müəyyən etməyə xidmət edir;
– məzmun standartının tərkibinin kəmiyyət və keyfiyyət göstəriciləri ilə tamamlanaraq 4 çətinlik səviyyəsi üzrə diferensiallaşmasıdır;
– birbaşa fəaliyyətin qiymətləndirilməsinə yönəlir və təlim prosesində meyarlara əsaslanan qiymətləndirməni şərtləndirir.

Çap üçün deyil

# TEMATİK PLANLAŞDIRMA

*Hörmətli müəllimlər!*

Seçdiyiniz standartlardan və strategiyanızdan asılı olaraq inteqrasiya imkanlarını müəyyən etməkdə MMV-nin əvvəlində təqdim edilən fənlərarası inteqrasiya cədvəli köməyinizə çatacaqdır. Resursların seçilməsində sərbəstsiniz. Mövzuya və standarta uyğun məqsədinizi reallaşdırarkən müxtəlif resurslardan istifadə edə bilərsiniz.

Vəsaitdə qiymətləndirmə ilə bağlı verilən tövsiyəyə əsasən kiçik və böyük summativ qiymətləndirmələrin vaxtını özünüz müəyyən edə bilərsiniz.

| Mövzular | | Məzmun standartları | Saat |
|---|---|---|---|
| **Diaqnostik qiymətləndirmə** | | | **1** |
| **TƏDRİS VAHİDİ: XVII–XVIII ƏSRLƏRDƏ ŞƏRQDƏ NƏLƏR BAŞ VERDİ?** | | | |
| 1-ci mövzu | Azərbaycan Səfəvi imperiyası yeni dövrün astanasında | 1.1.3., 2.1.2. | 1 |
| 2-ci mövzu | Nadir şah Əfşar imperiyası | 3.1.1., 4.1.1. | 1 |
| 3-cü mövzu | Qacarlar imperiyasının yaranması | 1.1.1., 3.1.1., 4.1.2. | 1 |
| **KSQ** | | | 1 |
| 4-cü mövzu | Böyük Moğol imperiyasının parçalanması | 1.1.1., 1.1.3, 3.1.1. | 1 |
| 5-ci mövzu | «Qapalı ölkə» | 1.1.2., 3.1.1. | 1 |
| 6-cı mövzu | «Gündoğan ölkə» | 1.1.3., 2.1.2. | 1 |
| 7-ci mövzu | Şərq xalqlarının mədəniyyəti | 4.1.2., 5.1.1., 5.1.3. | 1 |
| **KSQ** | | | 1 |
| **TƏDRİS VAHİDİ: TÜRK DÜNYASI VƏ QAFQAZ XALQLARI XVII–XVIII ƏSRLƏRDƏ** | | | |
| **Osmanlı imperiyası – tənəzzülün başlanması** | | | |
| 8-ci mövzu | **I.** Yeni dövrə köhnə qaydalarla daxil olan imperiya | 1.1.1., 3.1.1., 4.1.1., 5.1.2. | 1 |
| | **II.** Osmanlı dövlətinin beynəlxalq nüfuzunun zəifləməsi | 1.1.3., 2.1.2. | 1 |
| | **III.** Avropa dövlətlərinin Osmanlı imperiyasını bölüşdürmək planları | 1.1.2., 4.1.1. | 1 |

Çap üçün deyil

| Mövzular | | Məzmun standartları | Saat |
|---|---|---|---|
| **Qafqaz XVII–XVIII əsrlərdə** | | | |
| 9-cu mövzu | Mərkəzi Asiya xanlıqları | 3.1.1., 4.1.2. | 1 |
| 10-cu mövzu | Volqaboyu, Ural və Sibir türkləri | 2.1.2., 3.1.1. | 1 |
| **KSQ** | | | 1 |
| **BSQ** | | | 1 |
| 11-ci mövzu | **I.** Şimali Qafqaz yeni dövrün astanasında | 3.1.1. | 1 |
| | **II.** Cənubi Qafqaz məkrli planların hədəfində | 2.1.2., 3.1.1., 4.1.1. | 1 |
| 12-ci mövzu | Türk və Qafqaz xalqlarının mədəniyyəti | 5.1.1., 5.1.2. | 1 |
| **TƏDRİS VAHİDİ: AVROPA VƏ AMERİKA** | | | |
| **«Dumanlı Albion» – duman dağılır** | | | |
| 13-cü mövzu | **I.** Parlament, yoxsa kral? | 2.1.1., 3.1.1., 4.1.1. | 1 |
| | **II.** Böyük Britaniya krallığı necə yarandı? | 2.1.1., 3.1.1. | 1 |
| | **III.** Dünyanın ilk sənaye dövləti | 4.1.2., 5.1.2. | 1 |
| **KSQ** | | | 1 |
| **Şimali Amerikada «Yeni İngiltərə»** | | | |
| 14-cü mövzu | **I.** Şimali Amerikada yeni həyat | 1.1.3., 2.1.2. | 1 |
| | **II.** Amerika Birləşmiş Ştatlarının yaranması | 3.1.1., 3.1.2., 4.1.1. | 1 |
| **«Daxmalara sülh – saraylara müharibə»** | | | |
| 15-ci mövzu | **I.** Fransa inqilabının müjdəçiləri | 4.1.2. | 1 |
| | **II.** Jirondistlər və Yakobinçilər | 2.1.1., 3.1.2. | 1 |
| | **III.** Termidorçular və Napoleon Bonapart | 2.1.1., 3.1.2., 4.1.2. | 1 |
| **KSQ** | | | 1 |
| **Rusiya imperiyası yeni dövrün astanasında** | | | |
| 16-cı mövzu | **I.** Rusiyanın ilk imperatoru | 3.1.1., 4.1.1. | 1 |
| | **II.** İsti dənizlərə çıxmaq uğrunda mübarizə | 1.1.2., 2.1.2., 4.1.1. | 1 |
| 17-ci mövzu | Avropa və Amerika mədəniyyəti | 5.1.1., 5.1.2., 5.1.3. | 1 |
| **BSQ** | | | 1 |

Çap üçün deyil

# MÖVZULARIN REALLAŞDIRILMASI ÜÇÜN METODİK TÖVSİYƏLƏR

Sizə təqdim olunan mövzuların şərhi tövsiyə xarakterlidir. Mövzuların tədrisi zamanı sərbəstsiniz. İstədiyiniz standartı seçməklə şagirdlərdə bilik və bacarıqların formalaşmasına istiqamət yaradın. İnteqrasiya imkanlarını MMV-nin əvvəlində verilmiş fənlərarası inteqrasiya cədvəlində öz əksini tapmış alt-standartlarla reallaşdıra bilərsiniz. Həmçinin strategiyaya uyğun resursların seçimi sizin öz əlinizdədir.

## XVII–XVIII ƏSRLƏRDƏ ŞƏRQDƏ NƏLƏR BAŞ VERDİ?

### 1. AZƏRBAYCAN SƏFƏVİ İMPERİYASI YENİ DÖVRÜN ASTANASINDA

***Məzmun standartı:***

1.1.3. Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.
2.1.2. Dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.

***Təlim məqsədi:***

1. Azərbaycan Səfəvi dövlətində baş vermiş hadisələrin səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.
2. Azərbaycan Səfəvi dövlətinin həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.

***Təlim forması:***

Fərdi və qruplarla iş

***Təlim üsulu:***

Beyin həmləsi, müzakirə

Çap üçün deyil

Dövrün tarixi faktlarını araşdırmaq, səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək, xronoloji cədvəllər tərtib etmək, kontur xəritə üzərində işləmə bacarığını şagirdlərdə bilik və bacarığa çevirmək üçün müəllimin düzgün strategiya seçimi olmalıdır. Mövzunun tədrisi zamanı köhnə dərslə əlaqə yaratmaq, bilik və bacarıqları sistemli şəkildə üzə çıxarmaq üçün düzgün yönləndirici suallar vermək gərəkdir. A blokunda verilmiş motivasiya şagirdlərin fəallaşmasına yardım edir. Beyin həmləsi üsulunu tətbiq etməklə uğurlu motivasiya yaratmağa nail ola bilərsiniz. Azərbaycan Səfəvi imperiyasının tarixdəki rolu haqqında məlumatlı olan şagirdlər bu dövrdən sonrakı hadisələri C blokundakı «Səfəvi dövlətinin öz qüdrətini bərpa etməsi ilə ətraf ölkələrin həyatında hansı dəyişikliklər baş verdi?» sualına cavab tapmaqla öyrənirlər.

Tədqiqata keçməmişdən öncə fasiləli oxu üsulundan istifadə edərək şagirdləri mətnlə tanış edin. Bu zaman B blokunda öz əksini tapan mətnin hissələrini şagirdlər növbə ilə oxusunlar. Sual və tapşırıqları məqamında şagirdlərin müzakirəsinə versəniz, daha səmərəli olar. Aydın olmayan hissələr üzərində dayanmaqla müzakirələr aparmaq tövsiyə olunur. D blokunda olan xəritəni şagirdlərin nəzərinə çatdıraraq onların dövr haqqında təsəvvürlərini formalaşdıra bilərsiniz. Şagirdlərin xəritə üzərində işə cəlb olunması onlarda Səfəvilər haqqında geniş təsəvvürlərin formalaşmasına şərait yaradacaqdır. D blokundakı şəkil və illüstrasiyalar dərsin mənimsənilməsi üçün əyani köməkdir.

Fasiləli oxu bitdikdən sonra tədqiqat işini təşkil edin. Tədqiqat sualı «Bu dövrdə Azərbaycan Səfəvi dövlətinin həyatında hansı dəyişikliklər baş verdi?» ola bilər.

Bu zaman şagirdlərə iş vərəqləri paylayın. İş vərəqləri hazırlayarkən C blokundakı tapşırıqlardan istifadə edə bilərsiniz. Venn diaqramı vasitəsilə I Şah Abbasın dövrü və ondan sonrakı Səfəvi dövlətinin vəziyyətini müqayisə etmək şagirdlərdə tənqidi təfəkkürün formalaşmasına yardım edəcəkdir. Tədqiqatın aparılması üçün tapşırıqlar verərkən sinifdəki şagirdlərin bilik və bacarıqlarını nəzərə alın. Həmçinin qrupların iş bölgüsü bərabər bölünməli, şagirdlərin verilən vaxt müddətində tapşırığı yerinə yetirməsi bacarığı nəzərə alınmalıdır.

C blokuna daxil olan tapşırıqları qruplara vermək dərsliklə işin səmərəli təşkilinə kömək etmiş olar.

**I qrup:** Azərbaycan Səfəvi dövlətinin zəifləməsi və süqut etməsinin səbəblərini aydınlaşdırın.

**II qrup:** XVII əsrin ortalarında Azərbaycan Səfəvi dövlətində iqtisadiyyatın canlanmasına təsir edən amilləri göstərin.

**III qrup:** Dövlət başçısı olmaq üçün idarəetmə təcrübəsinə yiyələnməyin vacib olduğunu sübut edin.

**IV qrup:** Azərbaycan Səfəvi dövlətində baş vermiş hadisələrin səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edin.

Çap üçün deyil

**V qrup:** Azərbaycan Səfəvi dövlətinin həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürün.

Tədqiqat işi başa çatdıqdan, mübadilə və müzakirə mərhələsindən sonra şagirdlərin gəldiyi nəticələri şaxələndirmə şəklində verə bilərsiniz.

Öncədən hazırladığınız kontur xəritəni şagirdlərə fərdi olaraq paylayıb onlara mətndəki məlumatlar əsasında tapşırıq verin. «Verilmiş kontur xəritəni Səfəvi dövləti haqqındakı məlumatlar əsasında doldurun» tapşırığını verə bilərsiniz. Yaxud da xronoloji cədvəl tərtib etməyi tapşıra bilərsiniz.

Ev tapşırığı C blokundakı 8-ci tapşırıq, yəni «Səfəvi dövlətinin zəifləməsinin səbəbini təhlil edərək esse yazın» ola bilər.

**Qiymətləndirmə meyarları:** *tərtibetmə, xəritəköçürmə.*

| I | II | III | IV |
|---|---|---|---|
| Xronoloji cədvəllər tərtib etməkdə çətinlik çəkir. | Xronoloji cədvəllər tərtib edərkən müəllimin köməyindən istifadə edir. | Xronoloji cədvəlləri tərtib edir. | Xronoloji cədvəlləri asanlıqla tərtib edir. |
| Məlumatları kontur xəritələrə köçürməkdə çətinlik çəkir. | Məlumatları kontur xəritələrə köçürərkən müəllimin köməyindən istifadə edir. | Məlumatları kontur xəritələrə köçürür. | Məlumatları asanlıqla kontur xəritələrə köçürür. |

Çap üçün deyil

## 2. NADİR ŞAH ƏFŞAR İMPERİYASI

***Məzmun standartı:***

3.1.1. Dövlətlərin yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.
4.1.1. Tarixi şəxsiyyətləri müqayisə edir.

***Təlim məqsədi:***

1. Nadir şah Əfşar imperiyasının yaranmasını, idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.
2. Nadir şahı Azərbaycan dövlətçiliyində mühüm rol oynamış şəxsiyyətlərlə müqayisə edir.

***Təlim forması:***

Kollektivlə və cütlərlə iş

***Təlim üsulu:***

İNSERT, Venn, müzakirə

Bu mövzunu başlayarkən şagirdlərin diqqətini A blokundakı motivasiya olan hissəyə çəkmək olar. Yaxud da Nadir şah haqqında elektron vəsait hazırlayaraq şagirdlərə təqdim etmək olar. Şagirdlərə hazırladığınız yönləndirici sualları verməklə onların fərziyyələrini almağa çalışın. Onların verdiyi cavabları lövhədə qeyd edin. Fərziyyələrin dinlənilməsindən sonra şagirdlərə C blokundakı «Əfşar imperiyasının yaranması Yaxın Şərqin tarixində hansı izləri qoydu?» sualını verin. Şagirdlərin bir neçə fərziyyəsi dinlənildikdən sonra bu dövr haqqında ətraflı məlumat almaq üçün mətnlə tanışlıq mərhələsini təşkil edin. Bunun üçün siz, mətndən bir hissəni özünüz oxuya bilərsiniz. Oxu işini davam etdirmək üçün şagirdlərə müraciət edin. Mətni oxuyarkən müzakirələr aparmağı unutmayın. İNSERT üsulunun tətbiqi təlimin səmərəli təşkili üçün kömək olacaqdır. Bu zaman müzakirələr C blokundakı suallar əsasında aparıla bilər. Situasiyadan asılı olaraq sualları başqa suallarla da əvəz edə bilərsiniz. Ola bilər ki, verilmiş suallar onlara çətin gələ bilər. Ona görə də bələdçilik edib şagirdlərə istiqamət verməlisiniz. E blokunda öz əksini tapmış şəkil və illüstrasiya üzərində işi təşkil edin.

Tədqiqatın aparılması üçün tədqiqat sualı «Nadir şah Əfşarın tarixdəki rolu nədən ibarətdir?» ola bilər. Bu mövzunun araşdırılmasında təqdimatlar üsulunu tətbiq etmək olar. Bunun üçün sinfi cütlərə bölmək lazımdır. Tədqiqatın aparılması üçün C blokundakı tapşırıqlardan istifadə edə bilərsiniz.

Çap üçün deyil

**I cüt:** Nadir şahın həyata keçirdiyi islahatlarda məqsəd nə idi? Təhlil edin.
**II cüt:** Nadir şahı şəxsiyyət kimi qiymətləndirin.
**III cüt**: Nadir şahın dövrün ən məşhur fatehlərindən biri olduğunu sübut edin.
**IV cüt:** Nadir şahı Şah I Abbasla müqayisə edin.
**V cüt:** Moğol imperiyası ilə bağlanmış sülhün şərtlərinə nələr daxil idi? Sülhün şərtlərini təhlil edin.
**VI cüt:** Muğan qurultayı haqqında məlumat yazın.
**VII cüt:** Nadir şahın dövründə ölkədəki iqtisadi vəziyyəti izah edin.
Onlara təqdimat hazırlamaq üçün müəyyən vaxt verin.

Cütlərin işi hazırlandıqdan sonra təqdimatların həyata keçirilməsi mərhələsinə başlaya bilərsiniz. Təqdimatlar dinlənildikdən sonra müzakirəni təşkil edin. Unutmayın ki, müzakirədə şagirdlərin iştirakı vacibdir.

Nəticələrin çıxarılması zamanı şagirdlər qarşıya qoyduğunuz məqsədə uyğun «Nadir şah Əfşar imperiyasının yaranmasını, idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir», «Nadir şahı Azərbaycan dövlətçiliyində mühüm rol oynamış şəxsiyyətlərlə müqayisə edir».

Ev tapşırığı «Mövzu ilə bağlı əlavə məlumatlar toplayıb təqdimat hazırlayın» ola bilər.

Qiymətləndirmənin aparılması dərsin hər mərhələsində vacibdir. Bu baxımdan cütlərin qiymətləndirmə meyarlarını hazırlamağı unutmayın. Onu divardan asın. Hər bir cütün işi qiymətləndirilməlidir. Bu qiymətləndirməni şagirdlərlə birgə aparmağınız tövsiyə olunur.

Şagirdlərinizin dərs boyunca göstərdikləri fəaliyyətlərini meyara uyğun qiymətləndirərək məktəbli kitabçasına qeyd etməyi unutmayın.

***Qiymətləndirmə meyarları:*** *təhliletmə, müqayisəetmə*

| I | II | III |
|---|---|---|
| Nadir şah Əfşar imperiyasının idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil etməkdə çətinlik çəkir. | Nadir şah Əfşar imperiyasının yaranmasını, idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edərkən köməkdən istifadə edir. | Nadir şah Əfşar imperiyasının yaranmasını, idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini sərbəst təhlil edir. |
| Nadir şahı Azərbaycan dövlətçiliyində mühüm rol oynamış şəxsiyyətlərlə müqayisə etməkdə çətinlik çəkir. | Nadir şahı Azərbaycan dövlətçiliyində mühüm rol oynamış şəxsiyyətlərlə müqayisə edərkən köməkdən istifadə edir. | Nadir şahı Azərbaycan dövlətçiliyində mühüm rol oynamış şəxsiyyətlərlə sərbəst müqayisə edir. |

Çap üçün deyil

## 3. QACARLAR İMPERİYASININ YARANMASI

***Məzmun standartı:***

1.1.1. Oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah edir.
3.1.1. Dövlətlərin yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.
4.1.2. Tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.

***Təlim məqsədi:***

1. Qacar imperiyasının yaranmasına oxşar faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah edir.
2. Qacar imperiyasının yaranmasını təhlil edir.
3. Ağa Məhəmməd şah Qacarla Nadir şah Əfşarın oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.

***Təlim forması:***

Fərdi və qruplarla iş

***Təlim üsulu:***

Venn, ziqzaq, mühazirə

Bu dərsin tədrisi üçün A blokundakı hissə motivasiya mərhələsi üçün istifadə oluna bilər. Şagirdlərin köhnə dərslərlə əlaqəsini təmin etmək üçün onlara suallar verin. Azərbaycanın o dövrdəki vəziyyətini yada salmaq üçün açar sözlərdən istifadə edə bilərsiniz. Bu sözlər şagirdlərin köməyinə çatmış ola bilər. Şagirdləri A blokunun sonunda verilmiş sualın müzakirəsinə cəlb edin. Siz bu mövzunun tədrisində mühazirə üsulundan da istifadə edə bilərsiniz. Qacar və onun yaratdığı imperiya haqqında məlumat verməklə şagirdlərə C blokundakı sualları verin.

Tədqiqatın aparılması üçün «Ağa Məhəmməd şah Qacarın tarixdəki rolu və yeri nədən ibarət olmuşdur?» sualını lövhədə qeyd edin. Şagirdlərin bu suala cavab tapması üçün tədqiqatın aparılması lazımdır. Tədqiqat ziqzaq üsulu ilə həyat keçirilə bilər. B blokuna aid olan yeni məlumatları ziqzaq üsulunun qaydalarına uyğun şagirdlər arasında bölüşdürün. Tədqiqatın aparılmasında C blokundakı tapşırıqlardan da istifadə edə bilərsiniz. Bölünmüş qruplara aşağıdakı işləri vermək olar.

**I qrup:** Avropa dövlətlərinin Qacar imperiyası ilə bağlı planları nədən ibarət idi? Təhlil edin.

Çap üçün deyil

**II qrup:** Ağa Məhəmməd şah Qacarın Azərbaycan torpaqlarını tutması planının baş tutması səbəblərini müəyyənləşdirin.

**III qrup:** Qacar imperiyasının yaranmasını təhlil edin.

**IV qrup:** Kərim xan Zənd hakimiyyəti möhkəmləndirmək məqsədilə hansı tədbirlər görmüşdü? İzah edin.

E blokundakı şəkil və illüstrasiyalardan şagirdlərin öyrənmə tərzinə yardımçı vasitə kimi istifadə edin.

Hazırlanmış cavablar qrup liderləri tərəfindən təqdim olunur. Təqdim olunmuş cavablar müzakirə olunmalı, səhvlər müəyyən edilməli, düzəlişlər edilməklə yekunlaşmalıdır.

Bütün hallarda şagirdin bilik və bacarıqlarını üzə çıxarmaq üçün düzgün yönləndirici suallardan istifadə etməniz zəruridir. Bəzən səhv qoyulmuş sual şagirdin səhv nəticəyə, yaxud da tapşırığın icrasını səhv istiqamətə aparıb çıxarmasına səbəb ola bilər. Əgər sizin dərs keçdiyiniz məktəbdə sinif otağında İKT resurs təminatınız varsa, siz bu dərsi fərqli də qura bilərsiniz. Tədqiqatın aparılması internet materiallarının toplanılması vasitəsilə də həyata keçirilə bilər. İşin araşdırılmasında şagirdlərə axtarış sistemləri ən yaxın köməkçi ola bilər. Təbii ki, bütün qeyd olunanlar tövsiyədir.

Fərdi iş kimi «Ağa Məhəmməd şah Qacarla Nadir şah Əfşarın oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayın» tapşırmaq da olar.

Ev tapşırığı «Qacar haqqında təqdimat hazırla» ola bilər.

Qiymətləndirmə məqsədə uyğun meyar əsasında reallaşdırılır.

**Qiymətləndirmə meyarları:** *izahetmə, təhliletmə, cədvəlhazırlama*

| I | II | III |
|---|---|---|
| Qacar imperiyasının yaranmasına oxşar faktları izah edərkən ciddi səhvlərə yol verir. | Qacar imperiyasının yaranmasına oxşar faktları izah edərkən bəzi səhvlərə yol verir. | Qacar imperiyasının yaranmasına oxşar faktları sərbəst izah edir. |
| Qacar imperiyasının yaranmasını təhlil edərkən ciddi səhvlərə yol verir. | Qacar imperiyasının yaranmasını təhlil edərkən bəzi səhvlərə yol verir. | Qacar imperiyasının yaranmasını sərbəst təhlil edir. |
| Ağa Məhəmməd şah Qacarla Nadir şah Əfşarın oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayarkən ciddi səhvlər edir. | Ağa Məhəmməd şah Qacarla Nadir şah Əfşarın oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayarkən bəzi səhvlər edir. | Ağa Məhəmməd şah Qacarla Nadir şah Əfşarın oxşar və fərqli cəhətləri ilə bağlı müstəqil cədvəl hazırlayır. |

Çap üçün deyil

## 4. BÖYÜK MOĞOL İMPERİYASININ PARÇALANMASI

***Məzmun standartı:***

1.1.1. Oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah edir.
1.1.3. Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.

***Təlim məqsədi:***

1. Hindistanda baş vermiş prosesləri oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah edir.
2. Hindistanda baş vermiş hadisələrin səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.

***Təlim forması:***

Kollektiv iş, qrup işi

***Təlim üsulu:***

Fasiləli oxu, müzakirələr xəritəsi

Dərslikdə verilmiş A bloku kimi nəzərdə tutulmuş hissə motivasiya yaratmaq üçün sizə kömək ola bilər. Bu mövzunun tədrisi zamanı öncədən hazırladığınız slayd və ya şəkillər sinifdə Hindistan haqqında təsəvvürlərin yaranmasına, şagirdlərin fəallaşmasına, onların hansı ölkə haqqında araşdırma aparacağına ilkin zəminin yaradılması üçün köməkçi olacaqdır.

Əgər dərslikdə verilmiş mövzunun A bloku ilə dərsin motivasiyasını qurarsınızsa, C blokuna aid olan sualı, yəni «İngilislərin Hindistana marağı bu ölkənin tarixi taleyinə necə təsir göstərdi?» sualını verə bilərsiniz.

Mətnlə tanışlıq və araşdırma aparmaq üçün daha səmərəli üsul kimi fasiləli oxu üsulunu seçmək olar. B blokuna aid hissələri şagirdlərə oxudun. Fasilə oxu üsulu zamanı mütləq dərslikdə verilmiş, hər hissənin təhlilinə şərait yaradan C blokuna aid sualların müzakirəsini təşkil edin.

Tədqiqat diskussiya şəklində aparılır. Lakin tədqiqatın aparılması üçün mütləq tədqiqat sualını elan etməniz, lövhədə yazmanız, yaxud da elektron

Çap üçün deyil

imkanlara maliksinizsə proyektor vasitəsilə tədqiqat sualını göstərməniz lazımdır. Bütün iş tədqiqat sualına xidmət etməlidir. Tədqiqat sualı «Böyük Moğol imperiyasının parçalanmasından sonra Hindistanın tarixdəki rolu nədən ibarət olmuşdur? ola bilər.

Şagirdlər Hindistan ərazisində müstəqil dövlətlərin yaranması amillərini, Moğol imperiyasının Hindistanın həyatındakı rolunu müəyyənləşdirməlidirlər. Siz D blokundakı xəritədən istifadə etməklə Hindistan ərazisində yaranmış imperiyanın əhatə etdiyi məkanı müəyyən etməkdə şagirdlərə kömək edə bilərsiniz. C blokundan istifadə etməklə Nadir şahın Hindistana hücumunu təhlil edə bilərsiniz. Sizin işinizin köməkçi vasitəsi əyanilikdir. Ona görə də diqqəti E blokuna aid olan şəkil və illüstrasiyalara yönəldin. C blokunda müəyyən tapşırıqlar sizə qruplara iş vermək üçün səmərəli vasitədir. Çalışın ki, şagirdlərə məntiqi, tənqidi və yaradıcı təfəkkürə aid tapşırıqlar verəsiz ki, şagird təfəkkürünün inkişafına imkan olsun.

**I qrup:** Böyük Moğol imperiyası nə üçün tənəzzül etdi? İzah edin.

**II qrup:** İngilislərin Hindistanda möhkəmlənməsinə şərait yaradan amilləri müəyyənləşdirin. Səbəb-nəticə əlaqələrini göstərin.

**III qrup:** Panipat vuruşmasının başlıca siyasi nəticəsi nə oldu? Təhlil edin.

**IV qrup:** Böyük Moğol imperiyasının zəifləməsini dövrün hadisələri ilə əlaqələndirərək cədvəl tərtib edin.

**V qrup:** Hindistan haqqında xronoloji cədvəl tərtib edərək baş vermiş hadisələri təhlil edin.

**VI qrup:** Böyük Moğol imperiyasını Nadir imperiyası ilə müqayisə edib onların fərqli cəhətlərini müəyyənləşdirin.

**Qeyd:** Bu dövlətlərin oxşar və fərqli tərəflərini Venn diaqramı vasitəsilə də müqayisə etdirmək olar.

Qrupların işi verilən vaxt müddətində bitdikdən sonra məlumatın mübadiləsini, yəni qrupların işinin təqdim olunması prosesini həyata keçirə bilərsiniz. Siz qrup mübadiləsi bitdikdən sonra mütləq müzakirəsini təşkil edin. Qrup qiymətləndirmə meyarı vasitəsilə qrupların işini qiymətləndirin.

Siz öncədən hazırladığınız hadisələrin xronoloji cədvəlinin doldurulmasını kollektiv şəkildə həyata keçirə bilərsiniz. Yaxud da araşdırılan problemlə bağlı refleksiya etmək olar.

Ev tapşırığı «Hindistanın bölüşdürülməsi adlı esse» ola bilər.

Qiymətləndirmə məqsədə uyğun müəyyən olunmuş meyarlara əsasən bütün dərs boyunca aparılır.

Çap üçün deyil

**Qiymətləndirmə meyarları:** *izahetmə, tərtibetmə*

| I | II | III | IV |
|---|---|---|---|
| Hindistanda baş vermiş prosesləri oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Hindistanda baş vermiş prosesləri oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah edir. | Hindistanda baş vermiş prosesləri oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah edir. | Hindistanda baş vermiş prosesləri oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini asanlıqla izah edir. |
| Hindistanda baş vermiş hadisələrin səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəlləri tərtib etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Hindistanda baş vermiş hadisələrin səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəlləri tərtib edir. | Hindistanda baş vermiş hadisələrin səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəlləri tərtib edir. | Hindistanda baş vermiş hadisələrin səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəlləri asanlıqla tərtib edir. |

Çap üçün deyil

## 5. «QAPALI ÖLKƏ»

***Məzmun standartı:***

1.1.2. Oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəllər tərtib edir.
3.1.1. Dövlətlərin yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.

***Təlim məqsədi:***

1. Çin tarixinə oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəllər tərtib edir.
2. Çində sülalələrin dövlət yaratmasını, idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.

***Təlim forması:***

Qruplarla iş, kollektiv iş

***Təlim üsulu:***

Beyin həmləsi, debat

Bu problemi araşdırmaq üçün şagirdlərə qabaqlayıcı tapşırıq vermək olar. Təbii ki, siz əgər növbəti dərsinizi debat üsulu ilə reallaşdırmalı olsanız, bu, vacib olacaqdır. Siz öncədən şagirdlərə mövzunun adını elan edə bilərsiniz ki, onlar bu mövzu ilə tanış olsunlar. Həmçinin onlara tapşıra bilərsiniz ki, hər kəs Çinin nəzərdə tutulan dövrünü araşdırıb ona dair materiallar toplasın. Növbəti dərs şagirdlər bir növ hazırlıqlı olacaqlar. Amma onlar sizin bu dərsiniz üçün qoyduğunuz məqsəddən xəbərsizdirlər. Buna görə də siz öz məqsədlərinizi reallaşdırmaq üçün strategiyanızı düz müəyyənləşdirin.

A blokunda verilmiş motivasiyanı şagirdlərə sual verməklə reallaşdırın. Onları birbaşa suallarla fəallaşdıra bilərsiniz. Şagirdlərə dərslikdə olan, mövzu ilə əlaqədar motivasiyaya yönlənmiş C blokundakı sualı verin.Yaxud da özünüzün yaradıcılığınıza uyğun hazırladığınız motivasiyanı reallaşdıra bilərsiniz. Bu mövzunun tədrisi kollektiv və fərdi şəkildə reallaşdırıla bilər. Şagirdlərə kollektiv şəkildə Çinin o dövürdəki vəziyyətini təhlil etdirin. Onlardan biri lövhədə Venn diaqramını, yaxud da flipçartda cədvəl qura bilər. Cədvəlin doldurulması kollektivin köməyi ilə həyata keçirilə bilər. Əsas odur ki, şagirdlər əlaqə qurmağı, əsaslandırmağı bacarsınlar.

Çap üçün deyil

Tədqiqat sualı «Çinin XVII–XVIII əsrlərdəki tarixi rolu nədən ibarət olmuşdur?» ola bilər.

Şagirdlərə C blokundakı tapşırıqları tədqiqatın aparılması üçün fərdi şəkildə vermək olar. Bu zaman onlar əvvəlcədən əldə etdikləri məlumatlar vasitəsindən də istifadə etməklə tapşırıqlara cavab verə bilərlər. Bu fərdi iş olduğu üçün onların yoxlanılması uzun çəkməsin deyə, belə bir üsul köməyinizə gələr; Öncədən tədqiqat sualına cavab verən bir material hazırlayın. Onu şagirdlər işlərini bitirdikdən sonra lövhədən asın. Onların təqdim etdiyi materialla müqayisə edin. Şagirdlərdən xahiş edin ki, sadalanan hər hansı hissə onların qeydlərində varsa «+» işarəsi qoysunlar. Bu prosesdən sonra cavabı verilməyən sualları müzakirə etdirin.

B blokunda verilmiş hissələrlə şagirdlərin məlumatlı olub-olmamasını müəyyən etmək üçün mövzuların hissələrində öz əksini tapmış suallardan istifadə edə bilərsiniz. E blokuna aid şəkil və illüstrasiyalardan, D blokundakı xəritədən problemin araşdırılması və məqsədin reallaşdırılması istiqamətində köməkçi vasitə kimi istifadə olunmalıdır.

Əvvəlcədən qeyd etdiyimiz kimi, bu mövzunun reallaşdırılmasında debat üsulu seçmiş olsanız şagirdlərə debatın qaydalarını mütləq xatırladın. Yaxud da debatın qaydalarını lövhədən asın.

Debat zamanı rollaşdırma həyata keçirilir:

**I qrup:** Təsdiqləyici mövqedədir. «Qapalı ölkə» mövzusunu olduğu kimi qəbul edir. Deyilmiş fikirlərin düzgün olduğunu təsdiqləyir.

**II qrup:** Təkzibedicidir. O I qrupun fikirlərini təkzib edir və öz arqumentlərini gətirir.

**III qrup:** Hakim mövqeyində duranlardır ki, bu iki qrupun hansı biri daha dəqiq, dolğun və inandırıcı fakt gətirərsə, o zaman onun fikrini təsdiqləyir. Təbii ki, hakimin üzərinə bunu müəyyən eymək üçün böyük məsuliyyət düşür. Debatlar zamanı hər bir qrupa 7–8 dəqiqəlik vaxtın ayrılması kifayətdir. Debatlar üçün mövzular maraqlı olmalıdır. Bir qədər münaqişəli mövzu seçmək bu üsulun tətbiqi üçün səmərəlidir.

Çinin tarixində baş vermiş proseslər Çin xalqının bir olmamasından xəbər verirmi? sualı debatın reallaşdırılması üçün müzakirə obyekti ola bilər.

Mütləq debatın yekunu olaraq şagirdlərlə müzakirə aparıb onlarla birgə nəticələri müəyyənləşdirin.

Ev tapşırığı «Çin haqqında 3–5 dəqiqəlik slayd hazırlayın» ola bilər.

Çap üçün deyil

**Qiymətləndirmə meyarları:** *tərtibetmə, təhliletmə*

| I | II | III | IV |
|---|---|---|---|
| Çin tarixinə oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəllər tərtib etməkdə çətinlik çəkir. | Çin tarixinə oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəllər tərtib edərkən köməkdən istifadə edir. | Çin tarixinə oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəlləri tərtib edir. | Çin tarixinə oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəlləri sərbəst tərtib edir. |
| Çində sülalələrin dövlət yaratmasını, idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil etməkdə çətinlik çəkir. | Çində sülalələrin dövlət yaratmasını, idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edərkən köməkdən istifadə edir. | Çində sülalələrin dövlət yaratmasını, idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir. | Çində sülalələrin dövlət yaratmasını, idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini sərbəst təhlil edir. |

Çap üçün deyil

## 6. «GÜNDOĞAN ÖLKƏ»

***Məzmun standartı:***

1.1.3. Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.
2.1.2. Dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.

***Təlim məqsədi:***

1. Yaponiyanın tarixinə aid xronoloji cədvəl tərtib edir.
2. Yaponiyanın həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.

***Təlim forması:***

Qrup işi

***Təlim üsulu:***

İNSERT, müzakirə

Bu mövzunu başlayarkən mövzunun A blokundakı hissəsini şagirdlərdən birinə oxutmaq olar. Yaxud da böyük coğrafi kəşflər, Portuqaliya dənizçilərinin Yaponiya sahillərinə gəlib çıxması haqqında elektron vəsait hazırlamaqla şagirdlərə təqdim etmək olar. Şagirdlərə C blokundakı «Buna qədər Yapon adalarında hansı hadisələr baş vermişdi?» «Avropalıların Yaponiyaya yaxınlaşması nəyə səbəb oldu?» suallarını vermək olar. Yaxud da özünüz bu tipdə suallar hazırlamaqla şagirdləri tədqiqata cəlb edə bilərsiniz. Şagirdlər motivasiya ilə bağlı verilmiş sualların cavabını verərkən onların fikirlərinə qarşı diqqətli olmanızı nümayiş etdirin. Bunun üçün onların verdikləri cavabları lövhədə qeyd edin.

Tədqiqatın aparılması üçün «Yaponiyanın tarixdəki rolu və yeri nədən ibarətdir?» sualını vermək olar.

İNSERT üsulunu tətbiq etməklə B blokuna daxil olan yeni bilikləri şagirdlərə oxudun. Mətni oxuyarkən müzakirələr aparmağı unutmayın. Bu zaman müzakirələr C blokundakı suallar əsasında da aparıla bilər. Yaxud da stiuasiyadan asılı olaraq siz sualları başqa suallarla da əvəz edə bilərsiniz.



Çap üçün deyil

İNSERT üsulunu reallaşdırarkən bu üsulun qaydalarına əməl edin.

Bu üsul «Gündoğan ölkə» mövzusunu aktiv fəaliyyətlə, yəni şagirdin öz münasibətini bildirərək oxunmasıdır. Şagird mövzudakı fikirlərə münasibətini qəbul edilmiş işarələrlə («√» – bu məlumat mənə tanış idi, «–» – bu məlumat mənim əvvəllər bildiyimi inkar edir, «+» – bu məlumat mənim üçün yenidir, «?» – bu məsələyə dair əlavə məlumat almaq istərdim) bildirir. Dərslikdəki mətn oxunduqdan sonra ümumiləşdirmələr aparılır və qeyd olunur.

| «√» | «–» | «+» | «?» |
|---|---|---|---|
| | | | |

Mövzuda öz əksini tapmış E blokuna aid şəkil və illüstrasiyalar üzərində iş aparmağı unutmayın. Şagirdlərin bu şəkillər haqqında fikir söyləmələri üçün şərait yaradın.

Materialın mənimsənilməsi şagirdlər üçün yetərli deyilsə, əlavə resusdan istifadə etməyiniz məsləhətdir. Əsas odur ki, şagirdlərdə «Gündoğan ölkə» mövzusu vasitəsilə məqsədə uyğun müəyyən bilik və bacarıqlar formalaşsın.

Bu mövzunu araşdırmaq üçün sinfi qruplara bölmək də olar. Qruplara C blokundakı tapşırıqları verə bilərsiniz. Onlara iş vərəqlərini payladıqdan sonra vaxtı elan edin. Hər bir qrup işində olduğu kimi, bu qrup işinin təşkili zamanı da qrup qaydalarını elan edin. Həmçinin qrup qiymətləndirmə meyar cədvəlini lövhədən asın. Siz qrupları sinfinizdəki saya görə bölmək imkanına maliksiniz. Sizə təqdim olunan qrup bölgüsü tövsiyə xarakterlidir.

**I qrup:** «Tədric» siyasətinin ölkənin inkişafına müsbət və mənfi təsiri» mövzusunda cədvəl tərtib edin.

**II qrup:** Nə üçün hökumətin apardığı islahatlar ölkəni böhrandan çıxara bilmədi? Təhlil edin.

**III qrup:** Kontur xəritədə Yaponiyanın yerini müəyyənləşdirərək rəngləyin. Ərazilərin adlarını üzərində qeyd edin (**Qeyd:** Kontur xəritə müəllimin iş vərəqində şagirdə təqdim olunmalıdır).

**IV qrup:** Yaponiyanın siyasi vəziyyətini təhlil edin.

Qruplar işi hazırladıqdan sonra «Məlumatın mübadiləsi» mərhələsini həyata keçirə bilərsiniz. Mübadilə qrup liderləri tərəfindən reallaşdırılır. Lazım gələrsə qrup üzvləri öz liderlərinin köməyinə çata bilərlər.

Müzakirələr qrup işi üzərində aparıldıqdan sonra şagirdlərin diqqətini tədqiqat sualına yönəldin. Bütün verilmiş cavablar tədqiqat sualına xidmət etməlidir. Qrupların qiymətləndirilməsini unutmayın. Onları rəngli kağızlarla, rəqəmlərlə və s. həvəsləndirici metodlarla qiymətləndirə bilərsiniz.



Çap üçün deyil

Qrup qiymətləndirmə meyarları ilə fərdi qiymətləndirmə meyarları arasında oxşarlıq olsa da, fərqlilik də vardır. Bu baxımdan fərdi qiymətləndirmə meyarını məqsədə uyğun müəyyənləşdirin. Şagirdlərinizin hansı bilik və bacarığa malik olmasını sözlərlə ifadə edib məktəbli kitabçasına qeyd edin.

Ev tapşırığı kimi C blokunda verilmiş 4-cü tapşırığı, yəni «Yaponiyanın tənəzzülünü özündə əks etdirən təqdimat hazırlayın» verə bilərsiniz.

**Qiymətləndirmə meyarları:** *tərtibetmə, xəritəköçürmə*

| I | II | III | IV |
|---|---|---|---|
| Yaponiyanın tarixinə aid xronoloji cədvəl tərtib etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Yaponiyanın tarixinə aid xronoloji cədvəl tərtib edir. | Yaponiyanın tarixinə aid xronoloji cədvəli tərtib edir. | Yaponiyanın tarixinə aid xronoloji cədvəli asanlıqla tərtib edir. |
| Yaponiyanın həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Yaponiyanın həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür. | Yaponiyanın həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür. | Yaponiyanın həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə asanlıqla köçürür. |

Çap üçün deyil

## 7. ŞƏRQ XALQLARININ MƏDƏNİYYƏTİ

***Məzmun standartı:***

4.1.2. Tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.
5.1.1. Şərqdə və Qərbdə intibah mədəniyyətinin xüsusiyyətlərini izah edir.
5.1.3. Dünya mədəniyyətinin nailiyyətlərinə dair cədvəl və qrafiklər hazırlayır.

***Təlim məqsədi:***

1. Şərq xalqlarının mədəniyyətinin formalaşmasında mühüm rol oynamış şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəllər hazırlayır.
2. Şərq xalqlarının mədəniyyətinin xüsusiyyətlərini izah edir.
3. Şərq xalqlarının mədəniyyətinin nailiyyətlərinə aid cədvəl və qrafiklər hazırlayır.

***Təlim forması:***

Kollektiv iş, qrup işi

***Təlim üsulu:***

Fasiləli oxu, BİBÖ, qərarlar ağacı

Dərs təbii olaraq motivasiya ilə başlanmalıdır. Bunun üçün əvvəlcə A blokundakı materialla şagirdləri tanış edin. Şagirdlərin birindən xahiş edin ki, mövzunun giriş abzasını oxusun. Sonra C blokuna aid olan, motivasiyaya yönlənmiş olan sualı şagirdlərə verin. Yaxud da əvvəlcədən hazırladığınız sualları şagirdlərə verə bilərsiniz. Situasiyadan asılı olaraq sualların istiqaməti dəyişə də bilər. Lakin motivasiyaya uzun vaxt ayırmayın. Çalışın hədəfə vurmağı bacarın. Bu mövzunun tədrisi üçün BİBÖ üsulunu tətbiq edin. Bunun üçün siz BİBÖ cədvəlini öncədən lövhəyə asın.

**Bilirəm** | **İstəyirəm bilim** | **Öyrəndim**

Çap üçün deyil

Şagirdlərin Şərq xalqlarının mədəniyyəti ilə bağlı bildiklərini BİBÖ cədvəlinin Bilirəm hissəsinə qeyd edin. Yaxud da şagirdlərə tapşırın ki, rəngli kağızlardan istifadə etməklə bildiklərini yazıb cədvəlin bilirəm hissəsinə yapışdırsınlar. Sonra onların öyrənmək istədikləri məsələləri əks etdirən sualları yazdırın. Öyrəndim mərhələsi təbii ki, dərsin sonunda doldurulacaqdır.

B blokundakı yeni bilikləri şagirdlərə fasiləli oxu üsulundan istifadə etməklə oxudun. Onlara növbə ilə mətni oxutdurun. Sonra şagirdlərdən bu mətndəki baş verən hadisəyə münasibətini soruşun. Onların diqqətini C blokundakı, yeni biliklərin təhlili üçün nəzərdə tutulmuş suallara cəlb edin. Həmin sualları şagirdlərə verməklə onları fəal-interaktiv təlim mühitinə sövq edin. Əvvəlki bilikləri ilə öyrəndikləri yeni biliklər arasında əlaqə yaratmağa kömək edin. E blokuna aid olan şəkillərin istifadəsi ilə dərsin daha da canlanmasına mühit yaradın.

Tədqiqat aparmaq üçün «Şərq xalqlarının mədəniyyəti tarixə nələr bəxş edib?» – sualını vermək olar. Bu tədqiqatın aparılmasın üçün C blokundakı tapşırıqlardan istifadə edilə bilər. Bu bloka aid olan sual və tapşırıqları aşağıdakı kimi qruplara təqdim edin:

**I qrup:** Moğol imperatorluğunun Hindistan memarlığının inkişafına təsirini faktlarla əsaslandırın.

**II qrup:** Benqal–Asiya cəmiyyətinin Hindistan mədəniyyətinin inkişafındakı rolunu izah edin.

**III qrup:** Yapon mədəniyyətinin inkişafına təkan verən əsas amil nədən ibarət idi? Təhlil edin.

**IV qrup:** Şərq xalqlarının mədəniyyətinin formalaşmasında mühüm rol oynamış şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəllər hazırlayın.

**V qrup:** Şərq xalqlarının mədəniyyətinin xüsusiyyətlərini izah edin.

**VI qrup:** Şərq xalqlarının mədəniyyətinin nailiyyətlərinə aid cədvəl və qrafiklər hazırlayın.

Məlumatların mübadilə və müzakirə mərhələsini reallaşdırdıqdan sonra qərarlar ağacı üsulunu tətbiq etməklə nəticələrə gələ bilərsiniz.

Siz sinfinizdəki imkana uyğun olaraq şagirdlərə ev tapşırığı kimi – «Şərq xalqlarının mədəniyyəti barədə əlavə materiallar toplayıb cədvəlləşdirin» verə bilərsiniz.

Digər dərslərin tədrisində olduğu kimi, qiymətləndirmə məqsədə görə müəyyən edilmiş meyara əsasən aparılmalıdır.

Çap üçün deyil

**Qiymətləndirmə meyarları:** *cədvəlhazırlama, izahetmə, qrafikhazırlama*

| I | II | III |
|---|---|---|
| Şərq xalqlarının mədəniyyətinin formalaşmasında mühüm rol oynamış şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəllər hazırlamaqda çətinlik çəkir. | Müəllimin köməyi ilə Şərq xalqlarının mədəniyyətinin formalaşmasında mühüm rol oynamış şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəllər hazırlayır. | Şərq xalqlarının mədəniyyətinin formalaşmasında mühüm rol oynamış şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı sərbəst cədvəllər hazırlayır. |
| Şərq xalqlarının mədəniyyətinin xüsusiyyətlərini izah etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Şərq xalqlarının mədəniyyətinin xüsusiyyətlərini izah edir. | Şərq xalqlarının mədəniyyətinin xüsusiyyətlərini sərbəst izah edir. |
| Şərq xalqlarının mədəniyyətinin nailiyyətlərinə aid cədvəl və qrafikləri hazırlamaqda çətinlik çəkir. | Müəllimin köməyi ilə Şərq xalqlarının mədəniyyətinin nailiyyətlərinə aid cədvəl və qrafikləri hazırlayır. | Şərq xalqlarının mədəniyyətinin nailiyyətlərinə aid cədvəl və qrafikləri sərbəst hazırlayır. |

Çap üçün deyil

# TÜRK DÜNYASI VƏ QAFQAZ XALQLARI XVII—XVIII ƏSRLƏRDƏ

## 8. OSMANLI İMPERİYASI — TƏNƏZZÜLÜN BAŞLANMASI

### I. YENİ DÖVRƏ KÖHNƏ QAYDALARLA DAXİL OLAN İMPERİYA

***Məzmun standartı:***

1.1.1. Oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətlərini izah edir.
3.1.1. Dövlətlərin yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.
4.1.1. Tarixi şəxsiyyətləri (Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet Paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar) müqayisə edir.
5.1.2. Elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir.

***Təlim məqsədi:***

1. Osmanlı imperiyasının tarixinə aid oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətləri izah edir.
2. Osmanlı imperiyasının idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.
3. Köprülü Mehmet Paşanı digər tarixi şəxsiyyətlərlə müqayisə edir.
4. Elmi kəşf və ixtiraların Osmanlı imperiyasında mədəniyyətin inkişafına təsirini izah edir.

***Təlim forması:***

Kollektiv iş, qrup işi

***Təlim üsulu:***

Beyin həmləsi, müzakirə, suallar

Qeyd etməliyik ki, dərslikdə verilmiş «Osmanlı imperiyası – sonun başlanğıcı» mövzusu 3 hissədən ibarətdir. Siz, sinfinizin səviyyəsinə uyğun olaraq bu hissələri müxtəlif formada reallaşdıra bilərsiniz. Bunun üçün bir neçə üsulu sizə təqdim edirik.

Çap üçün deyil

İlk növbədə, siz şagirdlərə layihələrin hazırlanması, yaxud da təqdimatlar üsulunu tətbiq etmək üçün təqdimatların işlənib hazırlanmasını tapşıra bilərsiniz. Başqa bir yanaşma isə şagirdlər evdə bu mövzuya daxil olan 3 hissəli mətnləri oxusunlar. Sonra isə növbəti dərsi debat şəklində təşkil edə bilərsiniz. Yaxud da hər hissəni ayrı-ayrılıqda tədris edə bilərsiniz. Bu baxımdan biz də sizə hər mövzunun metodiki tövsiyəsini təqdim edirik.

Bu mövzunun tədrisi üçün A blokundan istifadə etməklə motivasiyanı qurmaq olar. Anlayışların çıxarılması üsulunu tətbiq etməklə motivasiyanı qura bilərsiniz. Yaxud da motivasiyanı suallar vasitəsilə reallaşdırıb dərsi köhnə biliklərdən alınmış nəticələr əsasında qurmaq olar. C blokuna aid verilmiş suallarla şagirdlərə müraciət edə bilərsiniz: – «Yeni dövr Osmanlı imperiyasının ictimai-siyasi həyatına necə təsir etdi?», «Avropa dövlətləri Osmanlı imperiyasının düşdüyü bu vəziyyətdən necə istifadə etmək istədi?» Onların söylədikləri fərziyyələri lövhədə qeyd etsəniz daha yaxşı olar.

B blokundan istifadə etməklə şagirdləri mövzu ilə tanış edin. Mövzunun oxunuşu zamanı aydın olmayan hissələri müzakirəyə qoyun. Abzaslarda verilmiş sualların cavabını mütləq şagirdlərdən almağa çalışın.

Tədqiqat aparmaq üçün tədqiqat sualını verməyi unutmayın. Tədqiqat sualı – «Yeni dövrə köhnə qaydalarla daxil olan Osmanlı imperiyasının rolu nədən ibarət oldu?» ola bilər.

Tədqiqatın aparılması üçün şagirdləri dörd qrupa bölmək tövsiyə olunur. C blokundan istifadə etməklə onlara tapşırıqlar verin. Həmçinin E blokuna aid şəkillərdən iş vərəqində, eləcə də tədqiqatın aparılma mərhələsində vasitə kimi istifadə edə bilərsiniz. Dərsi daha maraqlı və rəngarəng etmək üçün sinfinizin imkanlarından və İKT imkanlarından istifadə edə bilərsiniz. Şagirdlər kompüter və internetdən istifadə etməklə tapşırıqların icrasını reallaşdıra bilərlər.

**I qrup:** Osmanlı imperiyasındakı iqtisadi gerilik nə ilə bağlı idi? Təhlil edin.

**II qrup:** Osmanlı imperiyasının tarixinə aid oxşar tarixi faktların baş verdiyi zamana görə irəli gələn fərqli cəhətlərini izah edin.

**III qrup:** Osmanlı imperiyasının idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edin.

**IV qrup:** Elmi kəşf və ixtiraların Osmanlı imperiyasının həyatına və mədəniyyətin inkişafına təsirini izah edin.

**Qeyd:** Siz ola bilsin ki, mövzuya seçilmiş mədəniyyətlə bağlı standarta və ona uyğun verilmiş tapşırığa birmənalı yanaşmayasınız. Amma unutmayın ki, müasir təhsil və tədris inteqrativliyin üzərində qurulub. Mövzuda «Lalə dövrü» haqqında verilmiş məlumat şagirdlərin mədəniyyətlə bağlı fikir yürütmələrinə imkan yaratmış olacaqdır. Həmçinin siz sinfə əlavə paylama materialı təqdim edə bilərsiniz. Yaxud da yuxarıda qeyd edildiyi kimi İKT vasitələrindən istifadə etməklə internet məlumatlarının şagirdlər tərəfindən araşdırılmasına yol aça bilərsiniz.



Çap üçün deyil

Təkcə bu sual və tapşırıqlarla kifayətlənməyə bilərsiniz. Qruplara araşdırmaq üçün C blokuna aid olan digər tapşırıq və sualları vermək olar. Yaxud da sizin sinfin potensial imkanlarına və maraqlarına görə sual və tapşırıqların istiqaməti dəyişə bilər. Məlumatın mübadiləsi və müzakirəsi zamanı hər qrupun işi təqdim olunur və müzakirə edilir. Bir qrup digərinin işinə əlavələr edə bilər, yaxud da münasibətini bildirə bilər.

Şagirdlərin cavablarını ümumiləşdirməklə nəticələrin çıxarılmasına istiqamət verin. Əldə olunmuş biliklərin bacarığa çevrilməsi sizin səmərəli fəaliyyətinizdən asılıdır. Əgər vaxta qənaət etmiş olsanız, şagirdlərə fərdi tapşırıq da verə bilərsiniz. Fəal-interaktiv təlim metodunun mərhələsi olan yaradıcı tətbiqetmə mərhələsinə uyğun olaraq şagirdlərə xəritə və ya sxem üzərində iş verə bilərsiniz.

**Qeyd:** Yaradıcı tətbiqetmə mərhələsini siz hər dəfə sinifdə tətbiq etməyə bilərsiniz. Çünki tarix dərslərinin tədrisində materialların çoxluğu və müzakirələr daha çox faktlardan nümunələr gətirməklə reallaşdırıldığı üçün zaman baxımından 45 dəqiqə yetərli olmaya bilər. Bu baxımdan siz yaradıcı işi ev tapşırığı şəklində vermək imkanına maliksiniz.

Ev tapşırığı «Osmanlı imperiyasının bu dövrünü cədvəlləşdirin» ola bilər.

**Qiymətləndirmə meyarları:** *izahetmə, təhliletmə, müqayisəetmə*

| I | II | III |
|---|---|---|
| Osmanlı imperiyasının tarixinə aid oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətləri izah etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Osmanlı imperiyasının tarixinə aid oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətləri izah edir. | Osmanlı imperiyasının tarixinə aid oxşar tarixi faktların baş verdiyi zamandan irəli gələn fərqli cəhətləri asanlıqla izah edir. |
| Osmanlı imperiyasının idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Osmanlı imperiyasının idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir. | Osmanlı imperiyasının idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini asanlıqla təhlil edir. |
| Köprülü Mehmet Paşanı digər tarixi şəxsiyyətlərlə müqayisə etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Köprülü Mehmet Paşanı digər tarixi şəxsiyyətlərlə müqayisə edir. | Köprülü Mehmet Paşanı digər tarixi şəxsiyyətlərlə asanlıqla müqayisə edir. |
| Elmi kəşf və ixtiraların Osmanlı mədəniyyətinin inkişafına təsirini izah etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə elmi kəşf və ixtiraların Osmanlı mədəniyyətinin inkişafına təsirini izah edir. | Elmi kəşf və ixtiraların Osmanlı imperiyasında mədəniyyətin inkişafına təsirini asanlıqla izah edir. |

Çap üçün deyil

## II. OSMANLI DÖVLƏTİNİN BEYNƏLXAQ NÜFUZUNUN ZƏİFLƏMƏSİ

***Məzmun standartı:***

1.1.3. Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.
2.1.2. Dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.

***Təlim məqsədi:***

1. Osmanlı imperiyasının beynəlxalq nüfuzunun zəifləməsinin səbəb-nəticə əlaqələrinə aid cədvəl tərtib edir.
2. Osmanlı imperiyasında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.

***Təlim forması:***

Kollektiv iş, qrup işi, fərdi iş

***Təlim üsulu:***

Beyin həmləsi, mühazirə, ziqzaq

Mövzunun tədrisi üçün A blokundakı məlumatlardan istifadə edərək motivasiyanı məqsədəuyğun şəkildə formalaşdıra bilərsiniz. Motivasiya məqsədi ilə verilmiş hissənin sonunda C blokuna aid sualı şagirdlərə verməklə onları düşünməyə vadar edin. Söylənilmiş fərziyyələr sizə tədqiqat sualının formalaşdırılmasına və bu suala cavab tapılması üçün tədqiqatın aparılmasına gətirib çıxarmalıdır. Yönləndirici suallar sizin işinizin səmərəli qurulması üçün vasitə ola bilər.

Tədqiqatı aparmazdan öncə proyektorun köməyi ilə Osmanlıların bu dövrü haqqında müəyyən slaydları göstərməklə mühazirəçilik edə bilərsiniz.

Tədqiqat sualı «Osmanlı dövlətinin beynəlxaq nüfuzunun zəifləməsinin səbəbi nə idi?» ola bilər.

Məzmun etibarilə zəngin olan dərslikdəki materialların tez bir zamanda mənimsənilib araşdırılması üşün ziqzaq üsulundan istifadə edə bilərsiniz. Sin-

Çap üçün deyil

finizin sayına əsasən bu qrupda şagirdlərin sayı bərabər qruplara bölünməlidir. Bu üsulun tətbiqi zamanı sinfi yarımbaşlıqların sayına görə də bərabərsaylı qurplara bölmək olar. Üsulun tətbiqinin tələblərinə uyğun olaraq, B blokundakı yeni bilikləri 3 hissəyə ayırmaqla qruplara təqim edilə bilərsiniz. Bu zaman E blokuna aid şəkillərə, D blokuna aid xəritəyə diqqət ayırmalarını da tapşırın.

I qrupa Patron Xəlil üsyanı, II qrupa Belqrad sülhü, III qrupa XVIII əsrin ikinci yarısında Osmanlı–Rusiya müharibələri yarımbaşlıqlarını vermək olar. Qrup üzvləri nömrələnir və ekspert qruplarına ayrılırlar. Hər ekspert qrupuna nömrəyə uyğun material verilir və mənimsənilməsinə şərait yaradılır. Vaxt bitdikdən sonra ekspertlər öz yerlərinə qayıdır və öyrəndiklərini qrupdakı yoldaşlarına başa salırlar. Yenə də verilən vaxt bitdikdən sonra C blokundan istifadə etməklə tərtib etdiyiniz iş vərəqlərini qruplara paylaya bilərsiniz.

Şagirdlər tapşırıqları cavablandırdıqdan sonra müzakirələr aparılır. Suallar verərkən C blokunda öz əksini tapmış suallardan da istifadə edə bilərsiniz.

Qrupların işini qrup meyar cədvəli tərtib etməklə qiymətləndirin.

Şagirdlərin fərdi bacarıqlarını üzə çıxarmaq üçün onların bir qisminə «Osmanlı imperiyasının beynəlxaq nüfuzunun zəifləməsinin səbəb-nəticələrinə aid cədvəl tərtib edin», digər qisminə isə «Osmanlı imperiyasında baş verən ərazi dəyişikliklərini kontur xəritələrə köçürün» tapşırıqlarını müzakirə etməyi tapşıra bilərsiniz.

Mövzunun sonunda, C blokunda verilmiş «Patron Xəlil üsyanına aid hekayə qurun» tapşırığını ev tapşırığı kimi vermək olar.

**Qiymətləndirmə meyarları:** *tərtibetmə, xəritəköçürmə*

| I | II | III |
|---|---|---|
| Osmanlı imperiyasının beynəlxaq nüfuzunun zəifləməsinin səbəb-nəticə əlaqələrinə aid cədvəli tərtib etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Osmanlı imperiyasının beynəlxalq nüfuzunun zəifləməsinin səbəb-nəticə əlaqələrinə aid cədvəl tərtib edir. | Osmanlı imperiyasının beynəlxalq nüfuzunun zəifləməsinin səbəb-nəticə əlaqələrinə aid cədvəli sərbəst tərtib edir. |
| Osmanlı imperiyasında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatların əsasında kontur xəritələrə köçürərkən ciddi səhvlər edir. | Osmanlı imperiyasında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürərkən bəzi səhvlərə yol verir. | Osmanlı imperiyasında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatların əsasında kontur xəritələrə sərbəst köçürür. |

Çap üçün deyil

## III. AVROPA DÖVLƏTLƏRİNİN OSMANLI İMPERİYASINI BÖLÜŞDÜRMƏK PLANLARI

***Məzmun standartı:***

1.1.2. Oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəllər tərtib edir.
4.1.1. Tarixi şəxsiyyətləri (Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet Paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar) müqayisə edir.

***Təlim məqsədi:***

1. Dövrün oxşar proses və hadisələrini əlaqələndirən sinxron cədvəllər tərtib edir.
2. Sultan III Səlimi digər tarixi şəxsiyyətlərlə müqayisə edir.

***Təlim forması:***

Kollektiv iş, cütlərlə iş

***Təlim üsulu:***

Beyin həmləsi, İNSERT

A blokuna aid hissəni şagirdlərə oxutmazdan öncə onlara müxtəlif suallar verməklə əvvəlki dərslərlə inteqrasiya imkanları yaradın. Motivasiya yaratmaq üçün beyin həmləsi üsulu ən yaxşı seçimdir. Beyin həmləsindən sonra A blokundakı hissəni özünüz oxuyun və şagirdləri düşünməyə vadar etmək üçün C blokuna aid olan sualı – «Bəs «Şərq məsələsi»nin əsasını nə təşkil edirdi?» vermək olar.

Tədqiqatın aparılması üçün «XVIII əsrin ikinci yarısı, XIX əsrin əvvəllərində Osmanlı imperiyası tarixdə hansı izi qoya bildi?» sualını vermək olar.

Məzmun hissə ilə tanış olmaq üçün B blokundakı yeni məlumatları şagirdlərə oxudun. İNSERT üsulundan istifadə etməklə C blokuna aid olan sualları müzakirə üçün istifadə edin. B blokuna dair suallar verməklə şagirdlərin dərsdəki fəallığını daha da artırmış olacaqsınız. Müzakirələrin aktiv keçməsi üçün kollektivin iştirakını təmin edin. Məzmunla bağlı müzakirə bitdikdən sonra cütlərə tapşırıq verə bilərsiniz. Verilmiş tapşırıqlar C blokuna aid edilən sual və tapşırıqlardan ola bilər.

**I cüt:** «Yunan layihəsi» ilə «Şərq məsələsi»ni müqayisə edərək cədvəl tərtib edin.



Çap üçün deyil

**II cüt:** III Səlimin islahatının uğursuzluğunu izah edin.
**III cüt:** Sultan III Səlimin islahatları cədvəlini doldurun.

| Hərbi sahədə | İdarəetmə sahəsində | Təhsil sistemində | İqtisadi sahədə |
|---|---|---|---|
| | | | |

**IV cüt:** XVIII əsrin sonlarında Osmanlı imperiyasında tənəzzülü dərinləşdirən amilləri təhlil edin.
**V cüt:** III Səlimi Köprülü Mehmet Paşa ilə müqayisə edin.

Cütlərə verilən tapşırıqlar sinfinizdəki cütlərin sayı ilə eyni ola bilər. Yaxud da hazırladığınız bir neçə tapşırığı sinfin bütün cütlərinə paylamaqla da kifayətlənə bilərsiniz. Təbii ki, bu sizin seçiminizdən və vaxtınızdan asılı ola bilər. Tapşırıqların yoxlanılması vaxt apardığı üçün cütlərə verilmiş tapşırıqların səviyyəsini öncədən müəyyən edin. Cüt işini verərkən vaxtın elan olunması vacibdir. Cütlərin işi cüt işinin qiymətləndirmə meyarları ilə dəyərləndirilir.

Nəticələrin çıxarılması üçün tədqiqat sualına təkrar müraciət etmək məsləhət görülür. Sonda şagirdlər məqsədə uyğun nəticələrə yiyələnməli, bilik və bacarıqlara malik olmalıdırlar.

Ev tapşırığı C blokundakı «Dövrə aid təhlilli sxem hazırlayın» tapşırığı ola bilər.

**Qiymətləndirmə meyarları:** *tərtibetmə, müqayisəetmə*

| I | II | III |
|---|---|---|
| Dövrün oxşar proses və hadisələrini əlaqələndirən sinxron cədvəlləri tərtib etməkdə çətinlik çəkir. | Dövrün oxşar proses və hadisələrini əlaqələndirən sinxron cədvəlləri tərtib edərkən bəzi səhvlərə yol verir. | Dövrün oxşar proses və hadisələrini əlaqələndirən sinxron cədvəlləri sərbəst tərtib edir. |
| Sultan III Səlimi digər tarixi şəxsiyyətlərlə müqayisə etməkdə çətinlik çəkir. | Sultan III Səlimi digər tarixi şəxsiyyətlərlə müqayisə edərkən bəzi nöqsanlara yol verir. | Sultan III Səlimi digər tarixi şəxsiyyətlərlə sərbəst müqayisə edir. |

Çap üçün deyil

## 9. MƏRKƏZİ ASİYA XANLIQLARI

***Məzmun standartı:***

3.1.1. Dövlətlərin yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.
4.1.2. Tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.

***Təlim məqsədi:***

1. Mərkəzi Asiya xanlıqlarının yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir.
2. Mərkəzi Asiya xalqlarının həyatında rol oynamış şəxsiyyətlərin oxşar və fərqli cəhətlərinə aid cədvəllər hazırlayır.

***Təlim forması:***

Cütlərlə və qruplarla iş

***Təlim üsulu:***

Fasiləli oxu, müzakirələr xəritəsi

A blokundakı məlumat motivasiya üçün başlanğıc ola bilər. C blokundakı suallar fərziyyələrin irəli sürülməsinə zəmin yarada bilər. Şagirdlərin fərziyyələrini dinlədikcə lövhədə qeydlər edin. B blokundakı məlumatlarla tanış olmaq üçün fasiləli oxudan istifadə etmək olar. Bu zaman B blokuna aid sual və tapşırıqlardan istifadə etməyi unutmayın. E blokundakı şəkil və illüstrasiyalar şagirdlərin diqqətinə çatdırılsa, daha yaxşı olar. Sinfinizdə şagirdlərin bir çoxu, yəqin ki, əyani öyrənmə tərzinə üstünlük verirlər. Bu baxımdan şagirdlərə illüstrasiya və şəkillərə yönəlmiş tapşırıqları da verə bilərsiniz. Bu çox qısa bir müddət üçün verilmiş tapşırıq olmalıdır ki, digər araşdırmalara da vaxt qalsın. Tədqiqat sualı «Mərkəzi Asiya xanlıqlarının tarixdəki rolu nədən ibarətdir?» ola bilər.

Tədqiqatın aparılması zamanı siz müzakirə xəritələri üsulunu seçə bilərsiniz. Bu zaman cütlərlə iş formasından istifadə edin. Bununla siz şagirdlərdə mövzuya dair problemləri üzə çıxarmaq və ziddiyyətli suallar qoymaq bacarığı formalaşdıracaqsınız. Şagirdlərin hər birinin mövqeyinin müəyyənləşdirilməsi sizin qiymətləndirmə aparmanıza kömək ola bilər. Uyğun mövqedə olan şa-

Çap üçün deyil

girdləri cütlərdə birləşdirə bilərsiniz. Onların «lehinə» və «əleyhinə» siyahı tərtib etməsini tapşırmanız tövsiyə olunur.

Kollektiv və fərdi iş formalarını tətbiq etməklə onlarda Mərkəzi Asiya xanlıqlarının yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil etmək bacarığını formalaşdıra bilərsiniz. Bu zaman siz şagirdlərə C blokundakı sualları fərdi şəkildə verə bilərsiniz. D blokundakı xəritələrdən istifadə etməklə məkan haqqında biliklərini xəritə üzərində müəyyənləşdirmə imkanına malik olmalarına imkan yaradın.

Tədqiqatın aparılması bitdikdən sonra müzakirə üsulunu tətbiq edin. Müzakirədən sonra nəticə və ümumiləşdirmə aparın. Bu işi şagirdlərlə birgə edin. Refleksiya mərhələsində xronoloji olaraq hadisələri yada salmaq üçün suallar verin.

C blokundakı «Mərkəzi Asiya xalqlarının həyatında rol oynamış şəxsiyyətlərin oxşar və fərqli cəhətlərinə aid cədvəl hazırlayın» tapşırığını ev tapşırığı kimi verə bilərsiniz.

**Qiymətləndirmə meyarları:** *təhliletmə, cədvəlhazırlama*

| I | II | III |
|---|---|---|
| Mərkəzi Asiya xanlıqlarının yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Mərkəzi Asiya xanlıqlarının yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edir. | Mərkəzi Asiya xanlıqlarının yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini asanlıqla təhlil edir. |
| Mərkəzi Asiya xalqlarının həyatında rol oynamış şəxsiyyətlərin oxşar və fərqli cəhətlərinə aid cədvəllər hazırlamaqda çətinlik çəkir. | Müəllimin köməyi ilə Mərkəzi Asiya xalqlarının həyatında rol oynamış şəxsiyyətlərin oxşar və fərqli cəhətlərinə aid cədvəllər hazırlayır. | Mərkəzi Asiya xalqlarının həyatında rol oynamış şəxsiyyətlərin oxşar və fərqli cəhətlərinə aid cədvəlləri asanlıqla hazırlayır. |

Çap üçün deyil

## 10. VOLQABOYU, URAL VƏ SİBİR TÜRKLƏRİ

***Məzmun standartı:***

2.1.2. Dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.
3.1.1. Dövlətlərin yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.

***Təlim məqsədi:***

1. Volqaboyu, Ural və Sibir türklərinin həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.
2. Volqaboyu, Ural və Sibir türklərinin idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.

***Təlim forması:***

Fərdi və qruplarla iş

***Təlim üsulu:***

Beyin həmləsi, sorğu vərəqləri, suallar

Dərsin tədrisi üçün A blokundakı hissə motivasiya mərhələsi üçün istifadə oluna bilər. Şagirdlərə A blokuna aid verilmiş sualı – «Rus müstəmləkəçilərinin idarəçiliyi Volqa bulqarlarının həyatında hansı izləri qoydu?» verməklə müzakirəni təşkil edə bilərsiniz. Mövzunun tədrisində mühazirə üsulunu tətbiq etmək olar. Volqaboyu, Ural və Sibir türklərinin həyatında baş verən hadisələri, ərazi dəyişikliklərini, iqtisadi həyatı haqqındakı məlumatı bu üsulun vasitəsilə şagirdlərin diqqətinə çatdıra bilərsiniz. Şagirdləri C blokuna aid olan suallarla canlandırın. B blokuna aid olan yeni məlumatları oxuda da bilərsiniz. Bu zaman «Volqaboyu, Ural və Sibir türklərinin həyatında baş verən hadisələr nədən ibarətdir?» sualı tədqiqat üçün münasibdir. Tədqiqatın aparılması üçün sorğu vərəqləri üsulunu da seçmək olar. Bildiyiniz kimi, bu üsul araşdırılan məsələ ilə bağlı fakt və hadisələr haqqında müəyyən qrupların ictimai rəyini

Çap üçün deyil

öyrənmək məqsədilə aparılır. Sorğu vərəqi araşdırılan məsələ ilə bağlı (Volqaboyu, Ural və Sibir türklərinin həyatı) tərtib edilir və burada suallar qoyulur. Sorğuda iştirak edənlər bu vərəqi müstəqil doldurmalıdırlar.

C blokundakı tapşırıqlardan istifadə etməklə şagirdləri qruplara da bölmək olar.

**I qrup**: I Pyotrun dövründə Volqaboyu və Ural türklərinə qarşı aparılan müstəmləkə siyasətinin daha da sərtləşdiyini faktlarla göstərin.

**II qrup:** Volqaboyu, Ural və Sibir türklərinin idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edin.

**III qrup:** Sibir xalqlarının məşğuliyyətinə əsasən onların inkişaf mərhələlərini müəyyənləşdirin.

**IV qrup:** Volqaboyu və Uraldakı sənaye müəssisələri ilə Sibirdəki sənaye müəssisələrinin oxşarlığını izah edin.

Mübadilə və müzakirədən sonra qrupların işini qiymətləndirməyi unutmayın.

**Qiymətləndirmə meyarları:** *xəritəköçürmə, təhliletmə*

| I | II | III |
|---|---|---|
| Volqaboyu, Ural və Sibir türklərinin həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Volqaboyu, Ural və Sibir türklərinin həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür. | Volqaboyu, Ural və Sibir türklərinin həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə asanlıqla köçürür. |
| Volqaboyu, Ural və Sibir türklərinin idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Volqaboyu, Ural və Sibir türklərinin idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir. | Volqaboyu, Ural və Sibir türklərinin idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini asanlıqla təhlil edir. |

Çap üçün deyil

## 11. QAFQAZ XVII—XVIII ƏSRLƏRDƏ

### I. ŞİMALİ QAFQAZ YENİ DÖVRÜN ASTANASINDA

***Məzmun standartı:***

3.1.1. Dövlətlərin yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.

***Təlim məqsədi:***

1. Şimali Qafqaz xalqlarının idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.

***Təlim forması:***

Fərdi və qruplarla iş

***Təlim üsulu:***

Beyin həmləsi, İNSERT, suallar

Bu mövzuya başlayarkən şagirdlərin diqqətini A blokundakı motivasiyaya yönləndirin. Bu zaman motivasiyaya aid sualları: «Rusiya əlinə düşmüş tarixi imkandan necə istifadə etdi?», «Bu dövrdə Şimali Qafqazda hansı xalqlar yaşayırdılar» şagirdlərə verə bilərsiniz. Şagirdlərin verdiyi cavablar lövhədə, yaxud da flipçartda qeyd olunarsa, daha məqsədəuyğundur. Siz motivasiyanın qoyulmasında başqa vasitələrdən də istifadə edə bilərsiniz. Təbii ki, bu sizin imkanlarınızdan asılıdır.

B blokuna aid olan hissə ilə, yeni mətnlə şagirdləri tanış edərkən İNSERT üsulundan istifadə etmək olar. Bu üsulun tətbiqi mətnin müzakirəli oxunuşu ilə həyata keçirilir. Bu zaman C blokundakı sual və tapşırıqlar, həmçinin E blokundakı şəkillər, D blokundakı xəritə sizin işinizin səmərəli təşkili üçün yardımçı ola bilər. Hər oxunan abzasın müzakirəsi aparılarsa, şagird üçün daha səmərəli nəticə göstərər.

Şagird «Şimali Qafqaz yeni dövrün astanasında» mövzusundakı fikirlərə münasibətini qəbul edilmiş işarələrlə («√» – bu məlumat mənə tanış idi, «–» – bu məlumat mənim əvvəllər bildiyimi inkar edir, «+» – bu məlumat mənim üçün yenidir, «?» – bu məsələyə dair əlavə məlumat almaq istərdim) bildirir.

Çap üçün deyil

Dərslikdəki mətn oxunduqdan sonra ümumiləşdirmələr aparılır və qeyd olunur.

| «√» | «–» | «+» | «?» |
|---|---|---|---|
| | | | |

Tədqiqatın aparılması üçün tədqiqat sualının qoyulması zəruridir. Aparılan tədqiqat «XVII–XVIII əsrlərdə Şimali Qafqazın həyatında hansı hadisələr baş verdi?» sualı ətrafında olmalıdır. Tədqiqata cəlb edilən şagirdlər tapşırıqlar vasitəsilə bilik və bacarıqlara sahib olmalıdırlar. Tədqiqat sualı qoyulduqdan sonra şagirdləri qruplara da bölmək olar. Bölgü apararkən vaxta qənaət edin. Bu işdə rəngli stikerlərdən istifadə edin. Tədqiqatı aparmaq üçün şagirdləri 4 qrupa bölmək olar. C blokundakı tapşırıqlardan istifadə edin.

Məlumatın mübadiləsi mərhələsi hazırlanmış cavabların təqdim olunması ilə reallaşır. Məlumatın müzakirə mərhələsində qrupların işi müzakirə olunur. Müzakirə bitdikdən sonra qrupların işi dəyərləndirilərək qrup qiymətləndirmə meyarında öz əksini tapır. Qrupları qiymətləndirərkən özünüz qərar verməyin. Bu qərarlar siniflə birgə verilməlidir.

Nəticələrin çıxarılması mərhələsində şagirdlər Şimali Qafqaz xalqlarının idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətləri təhlil edərək, Rusiyanın «parçala və hökm sür» siyasətinin bu xalqların taleyində oynadığı rolu təhlil edirlər.

Mövzunun sonunda verilmiş C blokundakı 1-ci tapşırığı – «Şimali Qafqazın etnik mənzərəsi cədvəlini doldurun» – ev tapşırığı kimi verə bilərsiniz.

Qiymətləndirmə məqsədə uyğun meyar əsasında reallaşdırılmalıdır.

**Qiymətləndirmə meyarları:** *təhliletmə*

| I | II | III |
|---|---|---|
| Şimali Qafqaz xalqlarının idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil etməkdə çətinlik çəkir. | Şimali Qafqaz xalqlarının idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edərkən sualların köməyindən istifadə edir. | Şimali Qafqaz xalqlarının idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini asanlıqla təhlil edir. |

Çap üçün deyil

***Məzmun standartı:***

2.1.2. Dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.
3.1.1. Dövlətlərin yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.
4.1.1. Tarixi şəxsiyyətləri (Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet Paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar) müqayisə edir.

***Təlim məqsədi:***

1. Cənubi Qafqazda baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.
2. Cənubi Qafqazın idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.
3. I Pyotru dövrün şəxsiyyətləri ilə müqayisə edir.

***Təlim forması:***

Kollektiv və qruplarla iş

***Təlim üsulu:***

Qərarlar ağacı, İNSERT

Motivasiyanı A bloku ilə başlamaq olar. Şagirdlərin dövr haqqında münasibətini öyrənmək üçün suallardan istifadə edin. Motivasiya məqsədilə yönlənmiş C blokundakı sualı istifadə etmək yerinə düşər. D blokuna aid sxem şagirdlər tərəfindən müzakirə edilərsə, daha yaxşı olar. Həmçinin şəkillərə diqqətin ayrılmasını təmin edin. B blokuna aid materialları araşdırmaq məqsədilə verilmiş sualları şagirdlərə verin. Bu zaman fərdi olaraq şagirdlərə də bu sualları ünvanlandıra bilərsiniz. O zaman sinfinizin şagirdlərinin adlarını, məsələn, Cəmil, Əsmər, Rauf, Çiçək və s. çəkməklə onların suala cavab verməsini istəyin.



Çap üçün deyil

Paraqrafın nəzəri materialı ilə tanışlıq İNSERT, debat və digər üsullarla aparıla bilər. Siz şəkillər, elektron vəsaitdən istifadə etməklə təqdimat da edə bilərsiniz. B blokundakı materiallar oxunduqdan sonra tədqiqatın aparılmasını «XVII–XVIII əsrlərdə Cənubi Qafqazın tarixində hansı hadisələr baş verdi?» sualı ilə reallaşdıra bilərsiniz.

C blokunda verilmiş tapşırıqları qrup və ya cütlərə vermək olar. Tapşırığın icrası bitdikdən sonra ümumiləşdirmə aparmaq, eləcə də nəticələrin çıxarılması üçün şagirdlərin iştirakı vacibdir. Tədqiqat işini elə təşkil etmək lazımdır ki, şagirdlər işin sonunda tədqiqat sualına cavab tapa bilsinlər.

Ev tapşırığı kimi şagirdlərə C blokundakı «I Pyotru II Yekaterina ilə Venn diaqramında müqayisə edin» tapşırığını vermək olar.

Qiymətləndirmə dərsin istənilən mərhəlsində meyara uyğun aparılmalıdır.

**Qiymətləndirmə meyarları:** *xəritəköçürmə, təhliletmə, müqayisəetmə*

| I | II | III |
|---|---|---|
| Cənubi Qafqazda baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Cənubi Qafqazda baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür. | Cənubi Qafqazda baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə asanlıqla köçürür. |
| Cənubi Qafqazın idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Cənubi Qafqazın idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir. | Cənubi Qafqazın idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini asanlıqla təhlil edir. |
| I Pyotru dövrün şəxsiyyətləri ilə müqayisə etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə I Pyotru dövrün şəxsiyyətləri ilə müqayisə edir. | I Pyotru dövrün şəxsiyyətləri ilə asanlıqla müqayisə edir. |

Çap üçün deyil

# 12. TÜRK VƏ QAFQAZ XALQLARININ MƏDƏNİYYƏTİ

***Məzmun standartı:***

5.1.1. Şərqdə və Qərbdə intibah mədəniyyətinin xüsusiyyətlərini izah edir.
5.1.2. Elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir.

***Təlim məqsədi:***

1. Türk və Qafqaz xalqlarının mədəniyyətinin xüsusiyyətlərini izah edir.
2. Elmi kəşf və ixtiraların türk və Qafqaz xalqlarının mədəniyyətinin inkişafına təsirini izah edir.

***Təlim forması:***

Kollektiv iş, qruplarla iş

***Təlim üsulu:***

Beyin həmləsi, İNSERT

Bu mövzuya başlayarkən şagirdlərin diqqətini A blokundakı motivasiyaya yönləndirin. Bu zaman motivasiyaya aid C blokundakı sualları şagirdlərə verməyiniz tövsiyə olunur. Suallara cavab vermək üçün şagirdlərə bir neçə dəqiqə vaxt da verilsə, daha düzgün olar. Şagirdlərin verdiyi cavabların lövhədə, yaxud da flipçartda qeyd olunması daha məqsədəuyğundur. Siz motivasiyanın qoyulmasında başqa vasitələrdən də istifadə edə bilərsiniz. Cavablar alındıqdan sonra B blokuna aid olan hissə ilə, yəni mətnlə şagirdləri tanış edin. Bu vaxt İNSERT üsulundan istifadə etmək yerinə düşər. Bu üsulun tətbiqi mətnin müzakirəli oxunuşu ilə həyata keçirilir. Bu zaman C blokundakı sual və tapşırıqlar, həmçinin E blokundakı şəkillər sizin köməyinizə gələ bilər. Hər oxunan abzasın müzakirəsi aparılarsa, şagird üçün daha səmərəli nəticə göstərər.

İNSERT üsuluna uyğun olaraq, dərslikdəki mövzu oxunduqdan sonra ümumiləşdirmələr aparılmalı və qeyd olunmalıdır.

Tədqiqatın aparılması üçün isə müəllim mütləq tədqiqat sualı qoymalıdır. Aparılan tədqiqat nəticəsində «Türk və Qafqaz xalqları mədəniyyət tarixində hansı izləri qoymuşdu?» sualına cavab tapılmalıdır. Bunun üçün tədqiqata cəlb edilən şagirdlərə müəyyən tapşırıqlar verilməlidir. Tədqiqat sualı qoyulduqdan



Çap üçün deyil

sonra şagirdləri qruplara bölmək lazımdır. Bölgü apararkən daha çevik vasitələrə əl atmaq şagirdlərin marağına səbəb olar. Eyni zamanda vaxta qənət etmiş olarsınız. Bu işdə rəngli stikerlər köməyinizə çata bilər. Tədqiqatı aparmaq üçün şagirdlərə rəngli kartlardan birini seçmək təklif olunur. Qrupu 3 yerə bölməklə onlara araşdırmaq üçün tapşırıqlar vermək lazımdır. Sizin sinifdə internet və kompüter varsa, qrupları internetdə axtarışa sövq edin. Əgər belə imkanınız yoxdursa, o zaman əlavə resurslar, paylayıcı materiallardan istifadə edin. Bu resurslar vasitəsilə şagirdlər aşdırma aparıb təqdimat hazırlaya bilərlər. Təqdimat elektron variantda, yəni slaydlar şəklində də ola bilər. Flipçartdan istifadə etməklə şagirdlər öz bacarıqlarını təqdimat şəklində də nümayiş etdirə bilərlər. Tapşırıqların verilməsi zamanı C blokundakı tapşırıqlardan istifadə edə bilərsiniz.

**I qrup:** Türk xalqlarının mədəniyyətlərinin xüsusiyyətlərini izah edin.

**II qrup:** Qafqaz xalqlarının mədəniyyətini təhlil edin.

**III qrup:** Elmi kəşf və ixtiraların türk və Qafqaz xalqlarının mədəniyyətinin inkişafına təsirini izah edin.

**IV qrup:** Türk və Qafqaz xalqlarının mədəniyyət tarixində mühüm rol oynamış şəxsiyyətlər haqqında məlumatı cədvəlləşdirib təqdim edin.

Hazırlanmış cavablar təqdim olunduqdan sonra hər bir qrupun işi müzakirə edilməlidir. Mzakirə bitdikdən sonra qrupun qiymətləndirilməsi qrup qiymətləndirmə meyarı vasitəsilə aparılmalıdır. Qruplar qiymətləndirilərkən şagirdlərin iştirakına imkan yaradın.

Nəticələrin çıxarılmasında şagirdin iştirakı vacibdir. Şagirdlər dərsin sonunda standarta uyğun qoyulmuş məqsədə çatarsa, bu sizin işinizin müvəffəqiyyətindən xəbər vermiş olur.

Mövzunun sonunda verilmiş C blokundakı 8-cı tapşırığı – «Türk və Qafqaz xalqlarının mədəniyyətinə dair əlavə məlumat toplayaraq təqdimat hazırlayın» – ev tapşırığı kimi verə bilərsiniz.

**Qiymətləndirmə meyarları:** *izahetmə*

| I | II | III |
|---|---|---|
| Türk və Qafqaz xalqlarının mədəniyyətinin xüsusiyyətlərini izah etməkdə çətinlik çəkir. | Sualların köməyi ilə türk və Qafqaz xalqlarının mədəniyyətinin xüsusiyyətlərini izah edir. | Türk və Qafqaz xalqlarının mədəniyyətinin xüsusiyyətlərini asanlıqla izah edir. |
| Elmi kəşf və ixtiraların türk və Qafqaz xalqlarının mədəniyyətinin inkişafına təsirini izah etməkdə çətinlik çəkir. | Sualların köməyi ilə elmi kəşf və ixtiraların türk və Qafqaz xalqlarının mədəniyyətinin inkişafına təsirini izah edir. | Elmi kəşf və ixtiraların türk və Qafqaz xalqlarının mədəniyyətinin inkişafına təsirini asanlıqla izah edir. |



Çap üçün deyil

# AVROPA VƏ AMERİKA

## 13. «DUMANLI ALBİON» — DUMAN DAĞILIR

### I. PARLAMENT, YOXSA KRAL?

***Məzmun standartı:***

2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyişiklikləri məkanla əlaqədə izah edir.
3.1.1. Dövlətlərin yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.
4.1.1. Tarixi şəxsiyyətləri (Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet Paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar) müqayisə edir.

***Təlim məqsədi:***

1. İngiltərədə feodalizmin dağılması və kapitalist münasibətlərinin yaranmasını məkanla əlaqədə izah edir.
2. İngiltərənin idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.
3. Oliver Kromveli müqayisə edir.

***Təlim forması:***

Fərdi iş, qrup işi

***Təlim üsulu:***

Ziqzaq, karusel

Bu dərsin tədrisi zamanı A blokundakı hissə motivasiya mərhələsi üçün istifadə oluna bilər. Şagirdlərin köhnə dərslərdə öyrəndiklərini yadlarına salın. Bunun üçün açar sözlərdən istifadə edə bilərsiniz. Bu sözlər onlara yardımçı ola bilər. Şagirdlərə A blokuna aid verilmiş sualı – «Yeni dövrdə İngiltərənin həyatında daha hansı yeniliklər oldu?» verməklə müzakirəni davam etdirə bilərsiniz. Siz bu mövzunun tədrisində mühazirə üsulundan istifadə edə bilərsiniz. Səfəvi dövlətinin iqtisadi həyatı haqqında mühazirəni şagirdlərin



Çap üçün deyil

diqqətinə çatdırın. Şagirdləri C blokuna aid olan suallarla canlandırın. D blokundakı xəritə üzərində işi təşkil edin. B blokuna aid olan mətnin şagirdlər tərəfindən araşdırılması üçün ziqzaq üsulundan istifadə edə bilərsiniz. Tez bir zamanda mətni öyrənən şagirdlər tədqiqatın aparılması mərhələsinə keçməlidirlər. Bu zaman «İngiltərə burjua inqilabının tarixdəki rolu nədən ibarətdir?» sualı tədqiqat üçün münasibdir. C blokundakı tapşırıqlardan istifadə etməklə qruplara iş verə bilərsiniz. E blokundakı şəkilləri unutmayın. Şagirdlərin diqqətini şəkillər üzərinə cəlb etmək üçün suallar da verin. Əgər siz bu mövzunun tədrisi zamanı ziqzaq üsulunu tətbiq edərsinizsə, şagirdləri qruplara bölməyiniz lazım gələcək. Siz sinif sayına görə şagirdləri rəqəmləməklə qrup bölgüsünü apara bilərsiniz.

**I qrup:** İngiltərədə feodalizmin dağılması və kapitalist münasibətlərinin yaranması prosesini izah edin.

**II qrup:** İngiltərənin idarəçilik formasını və sosial-iqtisadi münasibətləri təhlil edin.

**III qrup:** Kral və parlamenti müdafiə edən qüvvələri səciyyələndirin.

**IV qrup:** Olver Kromvelin İngiltərə tarixindəki rolunu müəyyənləşdirərək müqayisələr aparın.

Mübadilə və müzakirələrdən sonra qrupların işini qiymətləndirməyi unutmayın.

Vaxtdan səmərəli istifadə edə bilsəniz karusel üsulunu da bu mövzuya tətbiq etmək olar. Siz bu üsulu tətbiq edərkən İngiltərədə baş vermiş burjua inqilabı barədə şagirdlərin fikrini öyrənə bilərsiniz.

Ev tapşırığı: C blokundakı 8-ci tapşırığı yerinə yetirin.

**Qiymətləndirmə meyarları:** *izahetmə, təhliletmə, müqayisəetmə*

| I | II | III |
|---|---|---|
| İngiltərədə feodalizmin dağılması və kapitalist münasibətlərinin yaranmasını məkanla əlaqədə izah etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə İngiltərədə feodalizmin dağılması və kapitalist münasibətlərinin yaranmasını məkanla əlaqədə izah edir. | İngiltərədə feodalizmin dağılması və kapitalist münasibətlərinin yaranmasını məkanla əlaqədə asanlıqla izah edir. |
| İngiltərənin idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə İngiltərənin idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir. | İngiltərənin idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini asanlıqla təhlil edir. |
| Oliver Kromveli müqayisə etməkdə çətinlik çəkir. | Məllimin köməyi ilə Oliver Kromveli müqayisə edir. | Oliver Kromveli asanlıqla müqayisə edir. |

Çap üçün deyil

## II. BÖYÜK BRİTANİYA KRALLIĞI NECƏ YARANDI?

***Məzmun standartı:***

2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyişiklikləri məkanla əlaqədə izah edir.
3.1.1. Dövlətlərin yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.

***Təlim məqsədi:***

1. İngiltərədə feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını izah edir.
2. Böyük Britaniyanın yaranmasını, idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.

***Təlim forması:***

Kollektiv iş, qruplarla iş

***Təlim üsulu:***

Şaxələndirmə, fasiləli oxu

Açar sözlərdən istifadə, yaxud da anlayışların çıxarılması üsulunu tətbiq etməklə bu mövzunun tədrisi və standartların reallaşdırılması üçün motivasiya yarada bilərsiniz. Şagirdlərin söylədikləri fikirləri ya lövhədə, ya da flipçartda qeyd edin. Şaxələndirmə üsulundan istifadə edərək şagirdlərə belə bir sualla da müraciət edə bilərsiniz: «Feodal mülkiyyətlərinə nələr daxil idi?». Bu sualların vasitəsilə şagirdlərin fəallaşmasına şərait yarada bilərsiniz. Çünki şagirdlər bu haqda müəyyən biliklərə malik olduqları üçün bu suala cavab verməyə çalışacaqlar.

Bu mövzunun tədrisini reallaşdırmaq üçün fasiləli oxu üsulundan istifadə edin. Şagirdlərin oxu prosesi zamanı mövzuda C blokuna aid olan: «Kromvelin qərarını nə üçün əks-inqilab kimi qiymətləndirirlər?», «İngiltərənin dövlət quruluşunda hansı dəyişikliklər baş verdi?» kimi sualları verməklə bütün sinfi mövzunun müzakirəsinə cəlb edin. Yeni materialları müzakirə edərkən şagird-



Çap üçün deyil

lərin diqqətin E blokundakı şəkillərə yönləndirmək olar. D blokundakı xəritə əsasında İngiltərənin özünə tabe etdiyi əraziləri müəyyənləşdirməyi şagirdlərə tapşırın.

Tədqiqat işinin aparılması üçün siz kollektiv iş tətbiq edə bilərsiniz. C blokunda olan suallardan istifadə etməklə fərziyyələr dinlənilir və lövhədə qeydə alınır. Bu sualların cavabını müzakirə edərkən coğrafiya fənni ilə inteqrasiya imkanlarınızı reallaşdıra bilərsiniz.

Tədqiqatın aparılması üçün «Böyük Britaniya krallığının yaranmasının tarixi şəraiti nədən ibarətdir?» sualını qoymaq olar. Bu zaman şagirdlərə mövzunun sonunda yerləşən C blokuna daxil olan tapşırığın icrasını verin. Araşdırmanı siz qruplarla apara bilərsiniz.

**I qrup:** Levellerlərin məğlubolma səbəblərini izah edin.

**II qrup:** Levellerlərlə diggerlərin baxışları arasındakı ümumi və fərqli cəhətləri araşdırın.

**III qrup:** Kromvelin özünü lord-protektor elan etməsini təhlil edin.

**IV qrup:** İngiltərədə feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını izah edin.

Qruplar öz işlərini təqdim etdikdən sonra müzakirəni davam etdirin. Nəticələrin çıxarılması mərhələsində şagirdlərin müstəqil nəticə çıxarmalarına imkan yaradın.

Ev tapşırığı C blokunda yerləşən: «Müasir İngiltərə ilə XVII əsr İngiltərəsini müqayisə edin» tapşırığı ola bilər.

Qiymətləndirməni apararkən məqsədə uyğun olaraq şagirdlərin bacarığını əsas götürmək lazımdır.

**Qiymətləndirmə meyarları:** *izahetmə, təhliletmə*

| I | II | III |
|---|---|---|
| İngiltərədə feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını izah etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə İngiltərədə feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını izah edir. | İngiltərədə feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını asanlıqla izah edir. |
| Böyük Britaniyanın yaranmasını, idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Böyük Britaniyanın yaranmasını, idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir. | Böyük Britaniyanın yaranmasını, idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini asanlıqla təhlil edir. |

Çap üçün deyil

***Məzmun standartı:***

4.1.2. Tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.
5.1.2. Elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir.

***Təlim məqsədi:***

1. Böyük Britaniyada elm və texnikanın inkişafında mühüm rol oynamış şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.
2. Böyük Britaniyada baş vermiş elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir.

***Təlim forması:***

Kollektiv iş, qruplarla iş

***Təlim üsulu:***

Beyin həmləsi, Venn, müzakirə

A blokundan istifadə etməklə motivasiyanızı qura bilərsiniz. Motivasiya zamanı elm və texnika ilə bağlı şagirdlərə suallar vermək olar. Motivasiyanın yaradılması üçün elektron material təqdim etməniz onların idraki fəallaşmasına imkan yaratmış olar. Çalışmaq lazımdır ki, verilən suallar şagirdlərin prosesləri təhlil etməsinə imkan yaratsın. Motivasiyanın reallaşmasına ayırdığınız 5 dəqiqədən sonra tədqiqatın aparılması mərhələsini reallaşdırmaq gərəkdir.

Tədqiqat sualı «Böyük Britaniya elm və texnikanın inkişafına hansı töhfələri verdi?» ola bilər.

B blokuna aid olan məzmun hissə geniş olduğundan tədqiqatı qruplarla aparmaq daha məqsədəuyğundur. Təlimi təşkil etmək üçün strategiyalarınızı düzgün müəyyənləşdirməlisiniz. Bu dərsin keçirilməsində müxtəlif iş formalarından da istifadə etmək mümkündür. Dərsdə Venn diaqramı, müzakirə kimi üsullardan istifadə etmək olar. Dərs üçün nəzərdə tutulmuş resursları isə əvvəlcədən müəyyənləşdirməlisiniz. Standartları nəzərə almaqla B blokundakı yeni bilikləri şagirdlərə oxutdurmaq da olar. Bu prosesi həyata keçirərkən C blokuna aid olan sual və tapşırıqlardan istifadə etmək işin səmərəliliyini artırar. E blokuna aid olan şəkillər elmi-texniki kəşflər və bu kəşfləri edən alimlər haqqında fikirləri şagirdlərdə formalaşdırmağa kömək etmiş olacaqdır.

Çap üçün deyil

Tədqiqatın aparılması üçün şagirdlərə problemlə bağlı paylama materialları paylamaq məqsədəuyğun olardı. Qruplara aşağıdakı tapşırıqları vermək olar:

**I qrup:** Böyük Britaniya dünyanın birinci sənaye dövlətinə necə çevrildi? İzah edin.

**II qrup:** Manufakturadan fabrikə doğru çevrilişin hansı sosial nəticələri oldu? Təhlil edin.

**III qrup:** Böyük Britaniyada elm və texnikanın inkişafında mühüm rol oynamış şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayın.

**IV qrup:** Böyük Britaniyada baş vermiş elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edin.

Mübadilə zamanı qrup liderləri verilən tapşırıqları təqdim etsələr, daha yaxşı olar. Müzakirə zamanı siz C blokundakı sual və tapşırıqlardan istifadə edə bilərsiniz. Qrupların qiymətləndirilməsini mütləq həyata keçirin.

Əgər vaxtınız olarsa, şəxsiyyətləri kollektivlə birgə Venn diaqramı vasitəsilə müqayisə də etdirə bilərsinz. Nəticəyə gəlmək üçün bu üsulun tətbiqi də köməkçi vasitə ola bilər.

Şagirdlərdə bilik və bacarıqların möhkəmlənməsi üçün ev tapşırığı köməkçi vasitədir. Ev tapşırığı həm fərdi, həm də qrup şəklində verilə bilər. C blokundakı 2-ci tapşırığı – «XVIII əsr ixtiraçıları barədə məlumatlar toplayın və onlar haqqında 5 dəqiqəlik slayd hazırlayın» – ev tapşırığı verə bilərsiniz.

Qiymətləndirmə bütün dərs boyu və meyarlara görə müəyyənləşdirilməlidir.

**Qiymətləndirmə meyarları:** *cədvəlhazırlama, izahetmə*

| I | II | III |
|---|---|---|
| Böyük Britaniyada elm və texnikanın inkişafında mühüm rol oynamış şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlamaqda çətinlik çəkir. | Müəllimin köməyi ilə Böyük Britaniyada elm və texnikanın inkişafında mühüm rol oynamış şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır. | Böyük Britaniyada elm və texnikanın inkişafında mühüm rol oynamış şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəli sərbəst hazırlayır. |
| Böyük Britaniyada baş vermiş elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah etməkdə çətinlik çəkir. | Sualların köməyi ilə Böyük Britaniyada baş vermiş elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir. | Böyük Britaniyada baş vermiş elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini asanlıqla izah edir. |

Çap üçün deyil

## 14. ŞİMALİ AMERİKADA «YENİ İNGİLTƏRƏ»

### I. ŞİMALİ AMERİKADA YENİ HƏYAT

***Məzmun standartı:***

1.1.3. Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.
2.1.2. Dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.

***Təlim məqsədi:***

1. Şimali Amerikada baş vermiş hadisələr arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.
2. Şimali Amerikanın həyatında baş verən dəyişiklikləri xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.

***Təlim forması:***

Kollektiv iş, qruplarla iş

***Təlim üsulu:***

Beyin həmləsi, fasiləli oxu

Şagirdlərdə idraki fəallıq yaratmaq üçün A blokunda verilmiş motivasiyanı onlardan birinə oxuda bilərsiniz. Şagirdlərə A bloku üçün nəzərdə tutulmuş və B blokunda verilmiş suallara: – «Amerikada yerli gəlmələrin toqquşmaları nə ilə nəticələndi?», «Şimali Amerikada yeni həyat necə başladı?» – cavab vermək üçün bir neçə dəqiqə vaxt verin. Şagirdlərin verdiyi cavablar lövhədə, yaxud da flipçartda qeyd olunarsa, daha məqsədəuyğun hal olar. Cavablar alındıqdan sonra fasiləli oxu üsulundan istifadə edərək B blokuna aid olan yeni bilikləri şagirdlərə oxutdura bilərsiniz. Hər oxunan abzasın müzakirəsi aparılarsa, şagird daha səmərəli nəticə göstərər. Şagirdlərin diqqətini problemin araşdırılmasına doğru yönləndirmək olar. C blokunda yerləşən suallardan istifadə etməklə də şagirdləri müzakirəyə cəlb etmək olar. E blokunda olan şəkil və illüstrasiyalara şagirdlərin diqqətini çəkməklə onların münasibətlərini öyrənin. D blokundakı xəritə və sxem dərsin mənimsənilməsi üçün tutarlı köməkdir. Şagirdlərin xəritə üzərində işə cəlb olunması Şimali Amerika haqqında geniş təsəvvürlərin formalaşmasına şərait yaradacaqdır.



Çap üçün deyil

Tədqiqat isə «Şimali Amerikada ingilis məskənlərinin salınmasından sonra vəziyyət necə oldu?» sualı ətrafında aparılmalıdır. Bunun üçün də şagirdləri tədqiqata cəlb etməklə müəyyən tapşırıqlar verilməlidir. Tədqiqat sualı qoyulduqdan sonra şagirdləri qruplara bölmək lazımdır. Bölgü apararkən daha çevik və maraqlı vasitələrə əl atın. Eyni zamanda vaxta qənaət etmiş olarsınız. Qrupu 4 yerə bölmək olar. Qrupların adını araşdıracaqları problem və yerinə yetirəcəkləri tapşırıqla bağlı qoysanız məqsədəmüvafiq olar. Tədqiqatın aparılması üçün C blokundakı tapşırıqlardan istifadə etmək olar. Çalışmaq lazımdır ki, seçdiyiniz tapşırıqlar qruplara qoyduğunuz adlarla bağlılıq yaratsın. Şagirdlərə tədqiqatla bağlı sxem və ya cədvəl hazırlamağı da tapşıra bilərsiniz. Əgər siz yuxarıda verilmiş standartları bu dərsiniz üçün seçmiş olsanız, mütləq çalışmaq lazımdır ki, standartdan çıxan məqsədləriniz reallaşsın. Hazırlanmış cavablar təqdim olunduqdan sonra hər bir qrupun işi müzakirə edilməli və qiymətləndirmələr aparılmalıdır. Nəticələrin çıxarılmasında şagirdin iştirakı vacibdir. C blokundakı 8-ci tapşırığı – «Qacarın yürüşlərinə qarşı mübarizə haqqında esse yazın» – ev tapşırığı kimi verə bilərsiniz. Yaxud da sinifdə reallaşdırılmayan tapşırıqlardan biri şagirdlərə ev tapşırığı ola bilər. Lakin veriləcək tapşırıq yarım qalmış problemi həll etmək üçün deyil, şagirdlərin bilik və bacarıqlarının inkişafı üçün şərait yaratmalıdır.

Formativ qiymətləndirmənin reallaşdırılması, əslində, bütün dərs boyu aparılmalıdır. Qiymətləndirmə məqsədəuyğun meyar əsasında reallaşdırılmalıdır.

**Qiymətləndirmə meyarları:** *cədvəltərtibetmə, xəritəköçürmə*

| I | II | III |
|---|---|---|
| Şimali Amerikada baş vermiş hadisələr arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Şimali Amerikada baş vermiş hadisələr arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir. | Şimali Amerikada baş vermiş hadisələr arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəlləri sərbəst tərtib edir. |
| Şimali Amerikanın həyatında baş verən dəyişiklikləri xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Şimali Amerikanın həyatında baş verən dəyişiklikləri xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür. | Şimali Amerikanın həyatında baş verən dəyişiklikləri xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə sərbəst köçürür. |

Çap üçün deyil

***Məzmun standartı:***

3.1.1. Dövlətlərin yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.
3.1.2. Yeni tipli dövlətlərin qeyri-bərabər inkişafına aid esse yazır.
4.1.1. Tarixi şəxsiyyətləri (Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet Paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar) müqayisə edir.

***Təlim məqsədi:***

1. ABŞ-ın yaranmasını, idarəçilik formasını təhlil edir.
2. ABŞ-la İngiltərənin qeyri-bərabər inkişafına aid esse yazır.
3. Corc Vaşinqtonla Benjamin Franklini müqayisə edir.

***Təlim forması:***

Fərdi və qruplarla iş

***Təlim üsulu:***

Beyin həmləsi, müzakirə, Venn

Faktları araşdıraraq ABŞ-ın yaranmasını, idarəçilik formasını təhlil etmək, ölkənin istiqlaliyyəti uğrunda mübarizə aparmış şəxsiyyətləri müqayisə etmək, ABŞ-ın inkişafını özündə əks etdirən esse yazmağı şagirdlərdə bacarığa çevirmək müəllimin seçdiyi üsul və formadan asılı ola bilər. Mövzunun tədrisi zamanı köhnə bilik və bacarıqları sistemli şəkildə üzə çıxarmaq üçün düzgün yönləndirici suallar vermək gərəkdir. A blokunda verilmiş motivasiya şagirdlərin fəallaşmasına səbəb ola bilər. Beyin həmləsi üsulunu tətbiq etməklə motivasiyanın uğurlu olmasına şərait yaratmış olarsınız. ABŞ-ın yaranması haqqında məlumatı B blokunda əksini tapmış yeni məlumatlarla əldə edə bilərlər. Fasiləli oxu üsulundan istifadə etməklə şagirdlərə hissə-hissə mövzunu oxudun. C blokunda verilmiş olan sual və tapşırıqları məqamında şagirdlərin müzakirəsinə versəniz daha səmərəli olar. Aydın olmayan hissələr üzərində dayan-

Çap üçün deyil

maqla müzakirələr aparmaq tövsiyə olunur. D blokunda olan xəritə və sxemi şagirdlərin müzakirəsinə verin. Şagirdlərin xəritə üzərində işə cəlb olunması ABŞ haqqında geniş təsəvvürlərin formalaşmasına şərait yaradacaqdır. Bu mövzunun reallaşdırılmasında coğrafiya fənni ilə inteqrasiya mümkündür. Unutmayın ki, inteqrasiya seçimi sizin özünüzdən asılıdır. Metodik vəsaitin əvvəlində inteqrasiya ilə bağlı verilmiş hissədə fənlərarası inteqrasiya imkanları sizə təqdim olunub. Hər dərsdə bu inteqrasiya imkanından istifadə etməyi unutmayın. Fəal-interaktiv dərs üçün bu zəruridir. E blokundakı şəkil və illüstrasiyalar dərsin mənimsənilməsi üçün əyani köməkdir.

Tədqiqat sualı «ABŞ-ın yaranmasının tarixdə rolu və yeri nədən ibarətdir?» ola bilər.

Bu zaman şagirdlərə iş vərəqləri paylayın. İş vərəqləri hazırlayarkən C blokundakı tapşırıqlardan istifadə edə bilərsiniz. Tədqiqatın aparılması üçün tapşırıqları verərkən sinfinizdəki şagirdlərin bilik və bacarıqlarını nəzərə alın. Həmçinin qrupların iş bölgüsü bərabər bölünməli, şagirdlərin verilən vaxt müddətində tapşırığı yerinə yetirməsi bacarığı nəzərə alınmalıdır.

Tədqiqat işi başa çatdıqdan sonra mübadilə və müzakirə mərhələsini təşkil edin. Gəlinən nəticələri şaxələndirmə şəklində verə bilərsiniz.

Kollektiv və ya fərdi olaraq «Venn diaqramı vasitəsilə şəxsiyyətləri müqayisə edin» tapşırığını da verə bilərsiniz. Fərdi şəkildə şagirdlərə «ABŞ-la İngiltərənin qeyri-bərabər inkişafına aid esse yazın» tapşırığı vermək olar.

Ev tapşırığı C blokundakı 5-ci tapşırıq, yəni: «İstiqlaliyyət uğrunda müharibələrin əhəmiyyəti adlı esse yazın» ola bilər.

**Qiymətləndirmə meyarları:** *təhliletmə, esseyazma, müqayisəetmə*

| I | II | III |
|---|---|---|
| ABŞ-ın yaranmasını, idarəçilik formasını təhlil etməkdə çətinlik çəkir. | Sualların köməyi ilə ABŞ-ın yaranmasını, idarəçilik formasını təhlil edir. | ABŞ-ın yaranmasını, idarəçilik formasını asanlıqla təhlil edir. |
| ABŞ-la İngiltərənin qeyri-bərabər inkişafına aid sərbəst esse yazmaqda çətinlik çəkir. | Köməkdən istifadə etməklə ABŞ-la İngiltərənin qeyri-bərabər inkişafına aid esse yazır. | ABŞ-la İngiltərənin qeyri-bərabər inkişafına aid sərbəst esse yazır. |
| Corc Vaşinqtonla Benjamin Franklini müqayisə etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Corc Vaşinqtonla Benjamin Franklini müqayisə edir. | Corc Vaşinqtonla Benjamin Franklini asanlıqla müqayisə edir. |



Çap üçün deyil

## 15. «DAXMALARA SÜLH — SARAYLARA MÜHARİBƏ»

### I. FRANSA İNQİLABININ MÜJDƏÇİLƏRİ

***Məzmun standartı:***

4.1.2. Tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.

***Təlim məqsədi:***

1. Fransa maarifçilərinin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.

***Təlim forması:***

Fərdi və qruplarla iş

***Təlim üsulu:***

Anlayışların çıxarılması, müzakirə

Mövzunun tədrisi zamanı şagirdlərin diqqətini Fransa dövlətinin siyasi həyatına, eləcə də ölkədə hərc-mərcliyə səbəb olan amillərə yönləndirin. Bu zaman A blokundakı materialdan istifadə etmək olar. Anlayışların çıxarılması üsulundan istifadə etməklə motivasiyanı reallaşdıra bilərsiniz. Açar sözlərdən istifadə etməklə də şagirdləri motivasiyaya sövq etmək olar. Suallara cavab verən şagirdlərin fikirlərini dinləyin. Onların dediyi fikir səhv belə olsa, sonadək dinləməniz vacibdir. Şagird onun söylədiyi fikrə hörmətlə yanaşıldığını gördükdə daha çox fəallaşmaya meyilli olur. Əks təqdirdə şagirdin stimullaşması baş tutmaz, onu uğursuzluq qorxusu daim təqib edər. Cavablar alındıqdan sonra İNSERT üsulundan istifadə edərək B blokundakı mətnlə şagirdləri tanış edə bilərsiniz.

E blokuna aid şəkillərin köməyi ilə şagirdlər Fransa maarifçiləri ilə tanış olacaqlar. Şəxsiyyətlərin şəklini görmək şagirdlərə daim maraqlı olmuşdur. Çünki onlar haqqında təsəvvürləri formalaşdırmaq biliklərin daha da möhkəmlənməsinə, bacarıqların isə üzə çıxmasına yardımçı olur. C blokundakı suallar yeni biliklərin mənimsənilməsi üçün kömək olacaqdır.

Tədqiqat isə «Fransa maarifçilərinin Fransa tarixində oynadığı rol nədən ibarət idi?» sualı ətrafında ola bilər. Tədqiqatı qrup, kollektiv, fərdi və cütlərlə iş formalarının hər birində aparmaq olar. Sizə tövsiyə olaraq qeyd edək ki, təd-



Çap üçün deyil

qiqat məqsədə çatmaq və standartların tələb etdiyi bilik və bacarıqlara yiyələnmək üçün aparıldığı üçün çalışın verdiyiniz tapşırığı məqsədinizə və tədqiqat sualınıza uyğunlaşdırın. Bəzən kurikulum islahatını qruplarla iş kimi başa düşürlər. Demək olar ki, bütün dərsləri qrupla iş formasında həyata keçirirlər. Lakin bu belə deyil. Fəal təlim mühiti yaratmaqla bütün iş formalarını öz dərsinizdə tətbiq etmək imkanına maliksiniz. Əsas odur standartlara uyğun qoyduğunuz məqsədə çata biləsiniz.

Şagirdlərə fərdi iş kimi şəxsiyyətlər haqqında məlumatı cədvəldə yerləşdirməyi tapşıra bilərsiniz.

Əgər qrup işini reallaşdırsanız o zaman qrupu 4 yerə bölə bilərsiniz. İş vərəqlərini hazırlayarkən C blokundakı tapşırıqlardan istifadə etmək olar.

Hazırlanmış cavabları verdiyiniz vaxt bitdikdən sonra toplayın. Sizin sinifdə hansısa qrup tapşırığın icrası zamanı gecikə bilər. Buna baxmayaraq, yarım qalmış işi də toplamaq lazımdır. Çünki qrup işinin özünəməxsus qaydaları vardır. O qaydalara əməl edilməzsə, dərsin səmərəliliyi itər, qrup meyar cədvəlinə ehtiyac olmaz. Bəzənsə belə hallarla da rastlaşmış oluruq. Qruplardan biri işini bir qədər tez qurtarır. Digər qruplar işini bitirməmiş müəllim işini tez bitirmiş qrupun təqdimatını dinləyir. Bu hal təlim prosesində nöqsanlı vəziyyətlərdən biridir. Qrupların işi bütün sinfə təqdim olunmalıdır. Fərqli işlər şagirdlərin birgə qərar verib nəticəyə gəlməsinə şərait yaradır.

C blokundakı 4-cü tapşırıq ev tapşırığı kimi verilə bilər.

Qiymətləndirmə apararkən özünüqiymətləndirmə vərəqlərindən də istifadə edə bilərsiniz.

**Qiymətləndirmə meyarları:** *cədvəlhazırlama*

| I | II | III | IV |
|---|---|---|---|
| Fransa maarifçilərinin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlamaqda çətinlik çəkir. | Fransa maarifçilərinin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayarkən müəllimin köməyindən istifadə edir. | Fransa maarifçilərinin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır. | Fransa maarifçilərinin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəli sərbəst hazırlayır. |

Çap üçün deyil

## II. JİRONDİSTLƏR VƏ YAKOBİNÇİLƏR

***Məzmun standartı:***

2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyişiklikləri məkanla əlaqədə izah edir.
3.1.2. Yeni tipli dövlətlərin qeyri-bərabər inkişafına aid esse yazır.

***Təlim məqsədi:***

1. Fransada feodalizm quruluşunun dağılması və kapitalist münasibətlərinin yranmasını əlaqəli şəkildə izah edir.
2. Fransanın inkişafını digər dövlətlərin həyatı ilə fərqləndirərək esse yazır.

***Təlim forması:***

Fərdi və qruplarla iş

***Təlim üsulu:***

Fasiləli oxu, Venn, suallar

Motivasiya zamanı siz müxtəlif şəkillərdən, açar sözlərdən, yaxud da suallardan istifadə edə bilərsiniz. Fasiləli oxu üsulunu tətbiq etməklə B blokuna aid olan hissələri şagirdlərə oxudun. Yeni mövzu ilə tanış olan şagirdləri müzakirələrə cəlb etmək dərsi daha da fəal edər. Onlara əvvəllər öyrəndikləri faktlardan suallar verərək müqayisələr aparın. D blokuna aid olan xəritə üzərində işi kollektivlə birgə aparın. Bu xəritə vasitəsilə Fransanın ərazisini müəyyənləşdirə bilərlər. E blokuna aid olan şəkillər əyani vasitə kimi şagirdlərin nəzərinə çatdırılsın. Yaxud da dövrlə əlaqəli suallar da verə bilərsiniz. Müqayisələr aparmağa şərait yaradın.

Çap üçün deyil

Jirondistlərlə Yakobinçilər arasındakı oxşar və fərqli cəhətləri Venn diaqramının köməyindən istifadə etməklə müqayisə edin.




Tədqiqatı aparmaq üçün tədqiqat sualını verməyi unutmayın. Tədqiqat sualı – «XVIII əsrin sonlarının Fransanın tarixindəki rolu nədən ibarətdir?» ola bilər.

Bu tədqiqatın aparılmasında mövzunun sonunda yerləşdirilən C blokunda verilmiş tapşırıqları qruplara vermək olar.

Bunun üçün sinfi 3 qrupa bölmək olar.

**I qrup:** Fransada feodalizm quruluşunun dağılması və kapitalist münasibətlərinin yranmasını əlaqəli şəkildə izah edin.

**II qrup:** Fransanın inkişafını digər dövlətlərin həyatı ilə fərqləndirərək esse yazın.

**III qrup:** Yakobin diktaturasının mahiyyətini açın.

Tapşırığın icrası və qrup liderlərinin təqdimatı bitdikdən sonra müzakirə aparmaq daha yaxşı olar.

Şagirdlərə C blokunda olan suallardan istifadə etməklə də suallar verin. Fərdi bacarıqların üzə çıxması üçün «Fransada inqilab adlı esse» yazmağı tapşıra bilərsiniz. Vaxtın məhdudluğunu nəzərə alaraq essenin həcminin təxmini də olsa nə qədər olacağını şagirdlərə bildirin.

Ev tapşırığı «Fransa burjua inqilabı haqqında araşdırma aparıb təqdimat hazırlayın» ola bilər. Təbii ki, bu tapşırıqları verərkən siz sinfinizin imkanlarını nəzərə almalısınız.

Qiymətləndirmə məqsədə uyğun müəyyənləşdirilmiş meyar əsasında aparılır.

Şagirdlərə özünüqiymətləndirmə vərəqi də paylamaq olar.

| Tapşırığı tam və düzgün yerinə yetirdim | Dərsdə diqqətli idim | Məntiqli yanaşmam var idi | Sual-cavabda aktiv idim | Əməkdaşlıq etdim | Etiket qaydalarına əməl etdim |
|---|---|---|---|---|---|
| | | | | | |

Çap üçün deyil

**Qiymətləndirmə meyarları:** *izahetmə, esseyazma*

| I | II | III |
|---|---|---|
| Fransada feodalizm quruluşunun dağılması və kapitalist münasibətlərinin yaranmasını əlaqəli şəkildə izah etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Fransada feodalizm quruluşunun dağılması və kapitalist münasibətlərinin yaranmasını əlaqəli şəkildə izah edir. | Fransada feodalizm quruluşunun dağılması və kapitalist münasibətlərinin yaranmasını əlaqəli şəkildə sərbəst izah edir. |
| Fransanın inkişafını digər dövlətlərlə fərqləndirərək esse yazmaqda çətinlik çəkir. | Sualların köməyi ilə Fransanın inkişafını digər dövlətlərin həyatı ilə fərqləndirərək esse yazır. | Fransanın inkişafını digər dövlətlərin həyatı ilə müstəqil şəkildə fərqləndirərək esse yazır. |

## III. TERMİDORÇULAR VƏ NAPOLEON BONAPART

***Məzmun standartı:***

2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyişiklikləri məkanla əlaqədə izah edir.
3.1.2. Yeni tipli dövlətlərin qeyri-bərabər inkişafına aid esse yazır.
4.1.2. Tarixi şəxsiyyətlərin oxşar və fərqli cəhətləri ilə bağlı cədvəl hazırlayır.

***Təlim məqsədi:***

1. Fransada baş vermiş iqtisadi, sosial dəyişiklikləri izah edir.
2. Fransanın inkişafına aid esse yazır.
3. Napoleon Bonapartın digər tarixi şəxslərlə oxşar və fərqli cəhətlərinə aid cədvəl hazırlayır.

***Təlim forması:***

Kollektiv və fərdi iş

***Təlim üsulu:***

Beyin həmləsi, Sokrat debatı, Venn

Çap üçün deyil

Bu mövzunun tədrisi üçün beyin həmləsindən istifadə edərək motivasiyanı qura bilərsiniz. Bu zaman siz suallardan da istifadə edə bilərsiniz. Fransanın araşdırılacaq bu dövrü haqqında müxtəlif filmlər çəkildiyi üçün siz Napoleon Bonapart filmindən bir epizod göstərə bilərsiniz. Yaxud da «Napoleon» əsərindən bir parçanı oxuya bilərsiniz. Sonra şagirdlərə müxtəlif suallar verməklə onları tədqiqata sövq edin. B blokuna aid hissəni şagirdlərə oxutduqdan sonra onlara C blokunda əksini tapmış sualları verə bilərsiniz. E bloku üçün nəzərdə tutulmuş şəkillər dərsin gedişinin maraqlı və canlı olması üçün vasitə ola bilər. D blokuna aid xəritə üzərində işi təşkil edin. Şagirdlər Napoleon Bonapartın işğal etdiyi əraziləri xərtə vasitəsilə təsvir etmək imkanına malik olsunlar.

Mövzunun müzakirəsi zamanı şagirdlərin diqqətini «9 termidor», «direktoriya», «konsulluq» kimi sözlərə cəlb edin. Onlarla bu anlayışın hansı məqsədlə istifadə olunmasını müzakirə edin. Bütün bu yeni sözlərin təhlili vacibdir.

Tədqiqatın aparılması məqsədilə tədqiqat sualını elan edin. Həmçinin onu ya lövhədə, ya da flipçartda yazaraq diqqət mərkəzində saxlayın. Şagirdlər tədqiqatın sonunda bu suala cavab tapdıqlarını bildikləri üçün məqsəddən kənarlaşmasınlar.

Tədqiqat sualı «Termidorçuların və Napoleon Bonapartın Fransa tarixində rolu nədən ibarət olmuşdu?» ola bilər. Tədqiqat sualına cavab tapmaq üçün şagirdləri cütlərdə işlətmək olar. C blokuna aid sualları cütlərə verə bilərsiniz. Onların yazdıqları cavabları müzakirə edin.

Cüt işini verərkən qiymətləndirmə aparmağı unutmayın. Aşağıdakı meyarları nəzərə alın.

| **Cütlərdə işləyən şagirdlərin adı** | **Fəallıq səviyyəsi (zəif, orta, yüksək)** | **Əməkdaşlıq etmə** | **Qaydalara əməl olunması** | **Tapşırığın icrası zamanı müzakirə etmə** | **Ümumi rəyə gəlmə** |
|---|---|---|---|---|---|
| İmran | | | | | |
| Uğur | | | | | |

Bu mövzunu araşdırarkən debat üsulunu da tətbiq etmək olar. Fransanın bu dövrü debat üçün ideal seçimdir. Debat qaydalarını şagirdlərə elan edin. Müzakirələrin çərçivədən çıxmamasına nəzarəti saxlamaq üçün qızıl qaydalar tərtib etməniz yerinə düşər.

Çap üçün deyil

Əgər bu mövzunun tədrisi üçün «3.1.2. Yeni tipli dövlətlərin qeyri-bərabər inkişafına aid esse yazır» standartını seçmisinizsə, o zaman esse yazmağı sinifdə reallaşdırmaq vacibdir. Çünki sizin məqsədiniz şagirdlərdə qazandıqları biliklər əsasında esse yazmaq bacarığını formalaşdırmaqdır.

Mövzunun sonunda C blokuna aid tapşırıqların sinifdə reallaşdırılmasına şərait yarada bilərsiniz. Şagirdlərin sxem və cədvəl tərtib etmə bacarıqlarını formalaşdırmaq üçün onlara fərdi tapşırıqlar verin. Dövrə aid əlavə mənbələr və ya məlumatları paylayıcı material kimi şagirdlərə versəniz işin səmərəli olması üçün imkan açmış olacaqsız.

Ev tapşırığı kimi «Napoleon Bonapart haqqında esse yazın» vermək olar.

**Qiymətləndirmə meyarları:** *izahetmə, esseyazma, cədvəlhazırlama*

| I | II | III | III |
|---|---|---|---|
| Fransada baş vermiş iqtisadi, sosial dəyişiklikləri izah etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Fransada baş vermiş iqtisadi, sosial dəyişiklikləri izah edir. | Fransada baş vermiş iqtisadi, sosial dəyişiklikləri izah edir. | Fransada baş vermiş iqtisadi, sosial dəyişiklikləri asanlıqla izah edir. |
| Fransanın inkişafına aid esse yazmaqda çətinlik çəkir. | Müəllimin köməyi ilə Fransanın inkişafına aid esse yazır. | Fransanın inkişafına aid esse yazır, lakin faktlarda bəzi səhvlər edir. | Fransanın inkişafına aid sərbəst esse yazır. |
| Napoleon Bonapartın digər tarixi şəxsiyyətlərlə oxşar və fərqli cəhətlərinə aid cədvəl hazırlamaqda çətinlik çəkir. | Müəllimin köməyi ilə Napoleon Bonapartın digər tarixi şəxsiyyətlərlə oxşar və fərqli cəhətlərinə aid cədvəl hazırlayır. | Napoleon Bonapartın digər tarixi şəxsiyyətlərlə oxşar və fərqli cəhətlərinə aid cədvəl hazırlayır. | Napoleon Bonapartın digər tarixi şəxsiyyətlərlə oxşar və fərqli cəhətlərinə aid asanlıqla cədvəl hazırlayır. |

Çap üçün deyil

## 16. RUSİYA İMPERİYASI YENİ DÖVRÜN ASTANASINDA

### I. RUSİYANIN İLK İMPERATORU

***Məzmun standartı:***

3.1.1. Dövlətlərin yaranmasını, idarəçilik formalarını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.
4.1.1. Tarixi şəxsiyyətləri (Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet Paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar) müqayisə edir.

***Təlim məqsədi:***

1. Rusiyanın idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir.
2. I Pyotru digər tarixi şəxsiyyətlərlə müqayisə edir.

***Təlim forması:***

Kollektiv iş, qruplarla iş

***Təlim üsulu:***

Beyin həmləsi, fasiləli oxu

Mövzunun tədrisi zamanı müxtəlif sualların köməyi ilə şagirdlərin diqqətini Rusiyaya və onun inkişafına səbəb olan amillərə yönləndirin. Motivasiya zamanı A blokundan istifadə etməklə suallar da vermək olar. C blokuna aid «I Pyotrun hakimiyyətə gəlməsi ilə Rusiyada həyat necə dəyişdi?» sualını verməklə şagirdlərin diqqətini problemin araşdırılmasına doğru yönləndirmək olar. Cavablar alındıqdan sonra fasiləli oxu üsulundan istifadə edərək B blokuna aid yeni məlumatları şagirdlərə oxutdura bilərsiniz. Hər oxunan abzasın müzakirəsi aparılarsa, şagird daha səmərəli nəticə göstərər. Müzakirələr zamanı C blokundakı suallardan istifadə edin. E blokuna aid şəkillərin müzakirəsini də təşkil edin. D blokuna aid xəritənin üzərində iş zəruridir. Xəritəyə əsasən Rusiyanın əhatə etdiyi torpaqları şagirdlərin müəyyənləşdirməsinə şərait yaradın.

Çap üçün deyil

Tədqiqat isə «I Pyotrun Rusiya tarixindəki rolu nədən ibarətdir?» sualı ətrafında aparılmalıdır. Bunun üçün də şagirdləri tədqiqata cəlb etməklə müəyyən tapşırıqlar verilməlidir. Tədqiqat sualı qoyulduqdan sonra şagirdləri qruplara bölmək lazımdır. Bölgü apararkən daha çevik və maraqlı vasitələrə əl atmağa çalışın. Bu vaxtınıza qənaət üçün səmərə verər. Qrupu 4 və ya daha çox hissəyə bölmək olar. Tədqiqatın aparılması üçün C blokundakı tapşırıqlardan istifadə etmək olar.

Hazırlanmış cavablar təqdim olunduqdan sonra hər bir qrupun işi müzakirə edilməli və qiymətləndirmələr aparılmalıdır. Nəticələrin çıxarılmasında şagirdin iştirakı vacibdir. C blokundakı 7-ci tapşırıq – «Rusiyada idarəçilik formasına aid təqdimat hazırlayın» – ev tapşırığı kimi verilə bilər.

Formativ qiymətləndirmənin reallaşdırılması, əslində, bütün dərs boyu aparılmalıdır. Qiymətləndirmə məqsədə uyğun meyar əsasında reallaşdırılmalıdır.

**Qiymətləndirmə meyarları:** *təhliletmə, müqayisəetmə*

| I | II | III | IV |
|---|---|---|---|
| Rusiyanın idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil etməkdə çətinlik çəkir. | Sualların köməyi ilə Rusiyanın idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir. | Rusiyanın idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edir. | Rusiyanın idarəçilik formasını, siyasi, sosial-iqtisadi münasibətlərini asanlıqla təhlil edir. |
| I Pyotru digər tarixi şəxsiyyətlərlə müqayisə etməkdə çətinlik çəkir. | Sualların köməyi ilə I Pyotru digər tarixi şəxsiyyətlərlə müqayisə edir. | I Pyotru digər tarixi şəxsiyyətlərlə müqayisə edir, lakin faktlarda səhv edir. | I Pyotru digər tarixi şəxsiyyətlərlə asanlıqla müqayisə edir. |

Çap üçün deyil

***Məzmun standartı:***

1.1.2. Oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəllər tərtib edir.
2.1.2. Dövlətlərin və xalqların həyatında baş verən ərazi dəyişikliklərini xəritə və sxemlərdəki məlumatlar əsasında kontur xəritələrə köçürür.
4.1.1. Tarixi şəxsiyyətləri (Oliver Kromvel, Maksimilian Robespyer, I Pyotr, II Yekaterina, Corc Vaşinqton, Benjamin Franklin, Köprülü Mehmet Paşa, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar) müqayisə edir.

***Təlim məqsədi:***

1. Dövrə aid sinxron cədvəllər tərtib edir.
2. Məlumatlara əsasən Rusiyanın işğalları nəticəsində baş verən ərazi dəyişikliklərini kotur xəritəyə köçürür.
3. II Yekaterinanı I Pyotrla müqayisə edir.

***Təlim forması:***

Fərdi iş

***Təlim üsulu:***

Beyin həmləsi, fasiləli oxu, mühazirə

Mövzuya giriş üçün «beyin həmləsi» üsulunu tətbiq etmək olar. Müəllim sinfin qarşısında məsələ qoyur və bütün iştirakçılara bu məsələ barədə öz fikirlərini bildirməyi təklif edir. İdeyaların çoxluğu bu üsul üçün əsas məqsəd deyil, lakin bu problemin ən optimal həllinin tapılması, yaxud sadəcə olaraq ən səmərəli qərarın çıxarılması üçün şərait yaradır. Bu üsulun tətbiqi zamanı şagirdlər bəzən müəllimin ağlına belə gəlməyən orijinal ideyalar irəli sürə bilərlər. «Beyin həmləsi»nin keçirilməsi üçün bir sıra qaydalara əməl etmək lazımdır:

- irəli sürülən ideyalar qiymətləndirilmir və tənqid olunmur;
- məqsəd keyfiyyət deyil, kəmiyyətdir: nə qədər çox ideya olsa, o qədər yaxşıdır;
- istənilən ideyanı inkişaf etdirmək olar;
- ən orijinal, qeyri-adi ideyalar xüsusilə dəstəklənir;
- bütün ideyalar lövhədə və ya vatman kağızında müəllim tərəfindən qeyd olunur.

Çap üçün deyil

«Beyin həmləsi» qoyulmuş problemin çıxılmaz həllini tapmağa imkan verir. Bu üsul öz qüvvələrinə əmin olmayan şagirdlərin stimullaşdırılması üçün əhəmiyyətli vasitədir.

Müxtəlif şəkillərin təqdimatı ilə də motivasiya qurmaq olar. Bu şəkillər II Yekaterinanın, Ağa Məhəmməd şah Qacarın və s. ola bilər. Bu mövzunun tədrisi bir qədər asan olacaqdır. Çünki Azərbaycan tarixi dərsindən II Yekaterinanın Qafqaz və Azərbaycan üçün düşündüyü məkrli planları şagirdlər müəyyən qədər araşdırmışlar.

Tədqiqat üçün «Rusiyanın dənizlər uğrunda mübarizəsinin nəticəsi nədən ibarət oldu?» sualını vermək olar. Əgər siz mühazirə üsulunu seçmisinizsə, o zaman dövrün mənzərəsini şagirdlərə mühazirə vasitəsilə çatdıra bilərsiniz. Yaxud da hazırladığınız elektron təqdimatı şagirdlərə təqdim edin. Mütləq təqdimatı müzakirəyə qoyun.

Siz «fasiləli oxu» üsulundan istifadə etməklə B blokundakı mətnlə şagirdləri tanış da edə bilərsiniz. Aydın olmayan hissələrdə dayanmaqla şagirdlərin məlumat bazasını artırın, C blokuna aid suallar vasitəsilə tənqidi yanaşmalar üçün imkan yaradın. Hadisələrdən məntiqi nəticə çıxarmağı onlarda bacarığa çevirin. D və E blokundakı materiallarla tanışlıq dərsin səmərəli reallaşmasına xidmət edər. Tədqiqatın aparılması zamanı şagirdlər C blokunda verilmiş tapşırıqlardan istifadə edə bilərlər. Fərdi işi variantlaşdırıb vermək olar.

Yaradıcı tətbiqetmə və ya ev tapşırığı mərhələsində «İşğallar nəticəsində bağlanmış sülh müqavilələrini və şərtlərini cədvəlləşdirin» tapşırığını vermək olar.

Fərdi qiymətləndirmə aparın. Bunun üçün məqsədinizə uyğun meyarların müəyyənləşdirilməsi vacibdir.

**Qiymətləndirmə meyarları:** *tərtibetmə, xəritəköçürmə, müqayisəetmə*

| I | II | III |
|---|---|---|
| Dövrə aid sinxron cədvəlləri tərtib etməkdə çətinlik çəkir. | Dövrə aid sinxron cədvəlləri müəllimin köməyi ilə tərtib edir. | Dövrə aid sinxron cədvəlləri sərbəst tərtib edir. |
| Məlumatlara əsasən Rusiyanın işğalları nəticəsində baş verən ərazi dəyişikliklərini kontur xəritəyə köçürməkdə çətinlik çəkir. | Məlumatlara əsasən Rusiyanın işğalları nəticəsində baş verən ərazi dəyişikliklərini kontur xəritəyə müəllimin köməyi ilə köçürür. | Məlumatlara əsasən Rusiyanın işğalları nəticəsində baş verən ərazi dəyişikliklərini kontur xəritəyə sərbəst köçürür. |
| II Yekaterinanı I Pyotrla müqayisə etməkdə çətinlik çəkir. | II Yekaterinanı I Pyotrla müəllimin köməyi ilə müqayisə edir. | II Yekaterinanı I Pyotrla sərbəst müqayisə edir. |

Çap üçün deyil

## 17. AVROPA VƏ AMERİKA MƏDƏNİYYƏTİ

***Məzmun standartı:***

5.1.1. Şərqdə və Qərbdə intibah mədəniyyətinin xüsusiyyətlərini izah edir.
5.1.2. Elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir.
5.1.3. Dünya mədəniyyətinin nailiyyətlərinə dair cədvəl və qrafiklər hazırlayır.

***Təlim məqsədi:***

1. Avropa və Amerika mədəniyyətinin xüsusiyyətlərini izah edir.
2. Avropa və Amerikadakı elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir.
3. Avropa və Amerikanın mədəni nailiyyətlərinə aid cədvəl və qrafiklər hazırlayır.

***Təlim forması:***

Kollektiv iş, qruplarla iş

***Təlim üsulu:***

BİBÖ, fasiləli oxu

Bu mövzunun tədrisi dərs ilinin sonuna təsadüf etdiyi üçün mədəniyyətlə bağlı verilmiş bütün standartları seçərək bilik və bacarıqları şagirdlərdə formalaşdırmaq olar. Standartlar seçilərkən sadədən mürəkkəbə qaydası nəzərə alınmaqla müəyyənləşərsə, daha səmərəli olar.

Siz bir dərsdə əsas standartı əhatə edən bütün alt-standartları seçmək məcburiyyətində deyilsiniz. Əslində, bu cür seçim standart və standartla bağlı işin təşkilində təcrübənin az olmasından xəbər verə bilər. Əgər zəruriyyət yaranarsa, siz də bu cür addım ata bilərsiniz.

Mövzunun tədrisi və standartların reallaşdırılması üçün «BİBÖ» üsulunu tətbiq edə bilərsiniz. Bunun üçün siz BİBÖ cədvəlini öncədən lövhəyə asın.

Çap üçün deyil

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| | | |

Xatırladaq ki, BİBÖ aşağıdakı mərhələlər üzrə aparılır:

1. Problem müəllim tərəfindən elan edilir.
2. Müəllim lövhədə 3 sütundan ibarət cədvəl çəkir və aşağıdakı bölmələri qeyd edir: – Bilirəm/ İstəyirəm bilim/ Öyrəndim.
3. Şagirdlər problemlə bağlı bildiklərini söyləyir və cavablar birinci sütunda qeyd olunur.
4. Həmin məsələ ilə bağlı bilmək istədikləri isə ikinci sütuna yazılır.
5. Dərsin sonunda bir daha həmin cədvələ diqqət yetirilir və mövzu ilə bağlı öyrəndikləri üçüncü sütunda qeyd edilir.

Dərs təbii olaraq motivasiya ilə başlanmalıdır. Bunun üçün əvvəlcə A blokundakı materialla şagirdləri tanış edin. Yaxud da öncədən hazırladığınız sualları şagirdlərinizə verin. Şagirdlərin Avropa və Amerika mədəniyyəti ilə bağlı bildiklərini BİBÖ cədvəlinin Bilirəm hissəsinə qeyd edin. Sonra onların öyrənmək istədikləri məsələləri əks etdirən qeydlərini yazdırın. Öyrəndim mərhələsi təbii ki, dərsin sonunda dolmalıdır.

Bu üsulun tətbiqi dərsin bütün mərhələlərini əhatə edir.

B blokundakı yeni materialı şagirdlərə oxudun. Onlara növbə ilə mətni oxutdurun. Xahiş edə bilərsiniz ki, bu hissəni ucadan və anlaşıqlı şəkildə oxusunlar. Sonra şagirdlərdən bu mətndəki baş verən hadisəyə münasibət bildirmələrini xahiş edin. C blokuna aid suallardan istifadə etməklə mətnin birinci hissəsini müzakirə etdirin. Şagirdlərin diqqətini E blokuna aid olan şəkillərə cəlb etmək üçün onlara suallar verin.

Tədqiqatı aparmaq üçün «Avropa və Amerika mədəniyyətinin tarixdəki yeri və rolu nədən ibarətdir?» sualını vermək olar. Bu tədqiqatın aparılması üçün C blokundakı tapşırıqlardan istifadə edə bilərsiniz. Yaxud da özünüz hazırladığınız iş vərəqlərindəki tapşırıqları şagirdlərə verə bilərsiniz. Əsas odur ki, tapşırıqlar Avropa və Amerika mədəniyyətinin xüsusiyyətləri, buradakı elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini özündə əks etdirsin.

Məqsədinizə uyğun olaraq fərdi şəkildə şagirdlərə: – «Avropa və Amerikanın mədəni nailiyyətlərinə aid cədvəl və qrafiklər hazırlayın» – tapşırığını da verməniz tövsiyə olunur.

Məlumatların mübadilə və müzakirə mərhələsini reallaşdırarkən şagirdləri müzakirələrə cəlb edin. Bu zaman əldə olunan bilikləri BİBÖ cədvəlinin «Öyrəndim» hissəsinə yerləşdirməyi unutmayın.



Çap üçün deyil

Ev tapşırığı C blokundakı: – «Ədəbiyyat, rəssamlıq, memarlıq ölkənin həmin dövrdəki tarixini öyrənmək üçün mənbədir» – mövzusunda esse yazın ola bilər.

Digər dərslərin tədrisində olduğu kimi, qiymətləndirmə məqsədə görə müəyyən edilmiş meyara əsasən aparılmalıdır.

**Qiymətləndirmə meyarları:** *izahetmə, cədvəl və qrafik hazırlama*

| I | II | III | IV |
|---|---|---|---|
| Avropa və Amerika mədəniyyətinin xüsusiyyətlərini izah etməkdə çətinlik çəkir. | Avropa və Amerika mədəniyyətinin xüsusiyyətlərini sualların köməyi ilə izah edir. | Avropa və Amerika mədəniyyətinin xüsusiyyətlərini izah edir. | Avropa və Amerika mədəniyyətinin xüsusiyyətlərini əsaslandıraraq izah edir. |
| Avropa və Amerikadakı elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah etməkdə çətinlik çəkir. | Avropa və Amerikadakı elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini sualların köməyi ilə izah edir. | Avropa və Amerikadakı elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini izah edir. | Avropa və Amerika-dakı elmi kəşf və ixtiraların dünya mədəniyyətinin inkişafına təsirini faktlarla izah edir. |
| Avropa və Amerikanın mədəni nailiyyətlərinə aid cədvəl və qrafiklər hazırlamaqda çətinlik çəkir. | Avropa və Amerikanın mədəni nailiyyətlərinə aid cədvəl və qrafikləri müəllimin köməyi ilə hazırlayır. | Avropa və Amerikanın mədəni nailiyyətlərinə aid cədvəl və qrafikləri hazırlayır, lakin faktlarda bəzi səhvlər edir. | Avropa və Amerikanın mədəni nailiyyətlərinə aid cədvəl və qrafikləri sərbəst hazırlayır. |

Çap üçün deyil

# DƏRS NÜMUNƏLƏRİ

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ YARADILMASI

***Standartlar:***

1.1.2. Oxşar proses və hadisələri əlaqələndirən sinxron cədvəllər tərtib edir.

2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyişiklikləri məkanla əlaqədə izah edir.

3.1.2. Yeni tipli dövlətlərin qeyri-bərabər inkişafına aid esse yazır.

***Məqsəd:***

1. Amerika Birləşmis Ştatlarının yaranması ilə əlaqədar sinxron cədvəllər tərtib edir.
2. Amerikanın həyatında baş vermiş iqtisadi, sosial dəyişiklikləri məkanla əlaqədə izah edir.
3. ABŞ-ın inkişafı haqqında esse yazır.

***İş forması***: kollektiv və qruplarla iş

***Təlim üsulu:*** beyin həmləsi, müzakirə

***İnteqrasiya:*** Az-d. 3.1.1.; Ə. 3.1.3.;  X-d. 4.1.2.

***Resurslar:*** dərslik, iş vərəqləri, xəritə, marker, paylayıcı materiallar və s.

***Dərsin mərhələləri:*** Motivasiya




Çap üçün deyil

1) Bu şəkillər haqqında nə deyə bilərsiniz?
2) Şəkillər hansı xalqın həyatını əks etdirir?
3) Amerika xalqları haqqında nə deyə bilərsiniz?
4) Konstitusiya nə deməkdir?
5) Hakimiyyətin bölgüsü deyəndə nə başa düşürsünüz?
*Şagirdlər fərziyyələr irəli sürürlər.*
***Tədqiqat sualı:*** ABŞ-ın yaranmasının dünya tarixində nə kimi rolu oldu?
Bu suala cavab axtarmaq üçün tədqiqat aparılır, qruplara tapşırıqlar verilir.

## TAPŞIRIQ 1.

### QRUP 1. VAŞİQTON



İstiqlaliyyət müharibəsinin gedişini şərh edərək xəritəyə əsasən Amerika qitəsindəki mövqeyini müəyyənləşdirin: ________________

________________________________________

________________________________________

________________________________________

________________________________________

________________________________________

### QRUP 2. ABŞ



İstiqlaliyyət müharibəsi gedişində qələbə və məğlubiyyətlə nəticələnən döyüşləri cədvəldə qeyd edin: _________

________________________________

________________________________

________________________________

________________________________

| Qələbə ilə nəticələnən döyüşlər | Məğlubiyyətlə nəticələnən döyüşlər |
|---|---|
| | |

İngiltərənin Amerikaya qarşı olan mövqeyini müəyyənləşdirərək izah edin.

____________________________________________________________

Çap üçün deyil



## QRUP 3. İSTİQLALİYYƏT

Mətndən «İstiqlaliyyət bəyannaməsi»nin müsbət və mənfi cəhətlərini müəyyənləşdirib cədvəli doldurun. Azərbaycan Respublikasının Konstitusiyası ilə tanışsınız. Bizim ölkəmizdə vətəndaşlara hansı hüquqlar verilir – bunları müzakirə edib oxşar və fərqli cəhətləri cədvəldə yazın.

Konstitusiya kitabını sinfə gətirə və yaxud da həmin hissələri paylama materialı kimi verə bilərsiniz. Həmin hissələrin dərslikdən oxunmasını da tapşırmaq olar.

| Azərbaycan Respublikasının Konstitusiyası | İstiqlaliyyət bəyannaməsi |
|---|---|
| | |

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş vaxt ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər.

***Məlumatın müzakirəsi***: Cavablar diqqətlə dinlənir, müzakirə olunur və əlavələr edilir. Meyar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Mübadilədən düzgün istifadə | Təqdimetmə | Tapşırığı vaxtında yerinə yetirmə | Əməkdaşlıq |
|---|---|---|---|---|
| I | | | | |
| II | | | | |
| III | | | | |

***Nəticə və ümumiləşdirmə***: Nəticədə şagirdlər ABŞ-ın İstiqlaliyyət müharibəsinin əhəmiyyətini məkanla əlaqədə izah edirlər. İstiqlaliyyət müharibəsi nəticəsində kapitalizmin inkişafına mane olan amillər – ingilis müstəmləkə hökmranlığının aradan qaldırılması yollarını araşdırmaqla, sinxron cədvəllər tərtib etmə bacarığına malik olurlar. ABŞ Konstitusiyası dünyada ilk olaraq ölkədə hakimiyyətin – qanunvericilik, icra və məhkəmə hakimiyyətinə bölünməsini anladı.



Çap üçün deyil

***Yaradıcı tətbiqetmə***: Şagirdlər düzgün cavabları oxların qarşına düzürlər.

Amerika → dostluq, işğalçılıq, müharibə,
İngiltərə → qələbə, məğlubiyyət,
Fransa → müdafiə

kimi sözlərdən istifadə edərək dövlətlər arasındakı münasibətləri müəyyən edin.

***Ev tapşırığı***: Amerika Birləşmiş Ştatları haqqında hekayə yazın.

***Refleksiya və qiymətləndirmə***: Şagirdlər təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə sual verməklə fərdi şəkildə qiymətləndirilir. Məsələn: ABŞ-da birdəfəlik feodalizm quruluşu necə ləğv edildi? Buna necə nail oldular? Xəritədə ABŞ-ın ərazisini göstərin. Dərsdə biz hansı nəticəyə gəldik?

**Qiymətləndirmə meyarları:** *tərtibetmə, izahetmə, esseyazma*

| I | II | III |
|---|---|---|
| Amerika Birləşmis Ştatlarının yaranması ilə əlaqədar sinxron cədvəllər tərtib etməkdə çətinlik çəkir. | Müəllimin köməyi ilə Amerika Birləşmis Ştatlarının yaranması ilə əlaqədar sinxron cədvəllər tərtib edir. | Amerika Birləşmis Ştatlarının yaranması ilə əlaqədar sinxron cədvəlləri asanlıqla tərtib edir. |
| Amerikanın həyatında baş vermiş iqtisadi, sosial dəyişiklikləri məkanla əlaqədə izah etməkdə çətinlik çəkir. | Sualların köməyi ilə Amerikanın həyatında baş vermiş iqtisadi, sosial dəyişiklikləri məkanla əlaqədə izah edir. | Amerikanın həyatında baş vermiş iqtisadi, sosial dəyişiklikləri məkanla əlaqədə asanlıqla izah edir. |
| ABŞ-ın inkişafı haqqında esse yazmaqda çətinlik çəkir. | Müəllimin köməyi ilə ABŞ-ın inkişafı haqqında esse yazır. | ABŞ-ın inkişafı haqqında sərbəst esse yazır. |

Çap üçün deyil

# JİRONDİSTLƏR VƏ YAKOBİNÇİLƏR

***Standartlar:***

1.1.3. Hadisə, təzahür və proseslər arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.

2.1.1. Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranmasını, dünyada baş vermiş iqtisadi, sosial dəyişiklikləri məkanla əlaqədə izah edir.

***Məqsəd:***

1. Fransa burjua inqilabının gedişində baş verən hadisələri müəyyənləşdirən xronoloji cədvəllər tərtib edir.
2. Fransada feodal münasibətlərinin dağılmasını məkanla əlaqəda izah edir.

***İş forması***: kollektiv və qruplarla iş

***Təlim üsulu:*** beyin həmləsi, müzakirə

***İnteqrasiya:*** Ü.t. 2.1.1.

***Resurslar:*** xəritə, şəkillər, dərslik, flipçart, marker, iş vərəqi, paylayıcı material, formativ test və s.

***Dərsin mərhələləri:*** Motivasiya

| | |
|---|---|
| **1302-ci il** → | |
| **Yüzillik müharibə** → | |
| **Janna d'Ark** → | |

Bu tarixi faktlar haqqında nə deyə bilərsiniz? Onlar hansı xalqın tarixini əks etdirir? İngiltərə burjua inqilabı nə vaxt oldu? Hansı tarixi şərait inqilaba gətirdi?

Şagirdlər öz fərziyyələrini irəli sürürlər.

***Tədqiqat sualı:*** Böyük Fransa inqilabının dünya tarixindəki rolu nədən ibarətdir? Bu suala cavab axtarmaq üçün qruplarla iş aparılır. Onlara tapşırıqlar verilir.

**I qrup:** Fransanın siyasi, sosial-iqtisadi münasibətlərini təhlil edin: Böyük Fransa burjua inqilabının əsas vəzifələrinin səbəblərini müəyyən edin.

**II qrup:** «İnsan və vətəndaş hüquqları bəyannaməsi»nin əhəmiyyətini izah edin. Amerika Birləşmiş Ştatlarındakı «İstiqlaliyyət bəyannaməsi» ilə əlaqələndirib cədvəli doldurun:

| «İnsan və vətəndaş hüquqları bəyannaməsi» | «İstiqlaliyyət bəyannaməsi» |
|---|---|
| | |



Çap üçün deyil

**III qrup:** 1789–1794-cü illərdə inqilabın gedişində baş verən tarixi hadisələrlə bağlı cədvəl qurun.

| 1789-cu il | 1791-ci il | 1792-ci il | 1793-cü il |
|---|---|---|---|
| | | | |

**IV qrup:** Yakobinçi diktaturasının dağılma səbəblərini müəyyənləşdirin.

***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər.

***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Meyar əsasında qruplar qiymətləndirilir.

| Qruplar | Mübadilədən düzgün istifadə | Təqdimetmə | Tapşırığı vaxtında yerinə yetirmə | Əməkdaşlıq |
|---|---|---|---|---|
| I | | | | |
| II | | | | |
| III | | | | |
| IV | | | | |

***Nəticə və ümumiləşdirmə:*** Nəticədə şagirdlər 1789–1794-cü illər Böyük Fransa inqilabının nəticələrini bildi, Böyük Fransa inqilabında əsas rolu xalq kütlələrinin oynadığını anladılar və «İnsan və vətəndaş hüquqları bəyannaməsi»nin Fransa tarixində rolunu bildilər

***Yaradıcı tətbiqetmə:*** Fransa inqilabının gedişində əhalidən alınan vergiləri sxem vasitəsilə tərtib edin.

| | |
|---|---|
| **Hansı təbəqələr** → | |
| **Dövlətə verilən vergi** → | |

***Ev tapşırığı:*** Fransa burjua inqilabının dünya tarixində oynadığı rol haqqında esse hazırlayın.

***Refleksiya və qiymətləndirmə:*** Şagirdlər fərdi şəkildə qiymətləndirilir. Təlim fəaliyyətini izləməyə kömək edəcək bir neçə sual verməklə – məsələn, biz nəticəyə necə gəlib çıxdıq? Necə nail olduq?

Çap üçün deyil

Fransada respublika nə vaxt yarandı? Bastiliya qalasının alınmasının Fransa tarixində əhəmiyyəti nədən ibarət oldu?

Fransa burjua inqilabının İngiltərə burjua inqilabından fərqi nə idi?

**Qiymətləndirmə meyarları:** *tərtibetmə, izahetmə*

| I | II | III | IV |
|---|---|---|---|
| Tərtibetmədə çətinlik çəkir. | Tərtibetmədə müəllimin köməyindən istifadə edir. | Tərtibetmədə kiçik səhvlər edir. | Sərbəst tərtib edir. |
| İzahetmədə çətinlik çəkir. | İzahetmədə sualların köməyindən istifadə edir. | İzahetmə zamanı bəzi səhvlər edir. | Asanlıqla izah edir. |



Çap üçün deyil

# «ÜMUMİ TARİX» FƏNNİ ÜZRƏ RESURSLAR

## XƏRİTƏLƏR VƏ ATLASLAR

1. «Osmanlı imperiyası».
2. «Hindistan XI–XVI əsrlərdə».
3. «Çin XI–XVI əsrlərdə».
4. «Avropa yeni dövrün başlanğıcında».
5. «Fransa burjua inqilabı dövründə (1789–1794)».
6. «İstiqlaliyyət müharibəsi və ABŞ-ın yaranması».
7.«Şimal müharibəsi».
8. «ABŞ-da vətəndaş müharibəsi».
9. «Napoleonun işğalları».
10. «Osmanlı imperiyası XVII–XVIII əsrlərdə».
11. «Avropa ölkələri XV–XIX əsrlərdə».

## SXEMLƏR, CƏDVƏLLƏR, DİAQRAMLAR, ŞƏKİLLƏR

1. «Bastiliyanın alınması» – şəkil
2. «Feodalizmin və kapitalizmin xarakterik xüsusiyyətləri» – cədvəl
3. «Fransada üç silk» – cədvəl
4. «Fransa inqilabdan əvvəl» – cədvəl
5. «İngiltərə inqilabdan əvvəl» – cədvəl
6. «İngilis kralı I Karlın edam edilməsi» – şəkil
7. «İstiqlaliyyət bəyannaməsi»nin elan edilməsi» – şəkil
8. «Poltava döyüşü» – sxem
9. «Ticarət. Manufaktura. Fabrik» – sxem
10. «Hərbi-siyasi bloklar» – diaqram
11. «ABŞ-ın dövlət quruluşu» – sxem
12. «Fransanın dövlət quruluşu» – sxem

## AUDİOVİZUAL VASİTƏLƏR, KİNOFİLMLƏR

1. «Borodino» bədii filmi
2. «Napoleon Bonapart» bədii filmi
3. «Vətənpərvər» bədii filmi
4. «Şimal və Cənub» bədii filmi
5. «II Yekaterina» bədii filmi

Çap üçün deyil

## İNTERNETDƏN İSTİFADƏ ÜÇÜN

1. www.history.az
2. www.history.ru
3. http://www.urokiistorii.ru
4. http://www.uroki.net
5. http://www.tarix.info
6. http://teachers.net/lessonplans/subjects/history
7. http://az.wikipedia.org/wiki/Portal:Tarix

Çap üçün deyil

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


### *Azərbaycan dilində*

1. Azərbaycan tarixi 7 cilddə, III cild, Bakı, 1999.
2. **Əfəndiyev O.** Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993.
3. **Fərzəlibəyli Ş.** Azərbaycan və Osmanlı imperiyası. Bakı, 1995.
4. **Mahmudov Y.** Azərbaycan diplomatiyası. Bakı, 1996.
5. **Mustafazadə T., Əliyev Q., Aslanov R., Həsənov H., Məhərrəmov E.** Yeni Tarix. I hissə (Dərs vəsaiti), Bakı, 2001.
6. **Mustafazadə T.** XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı–Azərbaycan münasibətləri. Bakı, «Elm», 2002.
7. **Mustafazadə T.** Azərbaycan–Rusiya münasibətləri. Bakı, «Şərq-Qərb», 2014.
8. **Nəcəfli G.** XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı, «Nurlan», 2007.
9. **Nəcəfli T.** Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012.

### *Rus dilində*

10. **Абдурахманов А.А.** Азербайджан во взаимоотношениях России, Турции и Ирана. Баку, 1964.
11. **Абдуллаев Г.Б.** Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Баку, 1965.
12. **Алиев Ф.М.** Миссия посланника русского государства А.П.Волынского в Азербайджане (1716–1718). Баку, 1979.
13. **Алиев Ф.М.** Азербайджано-русские отношения (XV–XIX вв), ч. I, Баку, 1985.
14. Всемирная история. Т. 3. Пер. Б.Бартолда. СПб, 1903.
15. **Дмитриева О.В.** Новая история (конец XV–XVIII век). М., 2000.
16. **Иванов М.** Очерк истории Ирана. М., 1952.
17. История Востока, Т.2. М., 2000.
18. История Европы, Т.3. От средневековья к новому времени. М., 1993.
19. **Мустафазаде Т.** Азербайджан и русско- турецкие отношения в первой трети XVIII в. Баку, 1993.
20. **Наджафли Г.** Азербайджан в XVIII–XIX веках. Бишкек, 2010.
21. **Новичев А.Д.** История Турции, ч. I, Л. 1963/78.


Çap üçün deyil

22. **Нерсесян М.** Из истории армяно-русских отношений, кн.I, Ереван, 1956.
23. **Пайчадзе Г.Г.** Русско-грузинские политические отношения в I половине XVIII века. Тбилиси, 1970.
24. **Смирнов Н.А.** Политика России на Кавказе XVI–XIX вв. М., 1958.
25. **Соловьев С.М.** Публичное чтение о Петре Великом. М., 1984.
26. **Соловьев С.М.** Петр I на Каспийском море. М., 1868.
27. **Соловьев С.М.** Чтение и рассказы по истории России. М., 1989.

***Məktəblinin əlavə oxu materialı***

28. **Ənvər Çingizoğlu.** Qacarlar və Qacar kəndi. Bakı, 2008.
29. **Mirələmov H.** Sonuncu Fateh. Bakı, 2012.
30. **Tahirzadə Ə.** Ağa Məhəmməd Qacar. Bakı, 2004.
31. **Tahirzadə Ə.** Azərbaycan imperatorları: 1. Nadir şah Əfşar. Bakı, 2005.

Çap üçün deyil

# KİTABIN İÇİNDƏKİLƏR

Metodik vəsait haqqında ....................3
Fənnin məzmun xətləri və onların əsaslandırılması....................11
Məzmun xətləri üzrə təlim nəticələri ....................13
Fəaliyyət xətləri....................15
VIII sinif «Ümumi tarix» fənni üzrə məzmun standartları....................16
VIII sinif üzrə məzmun standartlarının şərhi ....................18
«Ümumi tarix» fənninin inteqrasiya imkanları....................21
Təlim strategiyaları ....................23
Planlaşdırmanın aparılmasına dair tövsiyələr ....................35
Tədrisin səmərəli olması üçün tövsiyələr ....................39
Qiymətləndirməyə dair tövsiyələr....................44
Tematik planlaşdırma ....................52
Mövzuların reallaşdırılması üçün metodik tövsiyələr ....................54

## XVII–XVIII ƏSRLƏRDƏ ŞƏRQDƏ NƏLƏR BAŞ VERDİ?

**1.** Azərbaycan Səfəvi imperiyası yeni dövrün astanasında ....................54
**2.** Nadir şah Əfşar imperiyası ....................57
**3.** Qacarlar imperiyasının yaranması ....................59
**4.** Böyük Moğol imperiyasının parçalanması....................61
**5.** «Qapalı ölkə» ....................64
**6.** «Gündoğan ölkə»....................67
**7.** Şərq xalqlarının mədəniyyəti ....................70

## TÜRK DÜNYASI VƏ QAFQAZ XALQLARI XVII–XVIII ƏSRLƏRDƏ

**8.** Osmanlı imperiyası – tənəzzülün başlanması....................73
**I.** Yeni dövrə köhnə qaydalarla daxil olan imperiya ....................73
**II.** Osmanlı dövlətinin beynəlxalq nüfuzunun zəifləməsi....................76
**III.** Avropa dövlətlərinin Osmanlı imperiyasını bölüşdürmək planları ....................78
**9.** Mərkəzi Asiya xanlıqları....................80
**10.** Volqaboyu, Ural və Sibir türkləri....................82
**11.** Qafqaz XVII–XVIII əsrlərdə....................84
**I.** Şimali Qafqaz yeni dövrün astanasında....................84
**II.** Cənubi Qafqaz məkrli planların hədəfində....................86
**12.** Türk və Qafqaz xalqlarının mədəniyyəti ....................88

Çap üçün deyil

## AVROPA VƏ AMERİKA


**13.** «Dumanlı Albion» – duman dağılır ........................................................90
**I.** Parlament, yoxsa kral? ..........................................................................90
**II.** Böyük Britaniya krallığı necə yarandı? ...................................................92
**III.** Dünyanın ilk sənaye dövləti ...................................................................94
**14.** Şimali Amerikada «Yeni İngiltərə» .........................................................96
**I.** Şimali Amerikada yeni həyat ..................................................................96
**II.** Amerika Birləşmiş Ştatlarının yaranması ...............................................98
**15.** «Daxmalara sülh – saraylara müharibə» ...............................................100
**I.** Fransa inqilabının müjdəçiləri ...............................................................100
**II.** Jirondistlər və Yakobinçilər ...................................................................102
**III.** Termidorçular və Napoleon Bonapart ...................................................104
**16.** Rusiya imperiyası yeni dövrün astanasında ..........................................107
**I.** Rusiyanın ilk imperatoru .........................................................................107
**II.** İsti dənizlərə çıxmaq uğrunda mübarizə ..............................................109
**17.** Avropa və Amerika mədəniyyəti ...........................................................111
Dərs nümunələri ..........................................................................................114
«Ümumi tarix» fənni üzrə resurslar ............................................................121
İstifadə olunmuş ədəbiyyat .........................................................................123


Çap üçün deyil

Nəşriyyat redaktoru ***Gülər Ələkbərqızı***
Bədii və texniki redaktoru ***Abdulla Ələkbərov***
Kompüter tərtibatçıları ***Səbinə Məmmədova, Təhmasib Mehdiyev***
Korrektoru ***Natəvan Məmmədova***

Çapa imzalanmışdır 06.07.2015. Kağız formatı 70x100 $^1/_{16}$.
Ofset çapı. Ofset kağızı. Məktəb qarnituru.
Fiziki çap vərəqi 8,0. Uçot nəşr vərəqi 7,15.
Sifariş 43. Tiraj 7000. Pulsuz.

«Aspoliqraf LTD» MMC
Bakı, AZ 1052, F.Xoyski küç., 121$^B$
e-mail: as_poliqraf@box.az

Çap üçün deyil

***Sevil Şivəxan qızı Bəhrəmova***
***Amənə Eldar qızı Kərbəlayeva***
***Güntəkin Cəmil qızı Nəcəfli***

ÜMUMİ TARİX

8-ci sinif

*(Müəllim üçün metodik vəsait)*

Bakı, «Aspoliqraf», 2015.

Çap üçün deyil